Metodik vəsait

# Həyat bilgisi 4



*NƏRGİZ CABBARLI*
*KÖNÜL MAHMUDOVA*

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*

# HƏYAT BİLGİSİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# Mündəricat

Giriş....................4
4-cü sinif Həyat bilgisi fənni üzrə məzmun standartları....................5
Məzmun xətləri üzrə əsas və alt standartlar....................6
Dərslik komplekti haqqında....................8
Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli nümunəsi....................9
4-cü sinif üçün Həyat bilgisi fənni üzrə təxmini illik planlaşdırma.................... 11
Həyat bilgisinin tədrisində layihələrin icrası....................12
Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr....................13
Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr....................15

GÜNDƏLİK PLANLAŞDIRMA NÜMUNƏLƏRİ

1. Orqanlarımız....................16
2. Bitkilərin həyatımızda rolu.................... 20

GÜNDƏLİK PLANLAŞDIRMAYA DAİR TÖVSİYƏLƏR

CANLI HƏYAT

1. Orqanlarımız.................... 24
2. Bitkilərin həyatımızda rolu.................... 28
3. Heyvanların həyatımızda rolu....................31
4. İnsan və mikroorqanizmlər.................... 34
5. İnsana təsir edən amillər.................... 37
6. Sağlamlığımızın qayğısına qalaq.................... 39
7. Mühit amillərinin canlılara təsiri.................... 42
8. Ətraf mühitin qorunması.................... 45

## FƏRD, AİLƏ VƏ CƏMİYYƏT

9. İnsan sosial varlıq kimi ... 48
10. Ailənin cəmiyyətdə rolu ... 51
11. Ailədə və kollektivdə vəzifələrimiz ... 53
12. Cəmiyyətdə ünsiyyətin rolu ... 55
13. Mənəvi keyfiyyətlərimiz ... 57
14. Mənəvi borc ... 59
15. Dini dəyərlər ... 62

## DÖVLƏT VƏ HÜQUQ

16. Dövlət orqanları ... 66
17. Hüquqlarımız ... 68
18. Dövlət büdcəsi ... 71
19. Pullar ... 74

## SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

20. Fövqəladə hallar və nişanlar ... 77
21. Fövqəladə hallarda davranış qaydaları ... 81
22. Planın çəkilməsi ... 84
23. İlk tibbi yardım ... 86
24. Yol hərəkəti qaydaları ... 89

## HƏRƏKƏT VƏ ENERJİ

25. Coğrafi obyektlər xəritədə ... 92
26. Təbii zonalar ... 94
27. Təbii ehtiyatlar ... 97

# Giriş

Müstəqil Azərbaycan bütün sahələrdə, o cümlədən də təhsil sahəsində özünü dünyanın qabaqcıl ölkələri ilə bərabər səviyyəyə çatdırmağa çalışır. Hər bir ölkənin inkişafı onun təhsil sahəsində əldə etdiyi nailiyyətlərlə, xalqın yüksək təhsil almaq imkanı və maariflənməsi ilə təmin olunur. Qloballaşan dünyaya inteqrasiya, hədəflərin düzgün müəyyənləşdirilməsi, nailiyyətlərə doğru atılan addımlar, uğurlar əldə etmək üçün təhsilin, təhsil resurslarının əlçatanlığı əsas tələb kimi hələ də öz aktuallığını qoruyub saxlamaqdadır.

Ümumtəhsil məktəblərində təhsilalanların şəxsiyyət kimi formalaşmasına, həyati bacarıqlara yiyələnməsinə, uğurlar əldə etməsinə şərait yaradan müasir dövrün kurikulumların tələblərinə cavab verən, pedaqoji prinsiplərə uyğun (düzgünlük, əyanilik, müasirlik, tamlıq, ardıcıllıq, təlim vaxtına, yaş xüsusiyyətinə uyğunluq, oxunaqlılıq, inklüzivlik, fəal təlim üçün şəraitin yaradılması, gigiyenik tələblərə uyğunluq) hazırlanması müasir dövrün tələblərindən biridir.

4-cü sinif Həyat bilgisi dərslik komplekti hazırlanarkən yuxarıda sadalanan prinsiplərə, uzun illərdir ölkədə həyata keçirilmiş təhsil islahatlarının şərtlərinə, dərsliklərin hazırlanmasına verilən tələblərə əməl olunmasına diqqət ayrılmışdır. Dərslik şagirdləri idraki fəallığa sövq etməklə fəal təlim şəraitinin yaradılmasına da imkan yaradır. Dərsliyin hazırlanması zamanı Həyat bilgisi kurikulumunun tələblərinə əməl olunmuş, şagirdlərin artıq informasiya ilə yüklənməsinə yol verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuş, sxemlərə, şəkillər üzərində izahlara, şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına yönəlmiş layihələrə və təqdimatlara, həyati bacarıqların formalaşdırılmasının üstün cəhət olduğu nəzərə alınaraq müxtəlif növ məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafına xidmət edən tapşırıqlara önəm verilmişdir. Şagirdləri öyrənməyə sövq etmək, yaş səviyyəsini nəzərə almaq məqsədilə təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə olması, həm istedadlı, həm də müəyyən səbəblərdən geridə qalan şagirdlərin təlim maraqlarının ödənilməsi nəzərə alınmışdır. İnklüzivliyin diqqət mərkəzində saxlanılması dərsliyin yazılmasında vacib amil olaraq gözlənilmişdir. Hər bir mövzu üzrə təlim materialları tərtib olunarkən fəal təlim şəraitinə uyğunluq nəzərə alınmış, sadədən mürəkkəbə prinsipi, xronoloji və məntiqi ardıcıllıq gözlənilmişdir.

Metodik vəsaitin hazırlanması zamanı müəllimlərin ehtiyacları nəzərə alınmış, fənn və sinif üzrə məzmun standartları, standartların reallaşdırılma cədvəli, inteqrasiya cədvəli, bir neçə mövzu üzrə icmal nümunələri, təxmini illik planlaşma, layihələrin hazırlanması, qiymətləndirmə qaydaları, qiymətləndirmə vasitələri, dərslikdəki hər bir mövzunun tədrisinə dair tövsiyələr öz əksini tapmışdır. Bununla yanaşı, metodik vəsaitdə dərslik və metodik vəsaitin hazırlanmasında istinad edilmiş mənbə və ədəbiyyat, internet resurslarının siyahısına da yer verilmiş və müəllimə təqdim edilmişdir. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və metodik vəsait dövlətin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qoyduğu tələbi maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

# 4-cü sinif Həyat bilgisi fənni üzrə məzmun standartları

**4-cü sinfin sonunda şagird:**

- varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
- coğrafi obyektləri xəritədə göstərir, yaşadığı məhəllənin planını çəkir;
- bitki, heyvan və mikroorqanizmin insan həyatında rolunu, insan orqanlarının funksiyalarını sadə şəkildə izah edir;
- ekologiyanın sağlamlaşdırılması, qorunması ilə bağlı kiçik təqdimatlar edir;
- insanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə təqdimatlar edir;
- "vergi", "dövlət büdcəsi" və "sığorta" anlayışlarını sadə şəkildə izah edir;
- "qənaət", "israf" anlayışlarını müqayisə edir;
- dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir;
- öz hüquqlarını uşaq hüquqları sənədləri baxımından şərh edir;
- ünsiyyət mədəniyyətinə aid kiçik təqdimatlar edir;
- müzakirə və diskussiyalarda mənəvi keyfiyyətləri nümayiş etdirir;
- dini dəyərləri xurafatdan fərqləndirir;
- ailə və vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir;
- sağlamlığa mənfi təsir göstərən əsəbilik və digər emosional gərginlikləri nümunələrlə izah edir;
- məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını izah edir;
- yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir;
- fövqəladə hallar zamanı tibbi yardım barədə biliklərini şərh edir.

# Məzmun xətləri üzrə əsas və alt standartlar

## 1. Təbiət və biz

**Şagird:**

1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.

1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir.

1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən (“işıq”, “səs” və “enerji”) istifadədə elmin rolunu izah edir.

1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.

1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.

1.2.1. Coğrafi obyektləri xəritədə göstərir.

1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.

1.2.3. Yaşadığı ərazinin, məhəllənin planını çəkir.

1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir.

1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.

1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.

1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

## 2. Fərd və cəmiyyət

**Şagird:**

2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.

2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.

2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.

2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

2.2.1. “Qənaət” və “israf “ anlayışlarını müqayisə edir.

2.2.2. “Vergi”, “dövlət büdcəsi” və “sığorta” anlayışlarını sadə şəkildə izah edir.

2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.

2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.

2.3.1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir.

2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.

2.4.1. Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir.

2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.

**3. Mənəviyyat**

**Şagird:**

3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.

3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə “yox” demək) riayət edir.

3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.

3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.

3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.

3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.

3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır.

3.3.2. İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.

3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.

3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

**Şagird:**

4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.

4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir.

4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.

4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir.

4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir.

4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.

4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir.

4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.

# Dərslik komplekti haqqında

Dərslik komplekti dərslikdən və müəllim üçün vəsaitdən ibarətdir.

4-cü sinif Həyat bilgisi dərsliyi şagirdlərdə təbiət-cəmiyyət münasibətlərinin formalaşdırılmasını, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsini, onların sosial bacarıqlara yiyələnməsini ön plana çəkməklə yanaşı, struktur baxımından sadədən mürəkkəbə doğru inkişaf dinamikasının gözlənilməsini təmin edir. Dərslikdə verilən layihələr şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi, müstəqil öyrənmə, təqdimat hazırlamaq və təqdimat etmək, təbiətdə və cəmiyyətdə davranış qaydalarına əməl etmək, insan sağlamlığına təsir göstərən amilləri bilməklə uyğun davranış nümayiş etdirmək və s. kimi bacarıqların formalaşdırılmasına yönəlmişdir. Dərslik boyu mövzuların və təlim tapşırıqlarının tərtibi zamanı şagirdlərin maraqlarının nəzərə alınması, zəruri həyati bacarıqların formalaşdırılmasına çalışılmışdır.

Müasir dövrün həm tipik, həm də xüsusi təhsilə ehtiyacı olan şagirdlərin nailiyyətlərinin yüksəldilməsi diferensial yanaşma tələb edir. Bu baxımdan dərslikdə diferensial yanaşmanın təmin olunması diqqət mərkəzində saxlanılmışdır. Dərslikdə müxtəlif tipli tapşırıq nümunələri verilmiş, müəllim üçün vəsaitdə mövzuların tədrisi zamanı diferensial təlimin alt komponenti olan inklüziv təlimin əsasını təşkil edən fərdi yanaşmanın hər bir dərsdə təmin olunması üçün tövsiyələr, istiqamətlər verilmişdir.

Müəllim üçün vəsait müəllim-şagird münasibətlərinin tam təsəvvür olunmasına şərait yaradır. Belə ki vəsaitdə müəllimin il boyu pedaqoji fəaliyyətini tənzimləməyə imkan verən bütün tövsiyələr yer alır. Müəllimin həm illik, həm də gündəlik plan tərtib etməsi üçün lazım olan fənn və sinif üzrə məzmun standartları, məzmun standartlarının reallaşdırılması cədvəli, təxmini illik plan nümunəsi, layihələr və onların icra mexanizmi, qiymətləndirmə qaydaları, qiymətləndirmə vasitələri, dərslikdə verilən hər bir mövzu üzrə təlim məqsədləri, dərsin qurulması üçün tövsiyələr, istifadə ediləcək əlavə mənbələr haqqında məlumat verilmişdir.

# Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli

| | Tədris vahidləri və mövzular | Məzmun standartları | Saat |
|---|---|---|---|
| CANLI HƏYAT | | | |
| 1 | Orqanlarımız | 1.1.3.; 1.1.1. | 2 |
| 2 | Bitkilərin həyatımızda rolu | 1.3.2. | 2 |
| 3 | Heyvanların həyatımızda rolu | 1.3.2. | 2 |
| 4 | İnsan və mikroorqanizmlər | 1.3.2. | 2 |
| 5 | **KSQ** | | 1 |
| 6 | İnsana təsir edən amillər | 4.1.1.; 3.2.1. | 2 |
| 7 | Sağlamlığımızın qayğısına qalaq | 4.1.2. | 2 |
| 8 | Mühit amillərinin canlılara təsiri | 1.3.1.; 1.4.2. | 2 |
| 9 | Ətraf mühitin qorunması | 1.4.1.; 1.4.2. | 2 |
| 10 | Ümumiləşdirici dərs | | 1 |
| 11 | **KSQ** | | 1 |
| FƏRD, AİLƏ VƏ CƏMİYYƏT | | | |
| 12 | İnsan sosial varlıqdır | 2.1.1.; 2.1.2. | 2 |
| 13 | Ailənin cəmiyyətdə rolu | 2.1.1.; 2.4.2. | 2 |
| 14 | Ailədə və kollektivdə vəzifələrimiz | 2.1.3. | 2 |
| 15 | Cəmiyyətdə ünsiyyətin rolu | 3.1.1.; 3.1.2. | 2 |
| 16 | **KSQ** | | 1 |
| 17 | **BSQ** | | 1 |
| 18 | Mənəvi keyfiyyətlərimiz | 3.2.1.; 3.2.2. | 2 |
| 19 | Mənəvi borc | 3.4.1. | 2 |
| 20 | Dini dəyərlər | 3.3.3.; 3.3.1.; 3.3.2. | 2 |

| | | | |
|---|---|---|---|
| 21 | Ümumiləşdirici dərs | | 1 |
| 22 | **KSQ** | | 1 |
| **DÖVLƏT VƏ HÜQUQ** | | | |
| 23 | Dövlət orqanları | 2.3.1. | 2 |
| 24 | Hüquqlarımız | 2.4.1.; 2.4.2. | 2 |
| 25 | Dövlət büdcəsi | 2.2.2.; 2.2.1. | 2 |
| 26 | Pullar | 2.2.3. | 2 |
| 27 | Ümumiləşdirici dərs | | 1 |
| 28 | **KSQ** | | 1 |
| **SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK** | | | |
| 29 | Fövqəladə hallar və nişanlar | 4.2.2.; 4.3.1. | 2 |
| 30 | Fövqəladə hallarda davranış qaydaları | 4.3.1. | 2 |
| 31 | Planın çəkilməsi | 1.2.3. | 2 |
| 32 | İlk tibbi yardım | 4.3.2.; 4.3.3. | 2 |
| 33 | Yol hərəkəti qaydaları | 4.2.3., 4.2.4. | 2 |
| 34 | Ümumiləşdirici dərs | | 1 |
| 35 | **KSQ** | | 1 |
| **HƏRƏKƏT VƏ ENERJİ** | | | |
| 36 | Coğrafi obyektlər xəritədə | 1.2.1. | 2 |
| 37 | Təbii zonalar | 1.2.2. | 2 |
| 38 | Təbii ehtiyatlar | 1.1.2.; 1.1.3. | 2 |
| 39 | Ümumiləşdirici dərs | | 1 |
| 40 | **KSQ** | | 1 |
| 41 | **BSQ** | | 1 |
| | **CƏMİ:** | | 68 |

# 4-cü sinif üçün Həyat bilgisi fənni üzrə təxmini illik planlaşdırma

Fənnin tədrisinə tədris planında 68 saat vaxt ayrılmışdır. Həftədə 2 saat tədris olunur. Dərslik, əsasən, layihələr üzərində qurulmuşdur. Əsasən, məlumatlandırıcı layihələrin icrası 2-ci dərs saatında nəzərdə tutulmuşdur. Mövzulara şəxsi yanaşmadan asılı olaraq, bir bölmə üzrə tövsiyə olunan təxmini illik planlaşmadan istifadə etməklə illik plan tərtib edilə bilər.

| Mövzular üzrə reallaşan standartlar | Tədris vahidi | Mövzular | İnteqrasiya | Resurslar | Saat |
|---|---|---|---|---|---|
| 1.1.1., 1.3.3. | CANLI HƏYAT | Orqanlarımız | Az.d. 2.1.1. | dərslik, iş vərəqləri, orqanların modelləri və şəkilləri https://www.youtube.com/watch?v=8MCjl49wLPc https://www.youtube.com/watch?v=WS85aGTgUWI https://www.youtube.com/watch?v=QN0_IZYJ6_E | 2 |
| 1.3.2. | | Bitkilərin həyatımızda rolu | Texn. 3.1.2. | dərslik, iş vərəqləri, bitki şəkilləri, elektron təqdimat | 2 |
| 1.3.2. | | Heyvanların həyatımızda rolu | Az.d. 1.2.1. | heyvan şəkilləri, dərslik, iş vərəqləri | 2 |
| 1.3.2. | | İnsan və mikroorqanizmlər | Az.d. 1.1.1.; 1.2.1. | https://www.youtube.com/watch?v=424A1pAZ8f4 ) https://www.youtube.com/watch?v=FMeGXVzjDU dərslik, iş vərəqləri, plastik şüşə, ilıq su, qənd, maya, şar, qaşıq | 2 |
| KSQ | | | | | 1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.2.1., 4.1.1. | | İnsana təsir edən amillər | Az.d. 1.1.1. | dərslik, iş vərəqləri, rəngli stikerlər, elektron təqdimat, videoçarx | 2 |
| 4.1.2. | | Sağlamlığımızın qayğısına qalaq | İnf. 4.1.2.; Az.d. 1.2.1. | dərslik, iş vərəqləri, paylama materialı, elektron təqdimat, videoçarx | 2 |
| 1.3.1. 1.4.2. | | Mühit amillərinin canlılara təsiri | İnf. 1.2.2.; 1.2.3. | dərslik, video çarx, paylama materialı, canlıların şəkilləri, elektron təqdimat | 2 |
| 1.4.1. | | Ətraf mühitin qorunması | İnf. 3.3.5.; 4.1.3. | dərslik, elektron təqdimat, şəkillər, yapışqan, rəngli qələmlər, iş vərəqləri | 2 |
| | | Ümumiləşdirici dərs | | | 1 |
| | | **KSQ** | | | 1 |

# Həyat bilgisinin tədrisində layihələrin icrası

Həyat bilgisi fənni üçün hazırlanmış dərslikdə şagirdlərin, demək olar ki, bütün mövzular üzrə müstəqil tədqiqat aparmaları üçün layihələr və fəaliyyətlər nəzərdə tutulmuşdur. Layihələrin yerinə yetirilməsi üçün 3-cü sinif Həyat bilgisi dərsliyində olduğu kimi, bu dərslikdə də istiqamət, tövsiyə və məsləhətlər verilir.

Layihənin (fəaliyyətin) yerinə yetirilməsinə dair müəllim üçün olan göstərişlər hər mövzunun gündəlik planlaşmasına dair nümunələrdə yer alır. Birlikdə işləniləcək layihələrdə istifadə olunacaq resurslar, onların necə əldə olunacağı göstərilir. Layihənin icrasında məsuliyyəti şagirdlər daşıyır. Lakin qiymətləndirmədə obyektivliyin gözlənilməsi məqsədilə şagirdlərə hazırlayacaqları layihənin, ilk növbədə, hansı meyarlarla qiymətləndiriləcəyi məlum olmalıdır. Yəni onlar işi təqdim etməzdən öncə özləri öz işlərini qiymətləndirməlidirlər. Tədqiqatın nəticələrinin təqdimolunma formasına da əvvəlcədən qərar verilməlidir. Bu, təqdimat, bukletin hazırlanması, səhnələşdirmə, videomaterial şəklində ola bilər. Layihənin müstəqil iş olduğunu nəzərə alaraq şagirdlərə bu imkanı vermək və onları lazımi resursla təmin etmək lazımdır. Layihənin həyata keçirilməsi özü də bir alqoritm tələb edir. Bu zaman, ilk növbədə, hazırlıq aparılmalı, iş planlaşdırılmalı, fəaliyyət icra olunmalı və nəticələr təqdim edilməlidir.

Layihələrin və fəaliyyətlərin reallaşdırılması işini daha da əlçatan etmək və əlavə problemləri aradan qaldırmaq məqsədilə, 3-cü sinif Həyat bilgisi dərsliyində olduğu kimi, 4-cü si-

nif Həyat bilgisi dərsliyində də QR kod vasitəsilə xüsusi videomateriallar təqdim edilmişdir. Belə ki bu videomateriallarda həm layihə və fəaliyyətlərin reallaşdırılması yolları, həm də reallaşdırılma zamanı lazım olan əyani vəsaitlər, məsələn, şəkillər, simvollar, xəritələr, planlar və s. əlavə olaraq videomateriallarla bərabər təqdim ediləcəkdir. Şagirdlər və müəllimlər yalnız o materialları çap etməklə onlardan çox asanlıqla istifadə etmək imkanı əldə edəcəklər.

Bundan başqa, dərslikdən istifadəni daha da asanlaşdırmaq və vizual görüntü ilə dəstəkləmək üçün mövzu ilə tanışlıq mətnlərinə əlavə olaraq animasiyaların təqdiminə nail olunmuşdur. Bu da şagirdlərin animasiyaların köməkliyi ilə mövzuları sərbəst şəkildə mənimsəmələrinə və mətnlə vizual tanışlığa şərait yaradacaqdır. Vizual tanışlıq eyni zamanda keçilən dərsin daha yaxşı dərk olunmasına və yadda qalmasına səbəb olacaqdır.

# Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir.

Təlim prosesinin ayrılmaz hissəsi olan məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmədən ibarətdir. Qiymətləndirmə növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

Diaqnostik qiymətləndirmə hər bir fənn müəlliminin təlim məqsədləri və təlim strategiyalarında çevik dəyişikliklər aparmasına imkan yaradır. Belə ki ilkin səviyyənin qiymətləndirilməsi müxtəlif üsullar və vasitələrlə həyata keçirilir. İlk növbədə, müəllim nə haqqında ilkin məlumat almalı olduğunu, bu məlumatı nə zaman, nə məqsədlə etdiyini özü üçün dəqiqləşdirməlidir. Yəni əgər bu, şagirdləri qrup fəaliyyətinə cəlb etmək məqsədi daşıyırsa, bu zaman o kimləri hansı qrupda birləşdirə biləcəyini, bu qrupdakı şagirdlərin öyrənmə tərzini, maraqlarını, əməkdaşlıq bacarığını müəyyənləşdirməlidir. Bunun üçün müşahidə, müsahibə üsullarından istifadə etmək məqsədəuyğun hesab edilir. Bunları nəzərə alaraq qeyd edə bilərik ki, diaqnostik qiymətləndirmə təlimin hər hansı bir mərhələsində – təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqlarını müəyyən edir. Şagird bir ümumtəhsil məktəbindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək, öyrənilmiş materialın təkrarına vaxt itirməmək məqsədilə diaqnostik qiymətləndirmə aparılır. Bu qiymətləndirmənin nəticələri müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır. Formativ qiymətləndirmə vasitəsilə müəllim tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin

ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. Meyarlar 4 səviyyədə (zəruri hallarda 3-5 səviyyə də ola bilər) müəyyənləşdirilə bilər. Formativ qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd olunmur. Bu nəticələr şagirdin məktəbli kitabçasında (meyarlar şəklində) və müəllimin qeyd kitabçasında öz əksini tapır. Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlara əsasən müəyyən olunmuş qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir.

Yekun (summativ) qiymətləndirmə standartlarının mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə qiymətləndirmə standartlarına əsasən il ərzində bölmələrin, yarımilin və ilin sonunda həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, yoxlama yazı işləri, layihə, şifahi sorğu, tapşırıqvermə və s. qiymətləndirmə üsullarından da istifadə olunmalıdır.

Summativ qiymətləndirmə mövzu, bəhs və bölmənin, həmçinin yarimillərin sonunda keçirilir. Bölmənin sonunda və daxilində keçirilən summativ qiymətləndirmə kiçik summativ qiymətləndirmə (KSQ), yarımillərin sonunda keçirilən summativ qiymətləndirmə isə böyuk summativ qiymətləndirmə (BSQ) adlandırılır.

“Qayda”lara əsasən kiçik və böyük summativ qiymətləndirmələrdə nəticələr maksimum 100 bal ilə göstərilir. Formal sənədləşmədə istifadə edilmək və valideynlərə aydın olmaq üçün bu ballar “2”, “3”, “4”, “5” qiymətlərinə uyğunlaşdırılır. Ballar hesablanaraq sinif jurnalına və “Məktəbli kitabçası”na yazılır.

Üzürsüz səbəbdən kiçik summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanların həmin qiymətləndirmə üzrə balı “0” qəbul edilir və yarımillik balların hesablanmasında nəzərə alınır.

Üzürlü (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) səbəbdən kiçik summativ qiymətləndirmənin hər hansı birində iştirak etməyən təhsilalanın kiçik summativ qiymətləndirmədə iştirak etməməsi yarımillik balların hesablanmasında nəzərə alınmır. Təhsilalanın iştirak etmədiyi kiçik summativ qiymətləndirmə növbəti kiçik summativ qiymətləndirməyədək təşkil edilir.

# Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr

Təlim prosesinə sistemli yanaşma, şagird fəaliyyətinin düzgün istiqamətləndirilməsi müəllimin üzərinə düşən vəzifədir. Bu zaman eyni zamanda təlimin təşkilinə verilən bütün tələblərin nəzərə alınması vacibdir. Şagirdlərin əldə etdikləri fəaliyyətin stimullaşdırılması, nailiyyətlərin dəstəklənməsi pedaqoji prosesin uğurla nəticələnməsidir. Fəaliyyətin düzgün istiqamətləndirilməsi üçün atılacaq hər bir addım əvvəlcədən düşünülməli, sistemlilik və ardıcıllıq gözlənilməlidir. Gündəlik dərs planı tərtib edilərkən, ilk növbədə, müəllim üçün vəsaitə istinad etməklə mövzu üzrə reallaşdırılan məzmun standartları müəyyənləşdirilir, təlim məqsədi mövzu və standarta müvafiq olaraq dəqiqləşdirilir. Kömək məqsədilə müəllim vəsaitində sizə təqdim olunan bütün mövzular üzrə tövsiyələrə istinad edilə bilər. Məqsədlər müəyyən edildikdən sonra strategiya müəyyənləşdirilməlidir. Bu tövsiyələrdən yararlanaraq təlim formasını, təlim üsulunu, təlim resurslarını (elektron və yaxud da çap), motivasiyanı, tədqiqatın aparılmasını, şagird nailiyyətlərinin qiymətləndirmə meyarlarını istifadə etməklə icmal tərtib edilə bilər. Layihənin icra planı müəllimə layihənin necə yerinə yetiriləcəyinə dair istiqamət verəcək. Mövzuların sonunda verilən QR kodlardan dərs prosesində əyaniliyi təmin etmək üçün istifadə edilir. Bu QR kodlar eyni zamanda dərsdə iştirak edə bilməyən şagirdlərin sərbəst öyrənməsinə şərait yaradır. İnklüziv təlimə cəlb olunan şagirdlər üçün də bu QR kodlardan istifadə etmək faydalı nəticə əldə etməyə imkan verir.

Təlim forma və üsulu seçilərkən diqqət olunmalıdır ki, onlar həm dərsin məqsədinə, məzmununa müvafiq olsun, həm də şagirdlərin idraki inkişafını təmin etsin. Nəticəyönümlü standartlarla müəyyənləşən təlim prosesində fəndaxili və fənlərarası inteqrasiyaya, müxtəlif resurslardan məqsədyönlü istifadəyə, birgəfəaliyyət bacarıqlarının inkişafına da geniş yer verilməlidir.

Dərslikdəki bir neçə mövzu üzrə gündəlik plan nümunəsini təqdim edirik. Müəllim bu icmallardan faydalana bilər.

# GÜNDƏLİK PLANLAŞDIRMA NÜMUNƏLƏRİ

# 1 Orqanlarımız

**Standart:** 1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.

**Məqsəd:** İnsanın orqanlarını sadalayır və funksiyalarını sadə formada izah edir.

**İş formalar:** kollektivlə iş, qrupla iş

**İş üsulları:** beyin həmləsi, şaxələndirmə, müzakirə, cədvəllərlə iş

**Resurslar:** dərslik, iş vərəqləri

https://www.youtube.com/watch?v=8MCjI49wLPc

https://www.youtube.com/watch?v=QN0_IZYJ6_E

**İnteqrasiya:** Az.d. 2.1.1.



## Dərsin gedişi

**Motivasiya.** Şagirdlər duyğu orqanları ilə tanış olduqları üçün elektron lövhədə aşağıdakı tapşırıq nümayiş etdirilir.

Aşağıda qeyd edilən hərəkətlərlə duyğu orqanları arasında əlaqəni qurun və izah edin:



Şagirdlər uyğunluğu müəyyən etdikdən sonra kiçik müzakirə təşkil olunur və tədqiqat "İnsan orqanizmində başqa hansı orqanlar vardır və onların funksiyaları nədən ibarətdir?" sualı ətrafında aparılır.

**Tədqiqatın aparılması.**

Bu mərhələdə şagirdlər qruplara bölünür və onlara iş vərəqləri verilir. Şagirdlər paylama materialından və dərslikdən istifadə etməklə verilən tapşırıqları yerinə yetirirlər.

**I qrup.** Dərsliyə və paylama materialına əsasən aşağıdakı xüsusiyyətlərin hansı orqanlara xas olduğunu müəyyənləşdirin:

Gözümüzü yumaraq əşyanın formasını, bərk, isti, soyuq, yumşaq olmasını hiss edə bilərik____________________

Nəfəsalma və nəfəsvermə zamanı bu orqanın tutumu dəyişir______________

Elmdə əldə edilən nailiyyətlər, insanın şüurlu fəaliyyəti bu orqanda gedən proseslər nəticəsində baş verir___________________

Yığılıb boşalır, qanın bədəndə hərəkətini təmin edir_______________

Qanı süzgəc kimi süzərək lazımsız maddələri ayırır_____________

Bədənin üzərini örtərək onu zədələnmədən qoruyur_____________

**II qrup.** Dərsliyə və paylama materialına əsasən aşağıdakı xüsusiyyətlərlə orqanlar arasında uyğunluğu müəyyən edin.

| Orqanın adı | Xüsusiyyəti |
|---|---|
| Qara ciyər | |
| | Qanı mühərrik kimi damarlara qovur |
| Böyrəklər | |
| | Fəaliyyəti nəticəsində fikirlərimizi, düşüncələrimizi, hərəkətlərimizi idarə edə bilirik. |
| Mədə | |

**III qrup.** Dərslikdən istifadə etməklə səhv fikirləri seçin, düzəldin.

1. Nəfəsvermə zamanı ağ ciyərlərə hava daxil olur.
2. Qida mədədə qarışır.
3. İnsan ətrafdan informasiyanın çox hissəsini dəri vasitəsilə alır.
4. Bir orqan insan orqanizmində istənilən işi yerinə yetirə bilər.
5. Tənəffüs zamanı yaranan karbon qazı bədənimizdən qara ciyər vasitəsilə xaric edilir.
6. Gözlərimiz vasitəsilə ətrafımızda baş verənləri görür, qulaq vasitəsilə eşidir, burnumuz vasitəsilə qoxu hiss edirik.

**IV qrup.** Dərslikdən və paylama materialından istifadə etməklə tapşırığı yerinə yetirin.

Uyğunluğu müəyyən edin:

| | | | |
|---|---|---|---|
| Dəri | **1.** Zəhərli maddələri zərərsizləşdirir. | Ağ ciyərlər | **4.** Qanı süzür. |
| Qara ciyər | **2.** Bədənimizə qida maddələrini çatdırır. | Ürək | **5.** Bədəni zədələnmələrdən qoruyur. |
| Mədə | **3.** Qidanı həzm edir. | Böyrək | **6.** Qanı oksigenlə zənginləşdirir. |

**Məlumat mübadiləsi və müzakirəsi.** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur, müzakirə sualları verilir:

– Hansı orqanlarla tanış oldunuz?
– Bu orqanlar bir-birindən nəyə görə fərqlənir?
– Orqanları tanımaq və yerinə yetirdiyi funksiyaları bilmək nə üçün vacibdir?
– “Orqanların orqanizmdə müəyyən bir yeri, yerinə yetirdiyi müəyyən bir funksiyası vardır. Bu orqanlar digər orqanlarla əlaqəli işləyir” fikrini necə izah edə bilərsiniz?

**Nəticələrin çıxarılması və ümumiləşdirmə.** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə və yaxud cədvəllərlə iş üsulundan istifadə olunur.




**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə kollektivlə aşağıdakı sual ətrafında müzakirə təşkil olunur.

– Pilləkənləri yuxarı qalxarkən hansı halları müşahidə edirsiniz? Bu hallara səbəb nədir? Sizcə, hansı orqanlar birgə fəaliyyət göstərir?

**Ev tapşırığı.** Dərslik səh. 10-da 1 və 2-ci tapşırıqlar

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| İnsanın orqanlarını sadalayır, funksiyalarını izah etməkdə çətinlik çəkir. | İnsanın orqanlarını sadalayır, funksiyalarını izah edərkən səhvlərə yol verir. | İnsanın orqanlarını sadalayır, bir neçə orqanın funksiyalarını izah edir. | İnsanın orqanlarını sadalayır, funksiyalarını sərbəst izah edir. |

# 2 Bitkilərin həyatımızda rolu

**Standart:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

**Məqsəd:** Bitkilərin insan həyatındakı rolunu izah edir.

**İş formaları:** kollektivlə iş, qrupla iş

**İş üsulları:** beyin həmləsi, şaxələndirmə, müzakirə, cədvəllərlə iş

**Resurslar:** dərslik, iş vərəqləri, “Ayna” uşaq ensiklopediyası, “Azərbaycanın dərman bitkiləri” kitabı, bitkilərin şəkilləri

**İnteqrasiya:** Texn. 3.1.2.



**Motivasiya.** Müəllim MİMİO qurğusundan istifadə etməklə (interaktiv lövhə və yaxud adi lövhədə də sxem qurula bilər) şagirdlərə aşağıdakı sxemi göstərir:




Şagirdlər adları verilmiş dərman bitkilərini sürüşdürməklə müvafiq bəndin altında yerləşdirməlidirlər.

Şagirdlər qruplaşdırmanı apardıqdan sonra bu bitkilərin şəkillərindən ibarət slayd (tablo da ola bilər) təqdim edə bilər.

**Tədqiqat** "Bitkilərin insan həyatında başqa nə kimi rolu vardır" sualı ətrafında aparılır.

**Tədqiqatın aparılması.** Bu mərhələdə müəllim videoçarxdan, elektron təqdimatdan istifadə etməklə şagirdlərlə kiçik müzakirə təşkil edir. Müzakirə zamanı onlara əvvəlcədən hazırlanmış suallarla müraciət olunur: İnsanlar bitkilərdən necə istifadə edirlər? Bəzək bitkilərinin ziyanlı olanı varmı? Nə kimi ziyanı vardır? Texniki bitkilər hansılardır? Nə üçün belə adlandırılırlar? Boyaq bitkilərindən nə məqsədlə istifadə olunur?

Növbəti mərhələdə şagirdlər qruplara bölünür və onlara iş vərəqləri verilir. Şagirdlər paylama materialından və dərslikdən istifadə etməklə verilən tapşırıqları yerinə yetirirlər.

**I qrup.** Dərsliyə və paylama materialına əsasən (müxtəlif bitkilərin adlı şəkilləri) aşağıdakı bitkiləri qruplaşdırın:

| Bitkinin adı | Xüsusiyyəti | İnsan həyatında rolu |
|---|---|---|
| Diffenbaxiya | | |
| Aloe | | |
| Pambıq | | |
| Zəfəran | | |
| Heyva | | |

**II qrup.** Dərslikdən və paylama materialından istifadə etməklə tapşırığı yerinə yetirin.

Qruplaşmalarda yol verilən səhvləri müəyyən edin.

**a.** Qida əhəmiyyətli bitkilər
1, 2, 9, 10

**b.** Bəzək bitkiləri
4, 5, 7, 8

**c.** Texniki bitkilər
3, 5, 9

**d.** Dərman bitkiləri
6, 7, 8, 9

**e.** Boyaq kimi istifadə olunan bitkilər
1, 8




**III qrup.** Uyğunluğu müəyyən edin.


*Diffenbaxiya*


*Kəklikotu*


*Şam*


*Nar*


*Pambıq*

– bu bitkidən geyimlərin, bəzək əşyalarının solmayan rənglərlə boyanması üçün istifadə olunur.

– küçələrin, parkların yaşıllaşdırılmasında istifadə olunur.

– bu bitkiyə qulluq zamanı ehtiyatlı olmaq lazımdır. Çünki onun yarpaqlarının qoparılması insan və ev heyvanları üçün təhlükəlidir, nəfəs tıxanıqlığına səbəb ola bilər.

– bu bitkinin çiçəklərindən müalicə məqsədilə istifadə edilir.

– parçaların toxunmasında, avtomobil təkərinin, kəmərlərin istehsalında bu bitkinin lifindən, sabunun, lakın, spirtin istehsalında isə yağından istifadə olunur.

**IV qrup.** Dərslikdən və açar sözlərdən istifadə etməklə fikirləri tamamlayın. (*texniki, boyaq, müalicə, bəzək, qida*)

- Kəklikotunun çiçəklərindən, itburnunun meyvələrindən insanlar ______________ məqsədilə istifadə edirlər.
- Qarpız, yemiş, pomidor bitkilərindən insanlar____________ kimi istifadə edirlər.
- Avtomobil təkərlərinin, kəmərlərin istehsalında pambıq lifindən istifadə edilir. Pambıq ______________ bitkidir.
- Kalla, diffenbaxiya, kaktus bitkilərini insanlar zövq almaq üçün yetişdirir. Bu bitkilər ________________ bitkiləridir.
- Narın, tutun, zəfəranın, heyvanın meyvəsindən, yarpaqlarından, kökündən geyimlərin, bəzək əşyalarının solmayan rənglərlə boyanmasında istifadə olunur. Bu bitkilər ________________ bitkiləridir.

**Məlumat mübadiləsi və müzakirəsi.** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur, müzakirə sualları verilir:

– Bitkilərin insan həyatında nə kimi əhəmiyyəti vardır?
– Onları şərti olaraq necə qruplaşdırmaq olar?

**Nəticələrin çıxarılması və ümumiləşdirmə.** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan istifadə olunur.




Bu cədvəlin sonuncu xanası təkrar şaxələndirilir və hər bir bitkinin insan həyatında rolu qeyd olunur. Şagirdlərin əlavə sadalaya biləcəkləri bitkilər də bu cədvələ daxil edilir və əhəmiyyəti qeyd olunur.

**Ev tapşırığı.** Təbiətdə rast gəlinən zəhərli quşüzümü, xanımotu bitkiləri haqqında araşdırma aparın. İnsanın necə zəhərlənə biləcəyi, zəhərlənmənin əlamətləri haqqında məlumat toplayın.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Bitkilərin insan həyatındakı rolunu izah etməkdə çətinlik çəkir. | Bitkilərin insan həyatındakı rolunu izah edərkən səhvlərə yol verir. | Bitkilərin insan həyatındakı rolunu izah edərkən fikrini əsaslandırmır. | Bitkilərin insan həyatındakı rolunu nümunələr göstərməklə izah edir. |

# GÜNDƏLİK PLANLAŞDIRMAYA DAİR TÖVSİYƏLƏR

# 1 Orqanlarımız

**Standart:** 1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.
1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir.

**Məqsəd:** İnsanın orqanlarını sadalayır və funksiyalarını sadə formada izah edir.
İnsan orqanizmi haqqında kiçik təqdimatlar edir.

Mövzunun tədrisi ilk dərs həftəsinə düşdüyündən ilk dərsin bir neçə dəqiqəsini (ilk dərs saatı da ola bilər) diaqnostik qiymətləndirmə aparmanız məqsədəuyğundur. İlk növbədə, bu il reallaşdırmalı olduğunuz məzmun standartlarını nəzərdən keçirməli və ötən illər ərzində şagirdlərinizdə formalaşdırdığınız bilik və bacarıqlara fokuslanmalısınız. Belə olduğu halda siz nəyi, haradan başlayacağınızı, şagirdlərinizin hansı bilik və bacarıqlara yiyələnmiş olduqlarını daha dəqiq müəyyən etmiş olacaqsınız. Təbii ki, diaqnostik qiymətləndirmə aparmaqla eyni zamanda valideynləri də məlumatlandıracaq, ilin sonunda ilkin və son nəticələri təhlil etmək imkanı qazanacaqsınız.

"Orqanlarımız" mövzusunun tədrisinə illik planda 2 saat vaxt ayrılmışdır. Lakin bu iki saat mövzunun yaş səviyyəsini aşmaqla tədrisinə imkan yaratmaq məqsədi daşımır. İkinci dərs saatı layihənin icrasını nəzərdə tutur. Layihənin yerinə yetirilməsi üçün şagirdin mövzunun nəzəri hissəsini anlaması vacibdir. Bunun üçün dərslikdə mətnlə yanaşı, QR kod verilmişdir. Burada verilən məlumat şagirdlərin maraq dairəsinə tam uyğundur. Bu məlumatlardan dərsin müəyyən uyğun mərhələsində istifadə edə bilərsiniz. Nəzərə alınmalıdır ki, bu iki saat ərzində şagirdin mövzunu tam mənimsəməsinə, məzmun standartının tam olaraq reallaşdırılmasına nail olunmalıdır.

Bu mövzuda şagirdlərdə idraki fəallığın yaradılmasına müxtəlif yollarla nail olmaq mümkündür. İdraki fəallığın, yəni motivasiyanın 2 hissədən ibarət olduğunu nəzərə alaraq birinci hissə elə qurulmalıdır ki, siz şagirdləri “Orqanlar hansı funksiyaları yerinə yetirir?” sualı ətrafında tədqiqat aparmağa yönəldə biləsiniz. Bunun üçün aşağıdakı nümunələrdən uyğun olanı seçməkdə sərbəstsiniz:

**Nümunə 1.** Şagirdlər 3-cü sinifdə duyğu orqanları ilə tanış olduqlarından onlara elektron lövhədə aşağıdakı ifadələr nümayiş etdirilir və bu suallarla müraciət olunur:

1. Bu funksiyaları yerinə yetirən duyğu orqanlarını sadalayın.
2. İnsan orqanizmində daha hansı orqanlar vardır?

Eşitmə | Görmə | Dadbilmə | Qoxubilmə

**Nümunə 2.** Beyin həmləsi üsulundan istifadə etməklə:

– Lövhədə gördüyünüz informasiyaları hansı orqanlarımız vasitəsilə müəyyən edirik?

filmin izlənməsi –
konfetin şirinliyi –
quşların səsi –
çiçəyin ətri –




– İnsan orqanizmindəki başqa hansı orqanları tanıyırsınız?

**Nümunə 3.** Anlayışın çıxarılması üsulundan istifadə etməklə də motivasiya yarada bilərsiniz:

– Sual işarəsinin yerində hansı anlayış yazılmalıdır?

– Hansı orqanların yerinə yetirdiyi funksiya sizə tanışdır? Hansı işi yerinə yetirirlər?

– Başqa hansı orqanları tanıyırsınız?

Motivasiyanı şaxələndirmə üsulundan və yaxud da başqa üsullardan istifadə edərək də apara bilərsiniz. Lakin onu hansı formada qursanız belə, tədqiqat “İnsan orqanizmində daha hansı orqanlar vardır və onların funksiyaları nədən ibarətdir?” sualı ətrafında aparılacaqdır.

Şagirdlər öz fərziyyələrini irəli sürdükləri zaman onların qeyd etdikləri fikirlər lövhədə yazılmalıdır. Fərziyyələr şagirdlərin tədqiqat sualına verə biləcəkləri cavablardır. Təbii ki, bu fikirlərin içərisində səhvlər də olacaqdır. Bu səhvlərin o anda düzəldilməsinə ehtiyac yoxdur. Sonda yenidən həmin fərziyyələrin üzərinə qayıdaraq səhv fikirlərin üstündən xətt çəkmək şagirdlər üçün daha faydalı olacaqdır.

Birinci dərs saatında dərsin kollektiv və fərdi formada təşkil olunması şagirdlərin mövzunu daha yaxşı anlamasına səbəb ola bilər. Tədqiqata başlamazdan öncə elektron lövhədə digər orqanların (bunların içərisində şagirdlərin fərziyyələrdə sadaladıqları orqanlar

da ola bilər): beyin, qara ciyər, ağ ciyər, böyrək, ürək, mədə, bağırsaq şəkillərini nümayiş etdirərək adlarını səsləndirin. Çalışın ki, şəkillərin altında orqanların adları yazılmış olsun. Bu zaman siz müxtəlif cür öyrənmə tərzinə malik olan şagirdlərin öyrənmə bacarıqlarını nəzərə almış olacaqsınız. Onlar həm görməklə, həm də eşitməklə orqanların adlarını yadlarında saxlayacaqlar.

Tədqiqat kollektivlə aparılarsa, qeyd olunmalıdır ki, insan orqanizmi müxtəlif orqanlardan təşkil olunmuşdur. Bu orqanların hərəsinin öz funksiyası, həm də bədənimizdə müəyyən bir yeri vardır. Bunu deməklə şagirdlərə öyrətmiş olacaqsınız ki, hər bir orqanın orqanizmdə yerləşdiyi yer və yerinə yetirdiyi konkret funksiya vardır. Bu məqamda elektron lövhədə şagirdlərə insan modeli nümayiş etdirməklə aşağıdakı sualları verə bilərsiniz:

– Hansı orqanları görürsünüz?

– Sizcə, bu orqanlar bir-birindən nəyə görə fərqlənir? (quruluş, yerləşmə, funksiya)

– Bağırsaqlar, mədə və ürəyin yerləşməsi barədə nə deyə bilərsiniz?

– Sizcə, burun və ağ ciyər arasında, ürək və damarlar arasında, dişlər, mədə və bağırsaq arasında nə kimi əlaqə vardır?

Şagirdlər bu suallarla orqanlar arasındakı əlaqəyə, onların birləşərək ümumi bir funksiya yerinə yetirməsi fikrinə yönləndirilməlidir. Qeyd olunmalıdır ki, orqanizmimizin öz işini düzgün qurması üçün bütün orqanlarımız, onların yaratdığı sistemlər bir-biri ilə əlaqəli fəaliyyət göstərməlidir. Yaş səviyyəsini gözləmək şərtilə vurğulanmalıdır ki, yalnız bu zaman faydalı nəticə əldə etmək mümkündür.

Müzakirələr zamanı aşağıdakı videoçarxları səssiz nümayiş etdirmək olar:

https://www.youtube.com/watch?v=8MCjI49wLPc
https://www.youtube.com/watch?v=QN0_IZYJ6_E

Müzakirələrin nəticəsində şagirdlər orqanlar və onların funksiyalarını tam anlamaqla idraki fəaliyyətin digər mərhələsinə keçməyə hazır olacaqlar. Bu şagirdlərin növbəti dərs prosesindəki fəaliyyətlərə cəlb olunmalarına şərait yaradacaq. Bu dərsin sonunda şagirdlərin fərdi şəkildə dərsliyin 10-cu səhifəsindəki tapşırıqları yerinə yetirmələri nəzərdə tutulur.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur. Fəaliyyətlər şagirdlərin birgə yerinə yetirəcəkləri, onların təfəkkürünü inkişaf etdirən bir fəaliyyətdir. Dərslikdə verilən fəaliyyətlər, eləcə də bu fəaliyyət qısamüddətli olub 1 dərs saatı üçün nəzərdə tutulmuşdur.

Dərslikdə fəaliyyət hazırlanması ardıcıllığı mərhələlərlə göstərilmişdir. Fəaliyyət üzərində iş prosesində şagirdlərin suallarına cavab verə, onlara yol göstərə bilərsiniz, lakin öz işlərinə görə onlar özləri məsuliyyət daşıyırlar.

**Fəaliyyətin icrası.** Bu fəaliyyət insan orqanlarının bədəndəki yerini və onların bir-biri ilə əlaqəsini müəyyənləşdirmək məqsədi daşıyır. Layihənin icrası üçün şagirdlərə insanın daxili orqanlarının şəkli lazımdır. Dərslikdən də göründüyü kimi, şagirdlərin orqanları tanıması üçün onların altında adları qeyd edilmişdir. Fəaliyyətdə şagirdlər bunu özləri etməlidirlər.

Şagirdlər əvvəlcə (1-ci addımda) verilmiş şəkillər arasından orqanların şəkillərini kəsəcəklər. Daha sonra kəsdikləri hər bir orqanın arxasında onun adını müəyyən edib yazacaq-

lar. Müəyyən edilmiş orqanı insan modelinin – bədəninin hansı hissəsinə yerləşdirməli olduğunu müəyyən edəcəklər. Növbəti addım seçilmiş orqanın hansı funksiyanı yerinə yetirdiyini müəyyən etmək olacaqdır. Şagirdlər bu sualın cavabını ən primitiv halda verə bilərlər. Amma bundan narahat olmağa dəyməz. Çünki bu onların orqanların funksiyaları ilə bağlı yürütdükləri ilk ehtimallar və fərziyyələrdir. 5-ci addım olaraq siz bir-biri ilə əlaqəsi olan, birlikdə fəaliyyət göstərən orqanları müəyyən etməyi tapşıra bilərsiniz. Şagirdlərin irəli sürdükləri ilk ehtimalları bir qədər də dərinləşdirmək olar. Fəaliyyətin nəticəsi olaraq şagirdlər insanın əsas daxili orqanlarının adını, onların yerini və həyata keçirdikləri funksiyaları və bir-biri ilə əlaqəli şəkildə işlədiklərini öyrənmiş olacaqlar.

Dərslikdə 11-ci səhifədəki tapşırıqların yerinə yetirilməsi də bu dərs saatında həyata keçirilir. Şagirdlərin qiymətləndirilməsi meyar əsasında həyata keçirilir.

**Qiymətləndirmə meyarı:** izahetmə, təqdimetmə

| I | II | III | IV |
|---|---|---|---|
| İnsanın orqanlarını sadalayır, funksiyalarını izah etməkdə çətinlik çəkir. | İnsanın orqanlarını sadalayır, bir neçə orqanın funksiyalarını izah edir. | İnsanın orqanlarını sadalayır, funksiyalarını izah edərkən səhvlərə yol verir. | İnsanın orqanlarını sadalayır, funksiyalarını sərbəst izah edir. |
| İnsan orqanizmi ilə bağlı təqdimat etməkdə çətinlik çəkir. | İnsan orqanizmi ilə bağlı təqdimatı tam deyildir. | İnsan orqanizmi ilə bağlı təqdimat edərkən fikrini tam əsaslandıra bilmir. | İnsan orqanizmi ilə bağlı sistemli təqdimat edir. |

Layihəni aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Layihənin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Layihə əsasında düzgün nəticənin əldə olunması | | |

Layihənin hazırlanmasına verilən tələblərlə bağlı əlavə məlumatı aşağıdakı mənbələrdən əldə edə bilərsiniz:

1. Z.Veysova. Fəal təlim metodları. Bakı, 2007
2. http://festival.1september.ru/articles/414629/

# 2 Bitkilərin həyatımızda rolu

**Standart:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

**Məqsəd:** Bitkilərin insan həyatındakı rolunu izah edir.

Mövzunun tədrisinə illik planda iki saat ayrılmışdır.

Müəllim dərsin əvvəlində keçən dərsə istinad etməklə şagirdlərə bir neçə sualla müraciət edə bilər:

– Canlıları cansızlardan fərqləndirən əlamətlər hansılardır?

– İnsan hansı xüsusiyyətlərinə görə bioloji varlıq hesab olunur?

– Başqa hansı canlıları tanıyırsınız? (bitkilər, bakteriyalar, göbələklər)

Şagirdlər canlıları sadaladıqdan sonra onlar “Bitkilərin insan həyatında nə kimi rolu vardır” sualı ətrafında tədqiqata yönəltmək lazımdır.

Motivasiyanı BİBÖ üsulundan istifadə etməklə də yaratmaq mümkündür. Bu zaman lövhədə BİBÖ cədvəli çəkilməli, şagirdlərə küçədə, parkda, bağlarda, meşədə hansı canlılarla rastlaşdıqları sualı verilməlidir. Daha sonra onların sadaladıqları canlıların adlarını lövhəyə qeyd edərək “bitkilər” üzərində dayana, onlar haqqında nə bildiklərini müzakirə edərək cədvəlin birinci sütununa qeyd etmək olar. Bu zaman şagirdlərə aşağı sinifdən öyrəndiklərini də xatırlatmaq və bunun üçün yönəldici suallara istinad etmək məqsədəuyğundur. Məsələn, bitkilərin bəzilərinin gecə çiçək açması, parkların yaşıllaşdırılmasında Eldar şamı bitkisindən istifadə olunması, bitki toxumlarının yayılması yolları, parkları, küçələri, evləri bəzəmək üçün bitkilərin fərqli növlərindən istifadə olunması, onların müxtəlif əlamətlərinə görə qruplaşdırıldığı, zəhərli bitkilərin də olduğu və s. məlumatları şagirdlər aşağı siniflərdən bilirlər.

BİBÖ cədvəlinin ikinci sütununu yazmazdan öncə şagirdləri yönləndirməyə ehtiyac vardır. Yəni reallaşdırılacaq standartın tələbinə, mövzunun tədrisinin, tədqiqatın məqsədinə

uyğun yönləndirmə vacib şərtdir. Əks halda şagirdlər əsas məqsəddən yayınaraq başqa istiqamətə yönələ bilərlər. Bu isə yekun nəticəyə təsir göstərəcəkdir. Bu baxımdan şagirdlərə aşağıdakı kimi müraciət etmək olar:

– Uşaqlar, siz bitkilər haqqında bir çox fikirlər söylədiniz, onların xüsusiyyətlərini sadaladınız. Bəs onlar haqqında daha nələri bilməyinizdə fayda ola bilər?

Şagirdlərin sadaladıqlarından istiqamət almaqla onları tədqiqat sualına yönəltmək mümkün olacaqdır. Bu zaman siz onları “Bitkilərin insan həyatında başqa nə kimi rolu vardır”? sualı ətrafında araşdırmaya yönləndirmək lazımdır. Ola bilər ki, bu məqamda şagirdləri maraqlandıran başqa suallar da olsun. Bu zaman dərsin sonunda məqsəddən yayınmamaq şərtilə onların sualları cavablandırılmalı və yaxud da bu suallar ətrafında müzakirə aparılmalıdır.

Mövzu ilə tanışlıq müxtəlif cür aparıla bilər:

1. Bunun üçün mətn fasilələrlə oxuna, fasilələr zamanı şagirdlərə əvvəlcədən hazırlanmış suallarla müraciət oluna bilər: İnsanlar bitkilərdən necə istifadə edirdilər? Bəzək bitkilərinin ziyanlı olanı varmı? Onların nə kimi ziyanı vardır? Texniki bitkilər hansılardır? Nə üçün belə adlandırılırlar? Boyaq bitkilərindən nə məqsədlə istifadə olunur?

2. İNSERT üsulundan da istifadə etmək olar. Şagirdlər mətni fərdi şəkildə oxuyurlar. Bu, sürətli deyil, strategiyalı oxu olmalıdır. Yəni şagird bu mətni, sadəcə, onunla tanış olmaq üçün oxumur, eyni zamanda da mətn üzərində işləyir. Bunun üçün cədvəldə qeydlər edir.

| ✓ | + | – | ? |
|---|---|---|---|
| Mən bunu bilirdim. | Mənim üçün bu yenilikdir. | Başqa cür düşünürdüm. | Anlamadım, aydınlaşdırmaq lazımdır. |

1. Şagirdlər fərdi şəkildə oxumaqla dəftərlərində mətni sxemləşdirə bilərlər. Bu öyrənmə üçün çox vacib olan sistemləşdirmə bacarığının formalaşmasına səbəb olur.




Şagirdlər mətni sxemləşdirməklə bitkilərin insan həyatında rolunu öyrənmiş olur və eyni zamanda onların başqa bir əlamətlərə görə də qruplaşdırılmaları ilə tanış olurlar. Sərbəst araşdırmaya müəllimin nəzarəti vacibdir. Şagirdlərin işlərinin ümumi müzakirəsi olduqdan sonra bitkilərin əhəmiyyətinə dair videoçarxın göstərilməsi məqsədəuyğun hesab olunur.

Bu dərs saatında dərsliyin 14-cü səhifəsindəki tapşırıqların işlənməsi nəzərdə tutulur. Səh. 15-dəki sonuncu tapşırıq araşdırma tələb etdiyindən ev tapşırığı kimi verilməsi məqsədəuyğundur. Şagirdin araşdırmasının nəticəsindən ikinci dərs saatında yararlanmaq müt-

ləqdir. Şagird anlamalıdır ki, onun işlədiyi tapşırığa nəzarət var. Və bu tapşırığın yerinə yetirilməsi vacibdir. 2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

Dərslikdə 15-ci səhifədəki açar sözlərdən istifadə etməklə cümlələrin tamamlanmasına aid birinci tapşırığın yerinə yetirilməsi də bu dərs saatında həyata keçirilir.

**Fəaliyyətin icrası.** Bu fəaliyyət şagirdlərdən bitkiləri onların insan həyatında roluna görə qruplaşdırmağı tələb edir. Əslində, şagirdlər artıq 2-ci və 3-cü sinifdən bitkilərin qruplaşdırılması ilə tanışdırlar. Məsələn, mədəni və yabanı bitkiləri, dərman və bəzək bitkilərini tanıyırlar. Bu dəfə onlar bu qruplaşmaya texniki və boyaq məqsədilə istifadə edilən bitkiləri də əlavə edəcəklər. Fəaliyyət də onların ötən illərdən sahib olduqları biliklərə əsaslanaraq bu qruplaşmanı aparmalarını nəzərdə tutur.

**1-ci və 2-ci addım**da şagirdlərdən dərman bitkilərinin şəkillərini seçmək və adlarını yazmaq, **3-cü və 4-cü addım**da texniki bitkilərin şəkillərini seçmək və adlarını yazmaq, **5-ci və 6-cı addım**da isə boyaq məqsədilə istifadə edilən bitkilərin şəkillərini seçmək və adlarını yazmaq istənilir. Siz bu fəaliyyəti bütün siniflə birlikdə, yaxud da qruplara bölərək də edə bilərsiniz. Şagirdlərin hazırlıq səviyyəsindən asılı olaraq (fəaliyyət dərsin ikinci saatı üçün nəzərdə tutulduğundan siz şagirdlərdən hazırlıq məqsədilə bir qədər araşdırma aparmalarını da istəyə bilərsiniz), hər qrupa bir qrup bitki haqqında təqdimat, slayd, yaxud məlumat kitabçası hazırlamağı da tapşıra bilərsiniz.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Bitkilərin insan həyatındakı rolunu izah etməkdə çətinlik çəkir. | Bitkilərin insan həyatındakı rolunu izah edərkən səhvlərə yol verir. | Bitkilərin insan həyatındakı rolunu izah edərkən fikrini əsaslandırmır. | Bitkilərin insan həyatındakı rolunu nümunələr göstərməklə izah edir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Layihənin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Layihə əsasında düzgün nəticənin əldə olunması | | |

Bu linklərdəki videomaterialları səsini azaltmaqla dərsdə nümayiş etdirmək olar:
https://www.youtube.com/watch?v=8MCjI49wLPc
https://www.youtube.com/watch?v=WS85aGTgUWI
https://www.youtube.com/watch?v=QN0_IZYJ6_E

# 3 Heyvanların həyatımızda rolu

**Standart:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**Məqsəd:** Heyvanların insan həyatındakı rolunu izah edir.

Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

Şagirdlərdə idraki fəallığı yaratmaq üçün BİBÖ cədvəlindən istifadə edərək heyvanlar haqqında şagirdlərin bildiklərini aşkara çıxarmaq və cədvəlin birinci sütununda qeyd etmək lazımdır. Bunun üçün şagirdlərə aşağıdakı suallarla müraciət olunur:

– Hansı heyvanları tanıyırsınız?

– Heyvanları necə qruplaşdırmaq olar? (yaşayış mühitinə görə, qidalanmasına görə və s.)

– Yaşadıqları mühitə uyğun onlarda hansı xüsusiyyətlər yaranmışdır?

– Bu heyvanlar haqqında nə kimi maraqlı məlumatlarınız var?

Şagirdlər sualları cavablandırdıqdan sonra onların öyrənmək istədikləri suallar müəyyən olunaraq cədvəlin ikinci sütununda yazılır.

Motivasiyanı heyvanların şəkillərindən istifadə etməklə də yaratmaq olar. Bunun üçün elektron lövhədə (olmadığı halda heyvanların şəkillərini lövhəyə asmaq və yaxud da adlarını lövhədə yazmaq mümkündür) nümayiş etdirməklə şagirdlərə bu heyvanları qruplaşdırmağı tapşırın. Şagirdlər bu tapşırığı kollektivlə və yaxud da fərdi şəkildə yerinə yetirə bilərlər. Tapşırığın fərdi şəkildə yerinə yetirilməsi üçün heyvanların şəkilləri ya nömrələnməli, ya da adları qeyd olunmalıdır. Bu şəkillərin seçimi zamanı şagirdlərin 3-cü sinifdə öyrəndikləri, adlarını bildikləri heyvanlardan istifadə oluna bilər. Məsələn, köstəbək, yereşən, çölsiçanı, balina, delfin, balıq, dəvəquşu, koala, meymun və s.

Motivasiya istənilən formada yaradıla bilər. Tədqiqat sualı isə birdir: ***Heyvanların insan həyatında nə kimi rolu vardır?***

Mətnlə tanışlığın müxtəlif üsullarla aparılması mümkündür. Bu, fasiləli oxu və yaxud İNSERT üsulu da ola bilər. İNSERT üsulundan istifadə olunarsa, şagirdlər bu mətni fərdi və yaxud cütlər şəklində oxuyub müvafiq qeydlər aparmalıdırlar. Bu zaman onlar verilən məlumatın onlara tanış olub-olmadığını, əvvəllər bildiklərini inkar edib-etmədiyini, məlumatın yeniliyini, bu mövzuda əlavə məlumat almaq istədiyini qeyd edirlər.

İstər fasiləli oxu, istərsə də İNSERT üsulundan istifadədən sonra məlumatın müzakirəsinə yer verilməlidir. Müzakirələr zamanı şagirdlər aşağıdakı nəticələrə yönləndirilir:

– Heyvanlar insanların həyatında mühüm yer tutur. Onlardan müxtəlif məqsədlər üçün istifadə olunur.

– Ev heyvanlarının saxlanılması üçün onlara özlərinə məxsus qulluq etmək, yem tədarükü görmək lazımdır.

– Bəzi heyvanlar insanlarda müxtəlif xəstəliklərə səbəb ola bilər. Parazit qurdlar insan üçün çox təhlükəlidir. Onlara yoluxan zaman insanın iş qabiliyyəti, yaddaşı zəifləyir.

– Heyvanlarla təmasda olarkən müəyyən edilmiş gigiyena qaydalarına əməl etmək vacib şərtdir.

Dərsin sonunda səhifə 18-dəki 1 və 3-cü tapşırığı kollektivlə birgə yerinə yetirmək olar. Bu tapşırıqlar dərsdə öyrənilənləri ümumiləşdirməyə imkan verəcəkdir. Həmin səhifədəki 2 və 4-cü tapşırığın icrası ev tapşırığı kimi verilə bilər. 4-cü tapşırıqda şagirdlər parabüzəni və ilanı faydalı hesab edəcəklər. 2-ci tapşırıqda həşəratların faydasını araşdıranda, bir növ, bu tapşırığın da bir hissəsini yerinə yetirmiş olacaqlar.

**QEYD:** *Parabüzənlər bitki parazitləri, bitkilərə zərər verən cücülərlə qidalandıqları üçün faydalı hesab olunurlar və onlardan bunun üçün istifadə olunur ki, bu, bioloji mübarizə üsulu adlanır.*

*Su hövzələrinin çirklənməsi, meşələrin qırılması həşəratların sayının azalmasına səbəb olur. Lakin faydasını, təbiətdə böyük rol oynamasını nəzərə almaqla onları qorumaq lazımdır.*

Səhifə 19-da verilən əqrəblərlə bağlı tapşırığın cavabı verilərkən şagirdlər bilməlidirlər ki, Azərbaycanda yayılan bu əqrəb növlərinin sancması sinir sisteminə, ürəyə təsir göstərir. “Ev heyvanlarının bəslənilməsi zamanı əməl etməli olduğunuz qaydalar barədə məlumat vərəqi hazırlayın və məktəbdə paylayın” tapşırığını şagirdlər kiçik qruplarda hazırlaya bilərlər. Sonda isə işlər müzakirə olunaraq təkrar fikirlər çıxarılmalı, daha faydalı olanlar seçilməli və sinifdə, məktəbin foyesində asılmalıdır. Bu tapşırığın icrası şagirdlərin həyati bacarıqlar qazanması baxımından vacib və maraqlıdır.

Dərslikdə verilmiş tapşırıqlardan tədqiqatın qruplar şəklində aparılması zamanı da istifadə edə bilərsiniz. Bu zaman şagirdləri paylama materialları ilə təmin etmək mütləqdir.

Ümumiləşdirməni lövhədə sxem tərtib etməklə aparmaq olar:

**Heyvanların faydası**

- Qida kimi istifadə olunur;
- Ətlik, südlük, qoşqu heyvanı kimi istifadə olunur;
- Dərilərindən istifadə olunur;
- Parça, bal, mum və s. məhsullar alınır.
- Bioloji mübarizədə istifadə olunur.
- Sanitar rolunu oynayırlar və s.

**Heyvanların zərəri**

- Bəziləri insan orqanizmində yaşayır və xəstəlik törədir.
- Bir sıra xəstəlikləri yayırlar.
- Zəhərlənmələrə səbəb olurlar və s.

Dərsin sonunda heyvanların insan həyatında roluna dair videoçarxın izlənilməsi məqsədəuyğundur. 2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası** zamanı şagirdlərə müxtəlif heyvanların şəkilləri paylanılır. Bu fəaliyyəti qrup halında və ya üç qrupla həyata keçirmək mümkündür. Şagirdlərə şəkillərdəki heyvanların adlarını müəyyənləşdirmək tapşırılır. Adlar qeyd edilir. Daha sonra bu heyvanların insan həyatında faydalı, yoxsa ziyanlı rol oynadıqları müəyyənləşdirilir. 1-ci addımda faydalı olan heyvanlar, 3-cü addımda ziyanlı olanlar, 5-ci addımda isə insan sağlamlığı üçün faydalı və ziyanlı olan canlılar müəyyənləşdirilir. Faydalı və ziyanlı xüsusiyyətlər mütləq şəkillərin yanında qeyd edilir. Şagirdlərin tədqiqat sualına cavab verərkən insanların dostu olan, onların həyatını zənginləşdirən heyvanlar haqqında danışmaları üçün də istiqamətləndirilə bilərlər.

Fəaliyyət üçün istifadə ediləcək şəkillər: arı, çay xərçəngi, milçək, zəli, askarid qurdu, at, çəyirtkə, tut ipəkqurdu, it, pişik, qoyun, inək, tutuquşu, akvarium balığı ola bilər. Fəaliyyəti reallaşdırmaq üçün tələb edilən şəkillər QR kod vasitəsilə təqdim edilir.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Heyvanların insan həyatındakı rolunu izah etməkdə çətinlik çəkir. | Heyvanların insan həyatındakı rolunu izah edərkən səhvlərə yol verir. | Heyvanların insan həyatındakı rolunu izah edərkən fikrini əsaslandırmır. | Heyvanların insan həyatındakı rolunu nümunələr göstərməklə izah edir. |
| Sağlamlığın qorunması ilə bağlı təqdimat etməkdə çətinlik çəkir. | Sağlamlığın qorunması ilə bağlı təqdimatı tam deyildir. | Sağlamlığın qorunması ilə bağlı təqdimat edərkən fikrini tam əsaslandıra bilmir. | Sağlamlığın qorunması ilə bağlı sistemli təqdimat edir. |

# 4 İnsan və mikroorqanizmlər

**Standart:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

**Məqsəd:** Mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

Dərsə başlamaq üçün klaster üsulundan istifadə oluna bilər. Bu zaman şagirdlər aşağı siniflərdən əldə etdikləri bilikləri xatırlamalıdırlar. Onlara canlılar arasında hansı əlaqənin olduğu barədə sual ünvanlamaq olar. Qeyd edilən fikirlər klasterdə qeyd edilməlidir. Bu suala şagirdlər 3-cü sinif Həyat bilgisindən öyrəndiklərini xatırlamaqla cavab verə bilərlər. Məsələn, onlar bitkilərlə heyvanlar, bitkilər və mikroorqanizmlər, bir heyvan növü ilə digər bir heyvan növü arasındakı faydalı əlaqəni qeyd edə bilərlər. Söyləyə bilərlər ki, həşəratlar bitkilərin nektarı ilə qidalanır, həm də onları tozlandırırlar. Yaxud canlılar arasında qida əlaqəsi vardır, bəzi heyvanlar digər canlılarda xəstəliklərin yaranmasına səbəb olurlar, yırtıcılar xəstə heyvanları tutub yeyir və xəstəliklərin yayılmasının qarşısını alır və s.

Motivasiyanı şagirdlərə aşağıdakı mətni təqdim etməklə də yaratmaq mümkündür:

*Çoxunuz payızın sonunda meşədə, parkda ağacların tökülmüş yarpaqlarının, qırılmış budaqlarının yerdə qalın bir təbəqə əmələ gətirdiyini görmüsünüz. Bir müddətdən sonra onlardan əsər-əlamət qalmır. Sizcə, buna səbəb nədir?*

Şagirdlərin səsləndirdikləri fikirlər lövhədə qeyd olunur və tədqiqat sualı səsləndirilir. Tədqiqat “Mikroorqanizmlərin insan həyatında nə kimi rolu vardır?” sualı ətrafında aparılır.

**QEYD:** Mikroorqanizmlər haqqında ətraflı məlumat üçün bu linkdən istifadə edə bilərsiniz. Bu link müəllim üçün nəzərdə tutulur:

https://www.youtube.com/watch?v=424A1pAZ8f4

Mətnlə tanışlıq, tədqiqatın aparılması qruplarla təşkil oluna bilər. Bunun üçün strategiyalı oxu üsulundan istifadə etmək mümkündür. Bu zaman “açar sözlərin tapılması” və yaxud da “sualların tərtib olunması” üsullarından istifadə etmək olar. Sualların tərtib olunması üçün şagirdlər mətni oxumalı və təhlil etmək üçün suallar tərtib etməlidirlər. Suallar aşağıdakı formatda tərtib olunmalıdır:

– Mətndə dəqiq cavabı olan suallar

– Cavabı mətnaltı mənada olan suallar.

Bunun üçün qrupdakı şagirdlər əvvəlcə sualları tərtib edərək sonra bunları sadədən mürəkkəbə doğru düzürlər. Nəticədə şagirdlər mətn üzərində diqqətlə işləmiş olur, mətni tam olaraq mənimsəyirlər və bu, dərketmənin yüksəldilməsinə imkan verir.

Şagirdlərə ayrılan vaxt bitdikdən sonra hazırlanan suallar digər qruplara verilir və müzakirə təşkil olunur. Bu üsuldan istifadə eyni zamanda şagirdlərin fəal öyrənməsinə şərait yaradır.

Mətnlə tanışlığı sinfinizdəki şagirdlərin maraq və ehtiyaclarını nəzərə almaqla fasiləli oxu, İNSERT üsullarından istifadə etməklə, yaxud dərslikdəki tədqiqat xarakterli tapşırıqları yerinə yetirməklə də həyata keçirə bilərsiniz.

Nəzəri məlumatın, aparılan araşdırmanın nəticələri müzakirə olunduqdan sonra ümumiləşdirmənin aparılması mütləq tələbdir. Bu zaman şagird əldə etdiyi yeni informasiyanı sistemləşdirmiş olacaq. Bu məqsədlə cədvəl və ya sxemlərdən istifadə məqsədəuyğundur. Bu mövzuda ümumiləşdirmə aparmaq üçün aşağıdakı kimi sxem qura bilərsiniz. Sxemin elektron lövhədə hazır təqdim olunması məqsədəuyğun hesab edilmir. Şagirdlərlə birgə tamamlama onların əldə etdikləri biliyi sistemləşdirməyə kömək etmiş olacaq.

**Mikroorqanizmlərin faydası**

- Süd məhsulları – qatıq, pendirin hazırlanmasında, spirtin alınmasında da istifadə olunur.
- Bəziləri insanın bağırsağında yaşayır, qidanın həzm olunmasına kömək edir.
- Bəzilərindən dərman hazırlanır, içməli suyun təmizlənməsində, torpağın əmələ gəlməsində iştirak edir.

**Mikroorqanizmlərin zərəri**

- Qida maddələrini istifadə edilə bilməyəcək hala salır.
- Meyvələrin, çörəyin, almanın, üzümün, limonun üzərində kifin yaranmasına səbəb olur.
- Bitki və heyvanlarda, insanda xəstəliklərə səbəb olur.
- İnsanda vərəm, angina, keçəllik xəstəliklərinə səbəb olur.
- Balıqçı torlarını, kitab vərəqlərini çürüdür.

Ümumiləşdirmə məqsədilə dərslikdə 23-cü səhifədə verilmiş “Uyğunluğu müəyyən edin” tapşırığının da yerinə yetirilməsi mümkündür.

Dərsin sonunda mikroorqanizmlərin insan həyatında roluna dair videoçarxın izlənilməsi məqsədəuyğundur. 2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Mikroorqanizmlərin fəaliyyətini göstərmək üçün maya ilə həyata keçirilən kiçik bir eksperiment edə bilərsiniz. Şagirdlərə pendir, süd, qatığın alınması, xəmirin şişməsi zamanı mikroorqanizmlərdən istifadə edildiyini bildirin. Sonra onların da canlı olduğunu xatırladın. Bu gözlə görünməyən varlıqların bəzi fəaliyyətini müşahidə etdiyimizi söyləyin. Xəmirin şişməsinə səbəb olan çox kiçik göbələklərin olduğunu qeyd edin. Onların üzvi maddələrlə zəngin, isti, rütubətli yerdə inkişaf etdiyini qeyd edin.

Bunun üçün bir stəkan ılıq su götürün, içinə 4 şəkər atın, qarışdırın, quru maya əlavə edin və köpməsini göstərin. Sizə 3-4 dəqiqə vaxt lazım olacaq. Daha sonra eyni fəaliyyəti plastik şüşədə də edin. Bu zaman onun ağzına şar keçirin. Şarın necə hava ilə dolduğu açıq-aydın görünəcək.

Şagirdlərə bu fəaliyyətin insan həyatında müsbət yönlərinin də olduğunu, insanların bu fəaliyyətdən öz xeyirləri üçün yararlandıqlarını izah etmək lazımdır. Maya göbələklərinin qidasını şəkər təşkil etdiyini, xəmir hazırlayarkən bundan istifadə olunduğunu bildirin. Qeyd edin ki, xəmir qıcqırarkən burada karbon qazı əmələ gəlir, bu da xəmiri şişirdir.

Fəaliyyət üçün sizə 4-5 ədəd qənd, quru maya, plastik şüşə, şar, stəkan və ılıq su, çay qaşığı lazım olacaq. Bu linklərdən də istifadə edə bilərsiniz:

https://www.youtube.com/watch?v=424A1pAZ8f4 )
https://www.youtube.com/watch?v=FMeGXVzjJDU

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Mikroorqanizmlərin insan həyatındakı rolunu izah etməkdə çətinlik çəkir. | Mikroorqanizmlərin insan həyatındakı rolunu izah edərkən səhvlərə yol verir. | Mikroorqanizmlərin insan həyatındakı rolunu izah edərkən fikrini əsaslandırmır. | Mikroorqanizmlərin insan həyatındakı rolunu nümunələr göstərməklə izah edir. |

# 5 İnsana təsir edən amillər

**Standart:** 4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir.

3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

**Məqsəd:** Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir.

Nümunələr əsasında mənəvi keyfiyyətləri izah edir.

Bu mövzuda şagirdlərdə idraki fəallıq yaratmaq üçün müxtəlif üsullardan istifadə etmək olar.

1. Mövzu emosional məqamlarla, əsəb və emosional gərginliyin sağlamlığa mənfi təsiri ilə bağlı olduğundan şagirdlərə aşağıdakı suallarla müraciət oluna bilər:

– Sizin sevincinizə nə səbəb olur?

– Hansı hadisələr və yaxud nə sizi əsəbiləşdirir?

– Hansı hərəkətləriniz ailə üzvlərinizin əsəbiləşməsinə səbəb olur? və s.

Şagirdlərin qeyd etdikləri fikirlər lövhədə qeyd olunur, sistemləşdirilir və nəticədə iki siyahı yaranır. Biri şagirdlərin sevincinə səbəb olan hallar, digəri isə şagirdlərin emosional gərginlik keçirmələrinin səbəbləridir. Bu məqamda qeyd olunur ki, əsəb və emosional gərginlik insan orqanizminə mənfi təsir edir, təsirsiz ötüşmür. Tədqiqat “Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına nə kimi mənfi təsiri vardır?” sualı ətrafında aparılır.

2. Dərsin motivasiya mərhələsində “Ögey ana” filmindən İsmayılın Cəmilənin otağına yarasa buraxması səhnəsindən fraqment nümayiş etdirmək olar. Bu səhnənin nümayişindən sonra şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– İsmayılın bu hərəkətini necə qiymətləndirirsiniz? Nə üçün?

– Bu cür hallar nəyə səbəb ola bilər?

– Əsəb və gərginliyə səbəb ola biləcək başqa hansı hallarla qarşılaşırsınız?

3. Şagirdlər arasında kiçik bir oyun keçirmək olar. Bu zaman şagirdlər cütlərə bölünür. Hər bir cütlük bir-birinin əsəbiləşməsinə və sevincinə səbəb olan amilləri müzakirə edir, dəqiqləşdirir. Buna çox qısa bir zaman sərf olunur. Fikirlər səsləndirilir və müzakirə tədqiqat sualı əsasında davam etdirilir.

4. Şagirdlər təsadüfi seçimlə seçilir. Onlara üzərində müxtəlif hallara səbəb ola biləcək hadisələr yazılmış stikerlər paylanılır. Şagird bu stikeri aldığı zaman bu hadisənin nəyə səbəb olacağını müəyyən edir. Və tədqiqata başlanılır.

5. 27-ci səhifədəki 1-ci tapşırıqda verilən şəkillərə istinadən də motivasiya yaradıla bilər.

Tədqiqatın aparılması müzakirələrlə təşkil oluna bilər. Mövzu bu baxımdan geniş imkanlara malikdir. Şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mətnlə tanış ola bilərlər. Strategiyalı oxunun "sualların tərtib olunması" üsulundan da bu məqsədlə istifadə etmək olar. Bu, şagirdlərin marağına səbəb olar. Müzakirələr zamanı şagirdlərə suallarla müraciət olunmalıdır. Öyrənilən, təhlil olunan materialın möhkəmləndirilməsi məqsədilə dərslikdə səh. 27-dəki tapşırıqlardan istifadə etmək olar.

3.2.1. məzmun standartının tələbinə müvafiq olaraq (3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir) bədii əsər, uşaqların yaşına uyğun olan film, yaxud da tamaşalardan qısa fraqmentlər nümayiş etdirmək və bu barədə şagirdlərlə müzakirə təşkil etmək lazımdır.

**Bu zaman diqqət edilməli məqamlardan biri ondan ibarətdir ki, təkcə stres və digər halların insanda yaratdığı gərginlik, orqanizmə göstərdiyi mənfi təsiri deyil, eyni zamanda da bu cür hallarda davranış qaydaları, stresdən çıxmağın yolları xüsusi vurğulansın və uşaqlarla bu istiqamətdə iş aparılsın.** Məhz bu bacarıq XXI əsr bacarıqları sırasına daxildir və dövrümüz, gənclərimiz, kiçik yaşlı məktəblilər və yeniyetmələr üçün olduqca vacibdir. Səhifə 28-də verilən tapşırıqlar bu məqsədə xidmət edir.

Nəzəri materialın müzakirəsinin nəticələrinin ümumiləşdirilməsinin aparılması pedaqoji tələbdir. Bu zaman şagird əldə etdiyi yeni informasiyanı sistemləşdirmiş olacaq. Bu mərhələdə uşaqlarla işləyən psixoloqun məsləhətinə dair videoçarxın nümayiş etdirilməsi məqsədəuyğundur. Ümumiyyətlə, bu, çox həssas bir mövzu olduğundan bu mövzunun tədrisinə məktəb psixoloqu da cəlb oluna bilər. 2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası.** Şagirdlər layihəni qrup halında yerinə yetirməlidirlər. Yaxşı olar ki, fəaliyyət lövhədə yerinə yetirilsin. Stres və əsəbi gərginlik vəziyyətinin ilkin əlamətləri müzakirə edilir. Müşahidə əsasında müəyyən edilən bu əlamətlər bir sütunda yazılır və ya hazır yapışqanlı kağızlara qeyd edilərək lövhəyə yapışdırılır. İkinci sütunda bunu yaradan səbəblər müzakirə edilir və bu səbəblər bir sütunda yazılır.

Üçüncü sütunda bu vəziyyətdə, gərginlik anında insanın özünü vəziyyətdən çıxara biləcəyi fəaliyyətlər qeyd edilir və uyğun şəkillər həmin sütuna yapışdırılır.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah etməkdə çətinlik çəkir. | Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edərkən səhvlərə yol verir. | Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edərkən fikrini əsaslandırmır. | Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini nümunələr göstərməklə izah edir. |

# 6 Sağlamlığımızın qayğısına qalaq

**Standart:** 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**Məqsəd:** Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

Bu mövzuda şagirdlərdə idraki fəallıq yaratmaq üçün müxtəlif üsullardan istifadə etmək olar.

1. Beyin həmləsi üsulundan istifadə etməklə aşağıdakı kimi sual vermək olar:

– Sağlamlığın şərtləri hansılardır?

– Sağlam həyat tərzi dedikdə nə nəzərdə tutulur?

Bu zaman şagirdlər əvvəlki biliklərindən faydalanmalıdırlar. Cavablar lövhədə qeyd olunur.

2. Şəhərlərdə əhalinin sıxlığı, texnologiyanın inkişafı səs-küyə səbəb olur. Səsin şiddətini mütəxəssislər xüsusi cihazla ölçürlər. Şiddətli səslər müntəzəm eşidilərsə, insana zərər verə bilər. Sizcə, bunun insana nə kimi zərəri ola bilər? *(eşitmə pozğunluğu, yüksək təzyiq, stres, əsəbilik, diqqətsizlik, yuxu pozğunluğu, iş qabiliyyətinin aşağı düşməsi və s.)*

3. Elektron lövhədə sağlamlığa mənfi təsir göstərən amillərlə bağlı bir neçə fikir nümayiş etdirilir. Şagirdlərə bu fikirləri davam etdirmək tapşırılır:

– Hərəkətdə olan nəqliyyatda kitab oxumaq gözlərə ziyandır.

– Qulağı kibrit çöpü, karandaş kimi əşyalarla təmizləmək karlığa səbəb ola bilər.

– Vaxtı keçmiş qida məhsullarından istifadə etmək zəhərlənməyə səbəb ola bilər.

– Çox isti və soyuq qidaları ardıcıl qəbul etmək dişləri zədələyir.

Şagirdlərin **sağlamlığa təsir göstərən amillərlə bağlı** əlavə fikirlər səsləndirmələri üçün yönəldici suallardan istifadə etmək olar.

Qeyd olunan və yaxud da başqa bir formada idraki fəallıq yaradılmasına baxmayaraq, tədqiqat “Sağlamlığımızı qorumaq üçün hansı qaydalara əməl etməliyik?” sualı əsasında aparılmalıdır.

Həyati biliklər, aşağı sinifdən Həyat bilgisi fənninin tədrisindən əldə etdikləri biliklər, müşahidələrindən faydalanaraq şagirdlərin irəli sürdüyü fikirlər müzakirə olunur və növbəti mərhələyə keçid edilir. Məsələn: şagirdlər qeyd edə bilərlər ki, sağlam olmaq üçün düzgün qidalanmaq lazımdır. Bu zaman sual olunur: “Uşaqlar, sağlam, düzgün qidalanma deyərkən nəyi nəzərdə tutursunuz? Sizə görə, düzgün qidalanma nə məna daşıyır?” Şagirdlərin cavablarını dinləyərkən onların dedikləri sözün mahiyyətini nə dərəcədə anladıqlarını müəyyən etmiş olacaqsınız. Bu isə müəllimə növbəti addımları atmaq üçün istiqamət verəcək. Bu mərhələdə sağlamlığa təsir edən amillər, onların səbəb və nəticəsi, sağlamlığın qorunmasına dair şəkillər də nümayiş etdirmək olar.

Nəzəri materialla tanışlıq, tədqiqatın aparılması sinifdəki şagird sayından asılı olaraq, cütlərlə və yaxud qruplarla təşkil oluna bilər. Nəzəri material düzgün qidalanmama, yuxu rejiminin pozulması, kompüter asılılığı, oturaq həyat tərzinin zərəri və bunların qarşısının alınması yolları ilə bağlıdır. Araşdırmanın daha ətraflı aparılması və məzmun standartının tələbinə əsasən şagirdlərə əlavə olaraq paylama materialı da təqdim etmək mümkündür. Şagirdlər araşdırmaları ilə bağlı təqdimat etməlidirlər. Bunun üçün də vaxtı düzgün bölüşdürmək, təlim formasını ona uyğun müəyyən etmək lazımdır.

Araşdırma üçün şagirdlərə aşağıdakı tipdə tapşırıq vermək olar. Tapşırığa əsasən şagirdlərdən tələb olunan dərslikdən və paylama materialından istifadə etməklə cədvəlin ikinci sütununa sağlamlığa mənfi təsir göstərən amillərin insan orqanizminə təsirini, üçüncü sütunda isə bütün araşdırmanın nəticəsi olaraq sağlamlığın qorunması üçün yoldaşlarının əməl etməli olduqları bir neçə qayda yazmaqdan ibarətdir.

| Sağlamlığa mənfi təsir göstərən amillər | Orqanizmə təsiri | Sağlamlığı qorumaq üçün qaydalar |
|---|---|---|
| Səs-küy | | |
| Yuxu pozğunluğu | | |
| Kompüter asılılığı | | |
| Oturaq həyat tərzi | | |
| Gigiyena qaydalarına əməl etməmək | | |

Tədqiqatın nəticələri müzakirə olunduqdan sonra ümumiləşdirilməlidir. Bu zaman şaxələndirmə üsulundan istifadə etmək olar.




Ümumiləşdirmə mərhələsində sağlamlığın yalnız fiziki aspektini deyil, mənəvi və emosional aspektlərini də vurğulamaq lazımdır. Səh. 33-də verilən təqdimat mövzuları ev tapşırığı olaraq nəzərdə tutulmuşdur. Bunun üçün qruplar, mövzular müəyyənləşdirilməli və mənbələr şagirdlərə təqdim olunmalıdır. Şagirdlər təqdimatlarını ya 2-ci dərs saatında, ya da bölmənin sonundakı ümumiləşdirici dərs saatında təqdim edə bilərlər.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Şagirdlər “sağlamlığını qoruyan insan” və “sağlamlığına ziyan vuran insan” adı altında qrup fəaliyyəti reallaşdıra bilərlər. Bunun üçün rəngli kağızlardan dairələr kəsilir. Sağlamlığı qorumaq üçün vacib olan şərtlər və sağlamlığa ziyan vuran amillər bu kağızların üzərinə yazılır. Layihənin hər ikisi (bir neçə qrupla da işləyə bilərsiniz) lövhədə nümayiş etdirilməlidir.

Layihəni reallaşdırmaq üçün sizə şəkillər də lazım olacaq. A3 kağızının ortasına sağlam bir gənc, digərinə xəstə görünüşlü bir gənc (yeniyetmə) şəkli yapışdırılır. Sonra bu şəkillərin ətrafına xüsusiyyətlər və ya onları ifadə edən şəkillər yapışdırılır. Anlayışlar bunlardır: təmiz ətraf mühit, müsbət fikirlər, gün rejimi, hərəkətdə olmaq, bədənin möhkəmləndirilməsi, zərərli vərdişlərdən imtina, təmiz havada gəzinti, havaya uyğun geyinmə, günəşdə qaralma, soyuq duş qəbuletmə, torpaqda ayaqyalın gəzmək.

Sağlamlığa ziyan vuran vərdişlər: siqaret çəkmək, gigiyena qaydalarına əməl etməmək, yuxusuz qalmaq, kompüter qarşısında çox oturmaq, sağlam qidalanmamaq.

**Qiymətləndirmə meyarı:** təqdimat etmə

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlamlığın qorunmasına aid təqdimat etməkdə çətinlik çəkir. | Sağlamlığın qorunmasına aid təqdimat edərkən səhvlərə yol verir. | Sağlamlığın qorunmasına aid təqdimat edərkən fikrini tam əsaslandırmır. | Nümunələr göstərməklə sərbəst şəkildə sağlamlığın qorunmasına aid təqdimat edir. |

**QEYD:** Təqdimatın hazırlanmasına verilən tələblər, sağlamlığın qorunmasına dair əlavə məlumatı aşağıdakı mənbələrdən əldə edə bilərsiniz:


1. *Z.Veysova.* Fəal təlim metodları. Bakı, 2007
2. http://festival.1september.ru/articles/414629/
https://www.arti.edu.az/noduploads/book/agirdlarda-gigiyena-qaydalari-va-saglam-qidalanma-bacariqlarinin-formalasdirilmasi-banovsa-son-donusturuldu.pdf

# 7 Mühit amillərinin canlılara təsiri

**Standart:** 1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir.

**Məqsəd:** Mühit amillərinin canlılara təsirini izah edir.

Mövzu üzrə müxtəlif cür motivasiya yaratmaq mümkündür.

1. Şagirdlər aşağı siniflərdən canlı və cansız təbiət amilləri, canlıların qorunması, canlıların qorunması məqsədilə görülən tədbirlər və s. haqqında məlumatlıdırlar. Bunları nəzərə alaraq onlara aşağıdakı suallarla müraciət oluna bilər:

- Cansız təbiət amilləri hansılardır?
- Canlı təbiət amilləri hansılardır?
- Qoruqlarda qorunan hansı bitkiləri tanıyırsınız?
- Onların qorunmasının səbəbi nədir?
- Canlılara təsir göstərən əsas cansız amillər hansılardır?

Müzakirələr zamanı şagirdlər əvvəlki biliklərindən faydalanmalıdırlar. Yönəldici suallardan istifadə etməklə onların fikrini yeni mövzuya istiqamətləndirmək lazımdır.

2. Lövhədə 2 klaster qurulur. Şagirdlərə "Bura hansı canlıların adlarını qeyd edə bilərik?" sualı ilə müraciət olunur.

- Meşədə yaşayan canlılar –
- Səhrada yaşayan canlılar –

Şagirdlər canlıları sadaladıqdan sonra "Bu canlılar arasında nə kimi əlaqə vardır? Canlılara başqa hansı amillər təsir göstərir?" sualları ilə müraciət olunur. Onlar – *işıq, temperatur, rütubət, torpaq, hava və s. sadaladıqdan sonra tədqiqat sualı üzərində dayanılır və şagirdlər tədqiqata yönləndirilir.*

3. Şagirdlərdə idraki fəallığı yaratmaq üçün onlara müxtəlif terminlər yazılmış rəngli stikerlər təqdim etmək də mümkündür. Hər şagird ona təqdim olunan stikeri lövhədə yazılmış “Canlı təbiət amilləri” və “Cansız təbiət amilləri” başlığının müvafiq sütununda yerləşdirməlidir. Stikerlərin üzərində *işıq, temperatur, rütubət, torpaq, hava, bitki, göbələk, heyvan, bakteriya* sözləri yazılır. Bu stikerlərdə yazılmış anlayışlar sistemləşdirildikdən sonra tədqiqat “Mühit amilləri canlılara necə təsir göstərir?” sualı ətrafında tədqiqata başlanılır.

Motivasiyanın birinci hissəsinin hansı formada qurulmasından asılı olmayaraq, tədqiqata başlamazdan öncə şagirdlərin tədqiqat sualına verdikləri cavablar dinlənilir. Təbii ki, bu şagirdlərin ilkin fikirləri, fərziyyələridir. Lövhədə müəyyən qeydlər etmək və dərsin sonunda bu fikirlərin doğru, yaxud yanlış olduğu ilə bağlı müzakirə aparmaq vacibdir.

Mətn üzərində tədqiqatın aparılması üçün bildiyiniz digər üsullar: fasiləli oxu, İNSERT, sualların tərtibi və sairlə yanaşı, “Açar sözlərin tapılması” üsulundan istifadə etmək olar. Bu, mövzunun oxunması strategiyasıdır. Bu zaman şagirdlər verilən mətnin mənasını açan, öyrənməyə kömək edən söz və ya cümlə seçib dəftərlərində qeydlər edirlər. Bu onların mətni qavramasına kömək edir və müstəqil öyrənməni təmin edir. Dərslikdə verilən mövzu bu üsuldan istifadə etməyə imkan verir. Şagirdlər bu mətndən *işıq, temperatur, rütubət* sözlərini seçərək qeyd edəcək və bunlara aid fikirləri dəftərlərində sistemləşdirəcəklər.

Mətnin araşdırılması məqsədilə “anlayış təyinetmə” strategiyasından da istifadə etmək mümkündür. Verilən mətn hər iki strategiyanın tətbiqinə imkan verir.

Tədqiqatı cütlərlə də aparmaq mümkündür. Bu zaman dərslikdə verilmiş tapşırıqlardan istifadə etmək olar. Tapşırıq cütlərə cədvəl şəklində də verilə bilər. Bu zaman aşağıdakı tipdə cədvəl qurmaq mümkündür.

Mövzunu araşdırmaqla verilənlərin hansı mühit amilinin təsirindən baş verdiyini müəyyən edin:

| **Mühit amilləri** / **Xüsusiyyətlər** | **Temperatur** | **Rütubət** | **İşıq** |
|---|---|---|---|
| Bəzi səhra bitkilərinin uzun və güclü köklərinin olması | | | |
| Yay aylarında bəzi bitkilərin yarpaqlarının tökülməsi | | | |
| Tısbağaların yay yuxusuna getməsi | | | |
| Yarasaların gecə aktiv olması | | | |
| Qurbağaların yaz-yay aylarında aktivliyi | | | |
| Kaktus bitkisində yarpaqların tikana çevrilməsi | | | |

Siz xüsusiyyətləri artırmaqda sərbəstsiniz. Lakin çalışın ki, tapşırığa sərf olunan vaxtı nəzərə almaqla yanaşı, dərslikdə verilməyən materiala dair xüsusiyyət verməyəsiniz və yaxud da verəcəyiniz əlavə xüsusiyyətlərə dair paylama materialı təqdim edəsiniz.

Bu dərs saatında dərsliyin 36-cı səhifəsindəki tapşırıqların işlənməsi nəzərdə tutulur. Səh. 36-dakı 3-cü tapşırığın müzakirəsini kollektivlə aparmaq məqsədəuyğundur.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Şagirdlərə fəaliyyət üçün heyvan şəkilləri təqdim olunur. Şəkillərin mütləq adlandırılmasına diqqət edin. Onu da qeyd edək ki, sizə lazım olan şəkilləri fəaliyyətin QR kod təqdim olunan linkindən də əldə edə bilərsiniz.

Qurbağa, dəvəquşu, ağcaqanad, balıq, sincab, cüyür, ilbiz, su hörümçəyi, qarışqa, kaktus, dəvə, kirpi, dovşan, dəvətikanı və s. şəkillərini adlandıran şagirdlər bu canlıları yaşadıqları yerlərə görə qruplaşdıracaqlar. Nəzərə alın ki, bu canlıların bir çoxunu onlar artıq əvvəlki siniflərdən tanıyırlar. Yəni qruplaşdırma apararkən bir o qədər də çətinlik çəkməyəcəklər. Fəaliyyət əsasında şagirdlər həm canlıları tanıyacaq, həm onların mühitə uyğun əldə etdikləri xüsusiyyətləri müəyyən edəcəklər.

Dərslə tanışlıq mətnini əsas götürərək siz şagirdlərin bu fəaliyyəti qruplar halında reallaşdırmasını da təmin edə bilərsiniz.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Mühit amillərinin canlılara təsirini izah etməkdə çətinlik çəkir. | Mühit amillərinin canlılara təsirini izah edərkən səhvlərə yol verir. | Mühit amillərinin canlılara təsirini izah edərkən fikrini əsaslandıra bilmir. | Mühit amillərinin canlılara təsirini nümunələr əsasında izah edir. |

# 8 Ətraf mühitin qorunması

**Standart:** 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.

1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd:** Yaşadığı ərazinin qorunması ilə bağlı layihə hazırlayıb təqdim edir.

Ətraf mühitin qorunması ilə bağlı kiçik təqdimatlar edir.

Sagirdlərin Həyat bilgisi fənnindən əldə etdikləri biliklərə istinad edərək motivasiyanı aşağıdakı kimi yarada bilərsiniz.

1. Motivasiyanı müxtəlif sxemlərdən istifadə etməklə yaratmaq olar. Bunun üçün iki elektron lövhədə aşağıdakı məzmunda şəkillər təqdim edilə bilər:

Şəkillərin birində insan ağac əkir, ətraf yaşıllıqdır.

Digərində ağac qırılıb, yerdə quş yuvası, ətrafda digər canlılar və s.

Şəkillər arasında fərq müəyyən olunduqdan sonra "Ətraf mühitin qorunması, sağlamlaşdırılması məqsədilə hansı tədbirlər həyata keçirilir?" sualı ətrafında tədqiqat aparıla bilər. Şagirdlərin fərziyyələri mütləq qeyd olunmalıdır.

1. Lövhədə ətraf mühitin çirklənməsini əks etdirən şəkillər asmaqla şagirdlərə aşağıdakı suallarla müraciət olunur:

– Şəkillərdə hansı çirklənmə hallarını müşahidə edirsiniz? *(havanın, suyun və torpağın çirklənməsi)*

– Bu çirklənmələrə səbəb nədir? *(zavod və fabriklərin, iaşə obyektlərinin, maşınların tüstüsü, məişət və fekal sular, ətrafa atılmış tullantılar və s.)*

  

Dərsin məqsədi əsas götürülərək müxtəlif videoçarxlar göstərilə bilər. Videoçarxlarda yalnız insanın təbiətə dağıdıcı təsiri deyil, həm də xilasetmə tədbirlərinin göstərilməsi də vacibdir.

Növbəti addım mətnlə tanışlıqdır. Məzmun standartının tələbi baxımından mətnin fasiləli oxunması və yaxud da İNSERT üsulundan istifadə olunmaqla oxunması məqsədəuyğun hesab edilmir. Çünki bu dərsdə reallaşdırılacaq məzmun standartı təqdimatın hazırlanıb təqdim edilməsini tələb edir. Ona görə də tapşırıq elə seçilməlidir ki, şagird təqdimatın hazırlanması zamanı mətndən də istifadə etsin, mətni araşdırsın. Bu məqsədlə səhifə 41-dəki tapşırıqlardan istifadə etmək olar. Bundan əlavə, aşağıdakı kimi də tapşırıq verə bilərsiniz.

Tapşırıqları qrupların sayına uyğun artıra bilərsiniz.

Məsələn:

1. “Yaşıllıqların qorunmasında bizim rolumuz” mövzusunda təqdimat hazırlayın.

2. Ətraf mühitin qorunması ilə bağlı plakat və simvol hazırlayın. Bu plakatı da sinfinizin qarşısından asın ki, məktəbinizdəki şagirdlər ətraf mühitin qorunması üçün müəyyən işlər görsünlər.

3. Məktəbin ərazisinin ekoloji problemlərinin aradan qaldırılması ilə bağlı qaydalar hazırlayın.

4. Çimərliklərin ərazisində təmizliyə əməl olunması ilə bağlı qaydalar hazırlayın və s.

Şagirdlərin təqdimatlarını nümayiş etdirmələrinə şərait yaratmaq lazımdır. Çalışmaq lazımdır ki, hazırlanan qaydalarla məktəbin digər şagirdləri də tanış olsunlar. Təqdimatların maraqlı və dəqiq hazırlanması üçün, yuxarıda da qeyd olunduğu kimi, videoçarxın nümayiş etdirilməsi, tədqiqatın aparılmasına qədər olan mərhələ çox böyük önəm daşıyır.

Qrup işlərinin nəticələri müzakirə olunmalı, ümumiləşdirilməlidir. Müzakirə zamanı müəyyən anlayışları şagirdlərin düzgün anladığını bilmək üçün açıq suallardan istifadə edilməlidir. Ümumiləşdirmə zamanı “Şaxələndirmə” üsulundan istifadə oluna bilər.

Sonda hazırda dünyada mövcud olan ekoloji problemlər içərisində çox geniş yayılmış “karbon ayaq izi” haqqında şagirdlərə məlumat vermək olar. Karbon ayaq izini hər bir kəsin hesablaya biləcəyi və bu göstəricini hər gün bir az aşağı endirməklə ətraf mühitin qorunmasında iştirak edəcəyini şagirdlərə mütləq çatdırmaq lazımdır.

**QEYD:** Karbon ayaq izi birbaşa olaraq insan fəaliyyəti nəticəsində ətraf mühitə daxil olan karbon qazının, o cümlədən bu sıradan olan istixana qazlarının tonlarla miqdarına deyilir. Qısa desək, insan fəaliyyətinin ətraf mühitə vurduğu zərərli təsirin adambaşına düşən

miqdari ölçüsü **karbon ayaq izi** adlanır. Məsələn, maşın sürən zaman, evinizi qızdıran zaman, yemək bişirərkən, mağazadan müxtəlif məhsullar alarkən, televizor seyr edərkən və s. ətraf mühitə müəyyən miqdar karbon qazının atılmasına səbəb olursunuz. Bu isə öz növbəsində karbon ayaq izinin yaranmasına gətirib çıxarır. Adətən, karbon ayaq izinin miqdarı ildə bir dəfə olmaqla ölçülür. Aşağıda qeyd etdiyimiz link vasitəsilə hər kəs öz karbon ayaq izini hesablaya bilər. (https://www.carbonfootprint.com/calculator.aspx)

**Fəaliyyətin icrası**

Fəaliyyət üçün əvvəlcədən hazırlıq tələb edilir. Ona görə də şagirdlərə yaşadıqları ərazidə çirklənmə mənbələrini müşahidə etmələrini, fotolarını çəkmələrini, haqqında məlumat toplamalarını tapşırmalısınız. Fəaliyyət şagirdlərin özlərinin apardığı araşdırma nəticəsində həyata keçiriləcək. **Fəaliyyət üçün lazımdır:** iş vərəqi, yapışqan, müxtəlif şəkillər – çirkab sularla bağlı, rəngli qələmlər, xüsusi təkliflər vərəqi. Şagirdlər yaşadığı ərazidə olan çirklənmə mənbələrini müəyyən edirlər. Daha sonra müxtəlif mənbələrdən istifadə etməklə ərazi haqqında topladıqları məlumatları iş vərəqinə qeyd edirlər. İş dəftərində mütləq çirklənməni sübut edən şəkillərin yapışdırılmasını da təmin etməyə çalışın. Bunun üçün şagirdlər telefondan, fotoaparatdan istifadə edə bilərlər. Çirklənmənin dənizdə, çayda, dəniz ətrafında və çay ətrafında yaşayan canlılara verdiyi ziyanlar qeyd edilir və şəkillərlə əsaslandırılır. Sonda çirklənmənin səbəbi və aradan qaldırılması yolları ilə bağlı müzakirə aparılır və çıxarılan nəticələr yazılır. Şagirdlər bu layihəni qruplar halında – müxtəlif ərazilər üzrə qruplaşaraq da apara bilərlər.

**Qiymətləndirmə meyarı:** təqdimat etmə

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlamlığın qorunmasına aid təqdimat etməkdə çətinlik çəkir. | Sağlamlığın qorunmasına aid təqdimat edərkən səhvlərə yol verir. | Sağlamlığın qorunmasına aid təqdimat edərkən fikrini tam əsaslandırmır. | Nümunələr göstərməklə sərbəst şəkildə sağlamlığın qorunmasına aid təqdimat edir. |

# 9 İnsan sosial varlıq kimi

**Standart:** 2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.

**Məqsəd:** İnsanın sosial varlıq olduğunu izah edir. Bunu səciyyələndirən cəhətlər barədə təqdimatlar hazırlayır.

Motivasiyanı dərsliyin 45-ci səhifəsində verilən "Mauqli" cizgi filmi ilə bağlı verilən tapşırıq, yaxud "Maraqlı" rubrikasında canavar-oğlanla bağlı verilən informasiya üzərində qura bilərsiniz. Filmdən kiçik bir parça nümayiş etdirməklə insanın bioloji varlıq kimi hansı xüsusiyyətləri olduğunu soruşun. Tənəffüs etmək, qidalanmaq, su içmək, yatmaq kimi xüsusiyyətlərin bütün canlılarla xas xüsusiyyətlər olduğunu qeyd edin. Daha sonra insanı digər canlılardan fərqləndirən xüsusiyyətləri sadalanmasına şərait yaradın: **düşünmək, fikir yürütmək, nitq bacarığı, müəyyən inanclara sahib olmaq, davranış mədəniyyəti** və s. Onların əldə edilməsi üçün ünsiyyətin vacibliyi qənaətinin əldə olunmasına çalışın. Məsələn, Mauqlinin simasında gördük ki, əgər balaca bir uşaq başqaları ilə ünsiyyətdə olmazsa, danışmağı öyrənə bilməz. Eyni zamanda da digər bacarıqlardan da məhrum olar. Bacarıqların müzakirəsini "Sizcə, insanlar hansı bacarıqları və xüsusiyyətləri ilə cəmiyyətin formalaşmasına müsbət təsir göstərirlər?" tədqiqat sualına yönləndirməyə çalışın. Səh. 44-də verilən tapşırıq əsasında fikir mübadiləsi apararaq da fikirlərinizi əsaslandıra bilərsiniz.

Şəkillərdən hansında insanın bioloji varlıq olduğunu göstərən xüsusiyyətlər təsvir edilib? Nə üçün belə düşünürsünüz?

1


2


3


4


Bununla da şagirdlər insanın bir **fərd** olaraq əvvəlcə **ailədə,** daha sonra isə **kollektivdə** və **cəmiyyətdə** başqaları ilə ünsiyyət nəticəsində ictimai davranış qaydalarını və dəyərləri mənimsədiyini, inkişaf etdiyini, **sosial varlığa** çevrildiyini öyrənəcək, eyni zamanda da bir fərd olaraq ailənin də, kollektivin də, cəmiyyətin də formalaşmasında müəyyən funksiya daşıdığını anlamış olacaqlar. İnsan üçün ünsiyyətin, ailənin, kollektivin nə qədər vacib amil olduğunu, eyni zamanda da cəmiyyətin inkişafında hər bir fərdə ehtiyac olduğunu vurğulamağı unutmayın.

Şagirdlərin əldə etdikləri bu məlumatları bir qədər də möhkəmləndirmək üçün onların səh. 44-də verilən sualları cavablandırmasını istəyin. Səh. 45-dəki son iki tapşırıq ev tapşırığı kimi verilə bilər.

**Fəaliyyətin icrası**

Fəaliyyəti icra etmək üçün şagirdlər iki qrupa bölünə bilərlər. Qruplardan biri insanın bioloji varlıq, ikincisi isə sosial varlıq olduğunu sübut edən bacarıqları və fəaliyyətləri əks etdirən şəkilləri seçərək adlandırmalı və bu bacarıqları qeyd etməlidirlər. Yaxud layihəni kollektiv halda da reallaşdırmaq mümkündür. Bunun üçün şagirdlərə insanın müxtəlif bacarıqlarını ifadə edən aşağıdakı şəkillər təqdim edilməlidir.



Bu bacarıqlar arasından insanın sosial varlıq olduğunu göstərən şəkillər seçilməli və adlandırılmalıdır.

Dərslikdə – 43-cü səhifədə fəaliyyətin icrası addım-addım qeyd edilib. 1-ci addımda şagirdlər şəkillərdə insana aid hansı bacarıqların göstərildiyini, 2-ci addımda insanın məhz ünsiyyət zamanı qazandığı bacarıqları müəyyən etməli və yazmalıdır. 3-cü addımda isə ünsiyyət vasitəsilə qazanılan bacarıqlara uyğun şəkillər seçilməli və yapışdırılmalıdır.

Dərsliyin 45-ci səhifəsindəki tapşırığı ev tapşırığı olaraq verə bilərsiniz.

T Cəmiyyətdən uzaq düşmüş və vəhşi təbiətdə böyümüş uşaqlarla bağlı araşdırma aparın, nəticələrə əsasən kiçik bir təqdimat hazırlayın.

Şagirdlərin qiymətləndirilməsi meyar əsasında həyata keçirilir.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| İnsanın sosial varlıq olduğunu izah etməkdə çətinlik çəkir. | İnsanın sosial varlıq olduğunu izah edərkən səhvlərə yol verir. | İnsanın sosial varlıq olduğunu izah edərkən nümunələr göstərməkdə çətinlik çəkir. | İnsanın sosial varlıq olduğunu nümunələr əsasında izah edir. |
| İnsanın sosial varlıq olduğunu göstərən səciyyəvi cəhətlər barədə təqdimat hazırlamaqda çətinlik çəkir | İnsanın sosial varlıq olduğunu göstərən səciyyəvi cəhətlər barədə təqdimat hazırlayarkən səhvlərə yol verir | İnsanın sosial varlıq olduğunu göstərən səciyyəvi cəhətlər barədə zəif də olsa təqdimat hazırlayır | İnsanın sosial varlıq olduğunu göstərən səciyyəvi cəhətlər barədə təqdimat hazırlayır |

Layihəni aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Layihənin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Layihə əsasında düzgün nəticənin əldə olunması | | |

# 10 Ailənin cəmiyyətdə rolu

**Standart:** 2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.

2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.

**Məqsəd:** Cəmiyyətdə fərdin, ailənin, kollektivin rolunu izah edir. Ailədə mövcud hüquqlarını şərh edir.

Motivasiyanı qurmaq üçün "Ailəni sevən insanlar cəmiyyəti, xalqı və dövləti də sevirlər" fikrini necə izah edərdiniz?" sualından istifadə edə bilərsiniz. Bu suala cavab olaraq şagirdlər ailə və cəmiyyət, ailə və fərd, ailə və kollektiv arasında əlaqə qura bilərlər.

Yaxud dərsliyin 46-cı səhifəsindəki sxemə əsaslanaraq da motivasiya qurmaq olar.




Cəmiyyətin ayrı-ayrı qruplardan ibarət olduğunu, ailənin də o qruplardan biri olduğunu şagirdlər əvvəlki illərdən bilirlər. İnsanın sosial varlıq kimi formalaşmasında, yetişməsində və inkişafında ailənin rolunun böyük olduğu, ailənin, uşaqların sağlam böyüməsi üçün şərait yaradan, onları qoruyan doğma insanların birliyi adlandırıldığı haqqında bilgini xatırlatdıqdan sonra uşaqların inkişafına və tərbiyəsinə əsas cavabdehliyi ailənin böyüklərinin, yəni valideynlərin daşıdığını qeyd edin. Bu məsuliyyətin nədən ibarət olduğu sualına aşağıdakı cavabları almağa çalışın: uşaqların yaşaması üçün yaxşı mühit yaradılması, onların normal qidalanması, sağlam, dinc və mehriban mühitdə böyüməsi, onlara qayğı və sevgi göstərilməsi, dəyərli və sevilən olduqlarının hiss etdirilməsi və s. Onların ailə mühiti ilə fərdin yetişdirilməsi arasında əlaqə olduğu nəticəsinə gəlmələrinə çalışın. Müzakirəni "Sizcə, fərdlərin ailədə mənimsədiyi hansı xüsusiyyətlər kollektivin və cəmiyyətin inkişafına təsir göstərir?" tədqiqat sualına istiqamətləndirin. İnsa-

nın ailədə öyrəndiyi bacarıqları əvvəlcə kollektivdə – məktəbdə, sinifdə, daha sonra isə cəmiyyətdə tətbiq etməyə başladığı ilə bağlı qənaət əldə etmələri üçün fəaliyyəti qrupla reallaşdıra bilərsiniz.

**Fəaliyyətin icrası**

Uşaqlar qruplarla işləyirlər. Onlara üzərində fərdə aid xüsusiyyətlərin yazıldığı rəngli kağızlar olan konvert paylanır. Bu xüsusiyyətlərin "ailədə fərd" "kollektivdə fərd" günəşlərinin ətrafında yapışdırılması tapşırığı verilir. Məsələn, "Qardaşını incitmir", – "Sinif yoldaşını incitmir", "Anasına hörmət edir", – "Müəlliminə hörmətlə yanaşır", "Bacısı ilə tez-tez dalaşır", – "Sinif yoldaşı ilə anlaşa bilmir", "Qərar verərkən ata və ananın fikrini nəzərə alır", – "Müəllimin rəyini nəzərə alır", "Ailədə hər kəsə qarşı acıqlıdır", – "Sinifdə hamı ilə pis rəftar edir", "Ailədə hər zaman rahat və gülərüzlüdür", – "Sinifdə yoldaşlarına qarşı mehriban və anlayışlıdır", "Evdə qışqıra-qışqıra danışır", – "Küçədə qışqıra-qışqıra danışır", "Ailə üzvləri ilə kobud davranır", – "Sinifdə hər kəslə kobud rəftar edir", "Ata-anaya ev işlərində kömək edir", – "Sinifdə ümumi işlərdə fəallıq göstərir", "Narahatlığını heç kəslə bölüşmür", – "Hiss etdiklərini anasına demir", "Ailədə vəzifələrini yerinə yetirmir", – "Sinifdə qaydaları bilmir və əməl etmir", "Ailədə heç bir vəzifə daşımır", – "Məktəb qaydalarına qarşı laqeyddir", "Ailədə ailə üzvlərini dəstəkləyir", – "Sinif yoldaşlarını dəstəkləməyə çalışır", "Dialoq qurmaq bacarığı var" – "Sinifdə istənilən mübahisədə təmkinli davranır, başqalarının sözünü dinləyə bilir", "Evdə vəzifələrini bilir", – "Sinifdə vəzifələrinə əməl edir" və s.

Hər iki günəşin "şüaları" arasında uşaqların əlaqə yaratması xahiş edilir. Ailədə qazanılan bacarığın və ya xüsusiyyətin kollektivdə və cəmiyyətdə hansı davranış və xüsusiyyət kimi özünü göstərdiyi aydınlaşdırılır. Sonda şagirdlərin ailədə qazandığı müsbət davranış və xüsusiyyətlərin cəmiyyətin inkişafına, daha yaşanılası və rahat yerə çevrilməsinə gətirib çıxardığı nəticəsinə gəlməsini təmin edin.

Şagirdlərə ev tapşırığı olaraq 49-cu səhifədəki tapşırığı verə bilərsiniz.

T Azərbaycan cəmiyyətinin inkişafında böyük rolu olan ailələr haqqında araşdırma aparın. *(Məsələn, Həsən bəy Zərdabi və ailəsi, Heydər Əliyev və ailəsi)*

Şagirdlər bu tapşırıq əsasında çox maraqlı bir araşdırma apara və təqdimat hazırlaya bilərlər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Cəmiyyətdə fərdin, ailənin, kollektivin rolunu izah etməkdə çətinlik çəkir. | Cəmiyyətdə fərdin, ailənin, kollektivin rolunu izah edərkən, səhvlərə yol verir. | Cəmiyyətdə fərdin, ailənin, kollektivin rolunu izah edərkən, fikrini əsaslandıra bilmir. | Cəmiyyətdə fərdin, ailənin, kollektivin rolunu faktlarla izah edir. |
| Ailədə mövcud hüquqlarını şərh etməkdə çətinlik çəkir. | Ailədə mövcud hüquqlarını şərh etməkdə səhvlərə yol verir. | Ailədə mövcud hüquqlarını şərh edərkən fikrini əsaslandıra bilmir. | Ailədə mövcud hüquqlarını nümunələr göstərməklə şərh edir. |

# 11 Ailədə və kollektivdə vəzifələrimiz

**Standart:** 2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.

**Məqsəd:** Ailədəki və kollektivdəki vəzifələri haqqında təqdimatlar hazırlayır.

Motivasiyanı dərsliyin 52-ci səhifəsində 1-ci sualda verilən şəkillər üzərində qura bilərsiniz. Şagirdlərdən şəkillərdə təsvir edilənləri və bunun nə ifadə etdiyini soruşun. Onlardan vəzifə anlayışını almağa çalışın. Daha sonra birlikdə vəzifə anlayışının izahını formalaşdırmağa çalışın. Vəzifənin üzərimizə düşən və ya ailə böyükləri, müəllimlərimiz tərəfindən bizə tapşırılan işlərin yerinə yetirilməsi olduğunu bildirin.

**Motivasiyanı** “Anlayışın çıxarılması” üsulundan istifadə etməklə də yarada bilərsiniz:




Vəzifə anlayışı anlaşıldıqdan sonra ailədə hər kəsin öz öhdəlikləri olduğunu qeyd edin. Ailə başçıları, yəni valideynlər: **uşaqlarının yaşamını təmin etməli, onların tərbiyəsi ilə məşğul olmalı, övladlarını qayğı və sevgi ilə əhatə etməli, sağlamlığının qeydinə qalmalı, onları qorumalıdırlar.** Bunların sadalanmasına nail olun. Daha sonra uşaqların ailədəki vəzifələrini müəyyənləşdirməyə çalışın. Mövzu ilə bağlı onların 2 və 3-cü sinifdən bilgiləri olduğu üçün bu cavabları asanlıqla verəcəklər: valideynlərinin məsləhətlərinə və tapşırıqlarına əməl etmək, nizam-intizam qaydalarını qorumaq, valideynlərin yaratdığı səliqə-sahmanı pozmamaq, ev işlərində ailə başçılarına köməklik göstərmək, dərsləri yaxşı oxumaq, öz otaqlarını səliqəli saxlamaq və s.

Motivasiyanı qurmaq üçün dərsliyin 53-cü səhifəsində, “Maraqlı” rubrikasında verilən məlumatdan da yararlana bilərsiniz: “Çin ailələrində ata da, ana da eyni şəkildə həm pul qazanıb ailəni dolandıra, həm də evdə oturub uşaqların tərbiyəsi ilə məşğul ola bilər. Hələ kiçik yaşlarından çinli uşaqlar ailədə əməksevərliyə öyrədilir”. Bu informasiyanın azərbaycanlı ailələrdə vəzifə bölgüsünün  müzakirəsi ilə davam etdirmə, müqayisə aparmaq və vəzifələri müəyyənləşdirmək olar.

Motivasiyanı şaxələndirmə üsulundan və yaxud da başqa üsullardan istifadə edərək də apara bilərsiniz. Lakin onu hansı formada qursanız da tədqiqatı “Ailədə və kollektivdə üzərinizə düşən hansı vəzifələr vardır?” sualı ətrafında aparın.

Bundan sonra reallaşdırılacaq fəaliyyət şagirdlərin tədqiqat sualını praktik şəkildə reallaşdırmaq üçün yardımçı olacaq. Şagirdlər bu fəaliyyəti qruplarla həyata keçirməlidirlər. Onlara müxtəlif şəkillər paylanır. Bu şəkillərin adlandırılması istənilir. Əgər arzu etsəniz, qrupların bəzilərinə “ailədəki vəzifələr”, digərlərinə “kollektivdəki vəzifələr”i müəyyən etmək tapşırıla bilər.

Daha sonra şəkillərdə təsvir edilən vəzifələrin uşaqlarda hansı xüsusiyyətləri və vərdişləri formalaşdırdığı, bu vəzifələri yerinə yetirərkən hansı duyğuları yaşadıqları, nələr hiss etdikləri haqqında düşünmələri və  bunu sxem şəklində qruplaşdırmaları tapşırılır. Sonda çıxan nəticələr ümumiləşdirilir. Şagirdlərin cavablarının böyük əksəriyyətinin “məsuliyyət”, “müstəqil hərəkət etmək”, “müstəqil qərar vermək” kimi vərdişlərin formalaşması, “özünü ailəyə və kollektivə yararlı hiss etmək”, “sevinc”, “məsuliyyət” kimi hisslərin yaşanması ilə bağlı olmasına çalışın. Dərslikdə fəaliyyətin bütün addımları dəqiqliklə verilibdir.

Səhifə 52 və 53-dəki sual və tapşırıqlar şagirdlərin əldə etdikləri biliyin səviyyəsinin yoxlanılması üçün nəzərdə tutulur.

52-ci səhifədə “Fakt” rubrikasında verilən məlumatdan (“Uşaq hüquqları haqqında” Qanuna əsasən, uşaqların vurduğu maddi ziyana görə onun valideynləri məsuliyyət daşıyırlar. (maddə 19) istifadə edərək şagirdləri uşaqların ehtiyatsız davranmaqla ətrafa hansı maddi ziyanlar vura biləcəkləri, bu baş verməsin deyə hansı hallarda daha ehtiyatla davranmalı olduqları haqqında düşünməyə vadar edə bilərsiniz. Bu faktdan istifadə edərək şagirdlərə təqdimat hazırlaması üçün tapşırıq verilməlidir.

53-cü səhifədəki sonuncu tapşırıqda “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsində verilən müddəalardan çıxış edərək şagirdlər təqdimat hazırlaya bilərlər. Təqdimatın hazırlanması bu dərsin təlim məqsədidir.

Şagirdlərin qiymətləndirilməsi meyar əsasında həyata keçirilir.

**Qiymətləndirmə meyarı:** təqdimathazırlama

| I | II | III | IV |
|---|---|---|---|
| Təqdimatda bütün məlumatlar öz əksini tapmır. | Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatda nəzəri səhvlərə yol verir. | Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimat sistemsizdir. | Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında nümunələrə əsaslanan ardıcıl və sistemli təqdimat hazırlayır. |

# 12 Cəmiyyətdə ünsiyyətin rolu

**Standart:** 3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə “yox” demək) riayət edir.

3.1.2. Ünsiyyət mədəniyyətinə həsr edilmiş kiçik təqdimatlar edir.

**Məqsəd:** Nəzakət qaydalarına əməl edir. Ünsiyyət mədəniyyəti haqqında kiçik təqdimatlar edir.

Motivasiyanı dərsliyin 57-ci səhifəsindəki “Maraqlı” rubrikasında verilən informasiyanın üzərində qura bilərsiniz: “Dünyada muxtəlif xalqların bir-birindən fərqlənən ünsiyyət mədəniyyətləri var. Məsələn, tibetlilər bir-biri ilə salamlaşmaq üçün dillərini çıxarırlar”.

Daha sonra şagirdlərdən “ünsiyyət mədəniyyəti” anlayışının mənasını soruşun və onun hansı bacarıq və xüsusiyyətləri özündə birləşdirdiyini müəyyən etməyə çalışın. Müzakirə əsnasında şagirdlər ünsiyyət mədəniyyətinin insanlarla münasibət qurmaq üçün lazım olan bacarıqlar toplusu olduğunu qeyd edin. Salamlaşmaq, salamlaşarkən gülümsəmək, tanımadığın insanlara “siz” deyə müraciət etmək, təmkinlə danışmaq, qarşıdakı insana söz demək üçün imkan yaratmaq və s. ünsiyyət mədəniyyəti üçün vacib olan şərtlərdir.

Siz motivasiyanı “Anlayışın çıxarılması” üsulundan istifadə etməklə də qura bilərsiniz.




Motivasiyanı qurmaq üçün sizə dərsliyin 56-cı səhifəsindəki son tapşırıqda verilmiş şəkillər də yardımçı ola bilər.




Motivasiyanı necə qurmağınızdan asılı olmayaraq müzakirəni ünsiyyət mədəniyyətinə riayət etməyin bəzi məqamlarda “yox” cavabını verməyə mane olmamalı olduğu istiqamətində davam etdirməlisiniz.

– Ünsiyyət mədəniyyəti nədir?

Ünsiyyət mədəniyyətini qorumaq üçün hansı qaydalara əməl olunmalıdır? tədqiqat sualları ətrafında aparmalısınız.

Daha sonra fəaliyyətlə dərsi davam etdirə bilərsiniz. Dərslikdə müxtəlif situativ şəkillər təqdim edilmişdir ki, siz bu şəkilləri qruplar arasında istədiyiniz şəkildə paylaşdıra bilərsiniz. Hər qrup 1 şəkil və ya 2 şəkil üzərində işləyə bilər. Şəkillərin hər birində müxtəlif vəziyyətlərdə istifadə edilən ünsiyyət mədəniyyəti qaydaları, etiket qaydaları təsvir edilib. Şagirdlər təxəyyüllərinin və yaradıcılıq bacarıqlarının gücü ilə həmin situasiyaları təsvir edəcək və dialoqlar quracaqlar. Onlardan süjet qurarkən “Gecəniz xeyrə qalsın”, “Axşamınız xeyir”, “Buyurun”, “Məmnuniyyətlə”, “Xoşdur”, “Sabahınız xeyir”, “Təşəkkür edirəm”, “Sizə zəhmət deyilsə”, “Nuş olsun”, “Sağlam olun”, “Bağışlayın, üzr istəyirəm”, “Tezliklə görüşənədək” kimi ünsiyyət etiketlərindən istifadə etməyi, şəkillərdə doğru və yanlış olan məqamları müzakirə etməyi istəyin. Dialoqlarda iştirak edən şəxslərin daha mədəni ünsiyyət qurması üçün fərqli ifadələrdən istifadə etmələrinə diqqət yetirin. Eyni zamanda da şəkillər üzərində iş şagirdlərin süjet qurmaq bacarıqlarını da inkişaf etdirəcəkdir.

Şagirdlər fəaliyyəti yerinə yetirərkən onları “Şəkillərdə təsvir edilən oxşar vəziyyətlərdə siz necə davranardınız” sualı ilə istiqamətləndirə də bilərsiniz. Dərsliyin 56-cı və 57-ci səhifəsində təqdim edilən sual və tapşırıqlar şagirdlərin əldə etdikləri biliyin yoxlanılması üçün nəzərdə tutulub. 57-ci səhifədəki son tapşırığı şagirdlərə ev tapşırığı kimi verə bilərsiniz.

**Qiymətləndirmə meyarı**: tətbiqetmə, təqdimat etmə

| I | II | III | IV |
|---|---|---|---|
| Müxtəlif situasiyalarda nəzakət qaydalarına düzgün əməl etmir. | Müxtəlif situasiyalarda tənqidi münasibətlərə aqressiv reaksiya verir. | Müxtəlif situasiyalarda müəllimin göstərişlərinə əsasən nəzakət qaydalarına əməl edir. | Nəzakət qaydalarına situasiyaya müvafiq əməl edir. |
| Ünsiyyət mədəniyyəti haqqında təqdimat etməkdə çətinlik çəkir. | Ünsiyyət mədəniyyəti haqqında təqdimatı tam deyil. | Ünsiyyət mədəniyyəti haqqında təqdimat edərkən fikrini tam əsaslandıra bilmir. | Ünsiyyət mədəniyyəti haqqında sistemli təqdimat edir. |

# 13 Mənəvi keyfiyyətlərimiz

**Standart:** 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.

3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**Məqsəd:** Müxtəlif nümunələr əsasında mənəvi keyfiyyətləri izah edir.
Müzakirə və diskussiyalarda mənəvi keyfiyyət nümayiş etdirir.
Mənəvi borcla bağlı təqdimatlar edir.

Siz motivasiyanı dərsliyin 61-ci səhifəsində “Ögey ana” filmindən QR vasitəsilə verilmiş fraqmenti nümayiş etdirməklə qura bilərsiniz. Fraqmentə baxdıqdan sonra İsmayılın rəftarı və hansı mənəvi xüsusiyyətlərə malik olduğu müzakirə edilməlidir. Şagirdlərin “mənəvi keyfiyyətlər” anlayışı altında hansı xüsusiyyətləri başa düşdüyünə diqqət yetirin. Çünki bəzən bu anlayışı yalnız insanın müsbət xüsusiyyətləri kimi dəyərləndirənlər olur. Əslində, insanda mövcud olan müsbət və mənfi xüsusiyyətlərin toplusunun insanın mənəvi xüsusiyyətləri adlandırıldığını mütləq diqqətə çatdırın.

Motivasiyanı qurmaq üçün “Beyin həmləsi” üsulundan da istifadə edə bilərsiniz. Lövhədə yazılan xüsusiyyətlərdən hansının müsbət hansıların mənfi xüsusiyyətlər olduğunu soruşun.

| | | |
|---|---|---|
| – Paxıllıq | – Vətənpərvərlik | – Dürüstlük |
| – Yalançılıq | – Laqeydlik | – Xəsislik |
| – Hörmətsizlik | – Yaşlılara hörmətlə yanaşmaq | – Sevgisizlik və s. |

Bu xüsusiyyətlərin mənfi və müsbət xüsusiyyətlər olaraq müəyyənləşdirilməsindən sonra müzakirənin “Müxtəlif situasiyalarda hansı mənəvi keyfiyyətlər nümayiş etdirməliyik?” tədqiqat sualı ətrafında aparılmasını təmin edin.

Dərsin ikinci saatında fəaliyyətin həyata keçirilməsini təşkil edə bilərsiniz. Bunun üçün dərslikdə müxtəlif situativ şəkillər təqdim olunub. Şəkilləri dərslikdən başqa, QR kod vasitəsilə təqdim edilən videomaterialın altında da əldə edə bilərsiniz. Məktəbinizdə çap imkanlarınız varsa, çap edərək şagirdlərə paylama materialı kimi təqdim etməyiniz də mümkündür.

**Fəaliyyətin icrası**

Şagirdlərə 4-cü sinif Həyat bilgisinin qəhrəmanlarının – Qlobus adam (Yer kürəsi) və Ağıllıcanın iştirakı ilə müxtəlif situativ şəkillər təqdim edilib. Bu şəkillər əsasında qruplara bölünən uşaqlar öz hekayələrini qurur və bu “dizi”ni öz şəkilləri ilə tamamlayırlar. Şəkillərin ardıcıllığını, hekayənin məzmununu özləri təyin edirlər. Təsvirlər və məzmun əsasında hekayənin qəhrəmanlarının sahib olduqları müsbət və mənfi xüsusiyyətləri müəyyənləşdirirlər. Şagirdlər öz hekayələrini qurarkən onlardan “Qəhrəmanların yerində siz olsaydınız, necə davranardınız?” sualına da cavab almağa çalışın. “Ötüb keçərdilərmi, yoxsa hadisəyə müdaxilə edərdilərmi? Dalaşırlarsa, bu onların pis xüsusiyyətə sahib olduqları deməkdirmi?” və s. suallar verməklə müxtəlif həyat hadisələri zamanı meydana çıxan mənəvi xüsusiyyətlərin dəyərləndirilməsində fərq ola biləcəyi cavabını da almağa çalışın.

Dərsliyin 60 və 61-ci səhifələrində verilən sual və tapşırıqlar şagirdlərin əldə etdikləri biliklərin yoxlanması üçün nəzərdə tutulub.

Şagirdlərlə “Filmlər, cizgi filmləri, bədii əsərlər, tamaşalar bizim mənəvi keyfiyyətlərimizə təsir göstərə bilərmi” sualı ətrafında maraqlı müzakirə apara bilərsiniz. Tamaşa etdikləri nümunələr əsasında fikirlərini əsaslandırmalarına şərait yaratmağa çalışın.

60-cı səhifədəki son tapşırığı ev tapşırığı olaraq verə, yaxud sinifdə nümayiş etdirməklə müzakirə edə bilərsiniz. Şagirdlərin bu tapşırıq əsasında maraqlı təqdimatlar hazırlaması da mümkündür.

**Qiymətləndirmə meyarı:** izahetmə, təqdimat etmə, tətbiqetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Mənəvi keyfiyyətləri izah etməkdə çətinlik çəkir. | Mənəvi keyfiyyətləri izah edərkən səhvlərə yol verir. | Mənəvi keyfiyyətləri izah edərkən fikrini əsaslandıra bilmir. | Mənəvi keyfiyyətləri nümunələr göstərməklə izah edir. |
| Müsbət mənəvi keyfiyyətin cəmiyyət üçün əhəmiyyətini bilir, lakin diskussiyalar zamanı sərt münasibət göstərir. | Müzakirə və diskussiyalarda nümayiş etdirdiyi bəzi keyfiyyətlər müsbət mənəvi keyfiyyət deyildir. | Müzakirə və diskussiyalarda qismən müsbət mənəvi keyfiyyətlər nümayiş etdirir. | Müxtəlif mövzularda diskussiyalar zamanı müsbət mənəvi keyfiyyətlər nümayiş etdirir. |
| Mənəvi borcla bağlı təqdimat etməkdə çətinlik çəkir. | Mənəvi borcla bağlı təqdimatı tam deyildir. | Mənəvi borcla bağlı təqdimat edərkən fikrini tam əsaslandıra bilmir. | Mənəvi borcla bağlı sistemli təqdimat edir. |

# 14 Mənəvi borc

**Standart:** 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**Məqsəd:** Ailə və Vətən qarşısında mənəvi borc haqqında təqdimat edir.

Motivasiyanı dərsliyin 65-ci səhifəsində verilmiş 1-ci tapşırıq əsasında qura bilərsiniz. “Cavanşir” cizgi filminin QR kodda təqdim edilmiş fraqmentini şagirdlərə nümayiş etdirdikdən sonra onun rəftarının səbəbləri haqqında sual verin. Şagirdlərdən “Vətən sevgisi”, “Vətən qarşısında borc”, “ailə və Vətən qarşısında məsuliyyət hissi” anlayışlarını almağa çalışın. Daha sonra izah edin ki, bütün sevgilər kimi Vətən sevgisi də yalnız hisslə bağlı deyil, eyni zamanda da vəzifə və mənəvi borc tələb edir. İnsan sevdiklərinə, ailəsinə qarşı necə diqqətli, qayğıkeş olursa, Vətənə qarşı da olmalıdır. Ailəsini, onun dəyərlərini necə qoruyursa, Vətənini, onun sərhədlərini maddi və mənəvi sərvətlərini də eyni şəkildə qorumalıdır. Hətta lazım gəldikdə Vətən uğrundan canından belə keçməyi bacarmalıdır. Ailəmizin tarixini, keçmişini, dəyərlərini necə biliriksə, Vətənimizin də tarixi keçmişini, mədəniyyətini, dəyərlərini o cür tanımalıyıq. Bu, Vətən qarşısında ən böyük mənəvi borcumuzdur.

Siz motivasiyanı dərsliyin 65-ci səhifəsində verilən son tapşırıq əsasında da qura bilərsiniz. Bunun üçün sizə çox da böyük texniki imkanlar lazım olmayacaq. “Vətəndən pay olmayır” mahnısını şagirdlərə dinlətdikdən sonra onun sözlərinin müzakirəsini təşkil edə bilərsiniz. Bu müzakirənin də “Vətən qarşısında mənəvi borc” anlayışının üzərinə gətirə və müzakirəni “Sizcə, insanların Vətən qarşısında başqa hansı mənəvi borcları var?” tədqiqat sualı əsasında davam etdirə bilərsiniz.

Fəaliyyətin təşkili şagirdlərin həm mövzunu daha dərindən mənimsəmələrinə, həm də praktik fəaliyyət əsasında daha yaxşı yadda saxlamalarına yardımçı olacaq.

**Fəaliyyətin icrası**

Fəaliyyət qruplarla yerinə yetirilir. Şagirdlərə müxtəlif məzmunlu şəkillər təqdim edilir.













Fəaliyyətin ilk addımında qruplar əvvəlcə “mənəvi” və “borc” anlayışlarının izahını “İzahlı lüğət”dən taparaq yazmalıdırlar. Daha sonra müzakirə üçün təqdim edilən şəkilləri nəzərdən keçirərək 3-cü addımda ailə qarşısında mənəvi borcla bağlı olan şəkilləri seçməli və bu borcun nədən ibarət olduğunu yazmalıdırlar. 4-cü addımda Vətən qarşısında mənəvi borcu ifadə edən şəkilləri seçməli və bu borcun nədən ibarət olduğunu yazmalıdırlar. Şagirdlərin ailə və Vətən qarşısında mənəvi borc dedikdə bu anlayışların daha geniş mənalarını dərk etmələrinə yardımçı olmağa çalışın. Məsələn, hər bir fərdin öz sahəsində vicdanla oxumasının, öz vəzifələrini yerinə yetirməsinin, çalışdığı sahədə vicdanla fəaliyyət göstərməsinin və cəmiyyətə vicdanla xidmət etməsinin və xeyir verməsinin özünün də Vətən

qarşısında mənəvi borcunu yerinə yeritməsi demək olduğunu izah edə bilərsiniz. Yaxud öz tarixini bilməyin, öz Vətənini və dəyərlərini təbliğ etməyin, onun maddi və mənəvi dəyərlərini, abidələrini qorumağın və s. mənəvi borcla bağlı olduğunu da şagirdlərin diqqətinə çatdırmalısınız.

Dərsliyin 64 və 65-ci səhifəsində verilmiş sual və tapşırıqlar əldə edilmiş biliklərin yoxlanması üçün nəzərdə tutulmuşdur. Yaxud “Maraqlı” rubrikasında verilən “Azərbaycan torpaqları işğal edilən zaman oğurlanan, sonrada dövlətimiz tərəfindən geri alınan üç abidə – Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın büstləri bu gün azad edilmiş Şuşadadır” məlumatını verməklə bu abidələrin torpaqların işğalından sonra öz əvvəlki məkanlarına qaytarılmasının da vətən övladlarının həm bu tarixi şəxsiyyətlər, həm də Vətən qarşısında mənəvi borcu olduğunu qeyd edə bilərsinz. Bu heykəllərin tarixçəsi ilə bağlı şagirdlərdən maraqlı bir təqdimat hazırlanmasını da istəyə bilərsiniz.



**Qiymətləndirmə meyarı**: təqdimat etmə

| I | II | III | IV |
|---|---|---|---|
| Ailə və Vətən qarşısında mənəvi borc haqqında təqdimat etməkdə çətinlik çəkir. | Ailə və Vətən qarşısında mənəvi borc haqqında təqdimatı sistemsizdir. | Ailə və Vətən qarşısında mənəvi borc haqqında təqdimat edərkən fikrini tam əsaslandırmır. | Ailə və Vətən qarşısında mənəvi borc haqqında sistemli təqdimat edir. |

# 15 Dini dəyərlər

**Standart:** 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

3.3.1. İslam dininin  böyük şəxsiyyətlərini tanıyır.

3.3.2. İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.

3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.

**Məqsəd:** Mənəviyyatın formalaşmasını müxtəlif nümunələr üzərində izah edir.
Dini dəyərlərlə xurafatı fərqləndirir.
İslam dininin şəxsiyyətlərini tanıyır.

Dərsin motivasiya mərhələsini dərsliyin 69-cu səhifəsindəki sonuncu tapşırıq üzərində – "Dəli Kür" filmindən seçilmiş fraqmentə tamaşa etməklə qura bilərsiniz. "Sizcə, söhbət hansı dövrdən gedir? Meydana yığışmış insanlar nə üçün müəllimin sözlərini həyəcanla qarşılayırlar? İnsanların uşaqlarını oxumağa göndərməsinə mane olan nədir?" suallarını verməklə müzakiəni başlaya və "dinin təbliğ etdiyi dəyərlər" mövzusu üzərində davam etdirə bilərsiniz. Şagirdlər bütün dinlərin təbliğ etdiyi müəyyən dəyərlərin olduğunu, xüsusilə İslam dininin insanlara başqalarına münasibətdə ədalətli və vicdanlı olmağı, böyüklərə, yaşlılara, özündən kiçiklərə hörmət etməyi öyrətdiyini artıq ötən illərdən bilirlər. Dinlərin zəhməti və əməyi sevməyi, halal yolla qazanmağı, yalandan, haramdan uzaq olmağı təbliğ etdiyini qeyd etdikdən sonra suallar vasitəsilə İslamın elm və təhsilin vacib olduğunu dediyinə yönləndirin. "Qurani-Kərim"in məhz "Oxu!" sözü ilə başladığını, İslam peyğəmbərinin "Elm öyrənmək üçün uzaq Çinə belə get" sözlərinin müsəlmanlar arasında çox yayıldığını qeyd edə bilərsiniz. Bundan sonra bəzən dinlərdən, dini kitablarda yazılan fikirlərdən istifadə edərək cəmiyyətdə həqiqətə uyğun olmayan düşüncələr, yanlış inanclar yayıldığını vurğulayaraq dinin düzgün təqdim edilməməsinin insanlarda çaşqınlıq yaratdığını qeyd edin. Filmdə də məhz bu fikrin müzakirəyə qoyulduğu, keçmiş zamanlarda insanların əksə-

riyyəti savadsız olduğu üçün din adı ilə onları aldatmağın daha asan olduğu fikrini ümumiləşdirə bilərsiniz. Xüsusilə İslam dininin qızların oxumasını qadağan etdiyi, hətta Azərbaycanda Qızlar məktəbinin açılması üçün ziyalıların, xeyriyyəçilərin uzun müddət mübarizə aparmalı olduqları qeyd edilə bilər. Tədqiqatı “Sizcə, dinlə bağlı yanlış fikirlər insanların düşüncəsinə necə ziyan vura bilər?” sualı ətraflnda davam etdirin.

Şagirdlərin din və xurafat anlayışlarını fərqləndirməsini təmin edin. Xurafatın din adına olmayan, yanlış olan fikirlərə inam olduğunu qeyd edin. Dinin aşıladığı dəyərlərdən daha yaxşı baş açmaları üçün şagirdlər fəaliyyəti reallaşdıra bilərlər.

**Fəaliyyətin icrası**

Fəaliyyət üçün dərslikdə dinin təbliğ etdiyi dəyərlər və xurafatı ifadə edən müxtəlif şəkillər təqdim edilib. Şagirdlərdən bu şəkillərin izahı və hansının din, hansının xurafatla bağlı olduğunun müəyyənləşdirilməsi tələb edilir.















Fəaliyyət qrup halında və ya iki qrup şəklində həyata keçirilə bilər. Seçimi özünüz edin. Şagirdlər əvvəlcə şəkillərdə təsvir edilənləri izah etməli, onlarda nəyin, hansı fikrin ifadə olunduğunu deməlidirlər.

Məsələn, bu şəkildə uşağının gitara çalmasına etiraz edən və mikrafonu onun qarşısından alaraq kənara qoyan bir ata təsvir edilib. Şagirdlər bəzən dinin musiqi və incəsənətlə məşğul olmağı qadağa etdiyi, bunun günah olmasını dediyi ilə bağlı yanlış düşüncənin olduğunu bilməlidirlər. Şəkildən çıxan mənanı və ya ümumiləşdirilmiş “yanlış düşüncə”, “xurafat” anlayışını dəftərlərinə qeyd edə bilərlər.

Digər şəkildə isə dinin insanları ibadətə səslədiyi – namaz qılan insan şəkli vasitəsilə təsvir edilib. Bunun dinin təbliğ etdiyi dəyər olduğunu, ibadətin isə insanların fərdi seçimi olduğunu mütləq qeyd edin.

Fəaliyyətin sonunda şagirdlərin mütləq “1. Cəmiyyətdə dinlə bağlı yanlış fikirlərin yayılmaması üçün, sizcə, nə etmək lazımdır? 2. Siz cəmiyyətdə başqa hansı bu cür halları müşahidə etmisiniz?” suallarına cavab verməsinə çalışın.

Dərsliyin 68 və 69-cu səhifələrində şagirdlərin əldə etdikləri biliklərin yoxlanması məqsədilə müxtəlif sual və tapşırıqlar təqdim olunmuşdur. İllüstrasiya ilə təqdim edilmiş Mirzə Ələkbər Sabirin “Oxutmuram, əl çəkin” şeirinin verilmiş bəndinin müzakirəsini təşkil edə, XX əsrin əvvəllərində xurafatın daha çox necə yayıldığını vurğulaya, təhsil almaq hüquqlarının olması ilə müasir uşaqların nə qədər böyük şansları olduğunu vurğulaya bilərsiniz.



Şagirdlərə ev tapşırığı olaraq bu tapşırığı vermək olar:

İslam dininin təbliğ etdiyi müsbət mənəvi dəyərlər haqqında məlumat toplayın.

Şagirdlər bu tapşırıq əsasında təqdimat da hazırlaya bilərlər. Bundan başqa, müəlliflərin dərsliyin “Fakt” və “Maraqlı” rubrikaları üçün seçdikləri məlumatları da mütləq dəyərləndirin. Hətta o məlumatların müzakirəsini apara, onlardan motivasiya mərhələsi üçün, nəticə çıxarılması üçün də istifadə edə bilərsiniz. Məsələn, 69-cu səhifədə “Fakt” rubrikasında “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunundan verilmiş hissəni – “Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi

onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir" oxutmaqla şagirdlərin bunu bilməsini və bu barədə müəyyən qənaətlərinin formalaşmasını təmin edin. Dini etiqadın insanların azad seçimi olduğunu, kimsənin kimsəni buna məcbur etməyə ixtiyarının olmadığı fikri dərsdə səsləndirilməlidir. Qanunun belə bir məcburiyyəti qadağa etdiyi fikri də həmçinin.

**Qiymətləndirmə meyarı:** izahetmə, fərqləndirmə, təqdimetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Mənəvi keyfiyyətləri sadalayır, nümunələr üzərində izah edə bilmir. | Mənəvi keyfiyyətləri nümunələr üzərində izah edərkən səhvlərə yol verir. | Mənəvi keyfiyyətlərin izahı zamanı müəllimin istiqamətinə əsaslanır. | Mənəvi keyfiyyətləri müxtəlif nümunələrə uyğun sərbəst izah edir. |
| Dini dəyərlərlə xurafatı fərqləndirməkdə çətinlik çəkir. | Dini dəyərlərlə xurafatı qismən fərqləndirə bilir. | Dini dəyərlərlə xurafatı fərqləndirərkən qeyri-dəqiq mülahizələr irəli sürür. | Dini dəyərlərlə xurafatı sərbəst fərqləndirə bilir. |
| Müxtəlif dini şəxsiyyətlərin içərisindən islam dininin şəxsiyyətlərini seçməkdə çətinlik çəkir. | İslam dininin yayılmasında rolu olan şəxsiyyətlərin adlarını sadalayır. | İslam peyğəmbərin islam dininin yayılmasındakı rolunu müəyyən edir. | İslam dininin şəxsiyyətlərinin cəmiyyətdə sağlam münasibətlərin yaranmasındakı rolunu bilir. |

# 16 Dövlət orqanları

**Standart:** 2.3.1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir.

**Məqsəd:** Dövlət orqanlarının funksiyalarını izah edir.

Motivasiyanı dərsliyin 73-cü səhifəsində “Fakt” rubrikasında verilmiş məlumatla başlaya bilərsiniz: “Azərbaycanda təhsil üzrə ilk nazirlik 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılıb. O zaman bu dövlət orqanı Xalq Maarif Nazirliyi adlanırdı”. Daha sonra eyni səhifədə “Maraqlı” rubrikasında təqdim edilmiş informasiyanı da – “Azərbaycan xalqı 3 minillik dövlətçilik tarixinə malikdir. Dövlət Bayrağı, Himnimiz, Gerbimiz ilk dəfə Xalq Cümhuriyyəti dövrundə qəbul olunub, Azərbaycan dili dövlət dili elan edilib” təqdim edə və dövlət orqanlarının nə üçün yaradıldığını, buna hansı zərurətdən ehtiyac yarandığını soruşa bilərsiniz. Şagirdlər dövlətin ərazisi, əhalisi, qanunları olan bir quruluş olduğunu, hər bir dövlətin başçıya malik olduğunu və Azərbaycan dövlətinin başçısının Azərbaycan Respublikasının Prezidenti olduğunu artıq bilirlər.

Tədqiqat “Dövlət orqanları hansı funksiyaları yerinə yetirir?” sualı ətrafında aparılır.

Tədqiqatı fasiləli oxu üsulu ilə apara bilərsiniz. Bu oxu strategiyalı oxu olmalıdır. Bu zaman şagirdlər prezidentin səsvermə yolu ilə xalq tərəfindən seçildiyini, dövlətin əsas məqsədinin vətəndaşların hüquqlarını qorumaq olduğunu, bu işin də məhz dövlət orqanları vasitəsilə yerinə yetirildiyini öyrənəcəklər. Şagirdlər bilməlidirlər ki, hüquqlarımız müxtəlif olduğu kimi, onları qoruyan dövlət orqanları da müxtəlifdir və hər bir dövlət orqanının öz funksiyası var. Məsələn, bizim təhsil almaq hüququmuzu, onun qorunmasına nəzarəti Elm və Təhsil Nazirliyi həyata keçirir. Bu orqan həmçinin dövlətin elm və təhsillə bağlı qəbul etdiyi qanunları yerinə yetirir. Sağlamlığımızın qorunması üçün vacib olan işləri Səhiyyə Nazirliyi həyata keçirir. Dövlətimizdə qanunları qəbul edən dövlət orqanı Milli Məclisdir və s.

Dövlət orqanlarının funksiyalarını anlamaq üçün şagirdlərə bir ipucu da verə bilərsiniz. Qeyd edə bilərsiniz ki, dövlət orqanlarının adlarına diqqət etdikdə onların hansı funksiyanı yerinə yetirdiyini anlamaq mümkündür.

Dərsliyin 72 və 73-cü səhifələrində verilən sual və tapşırıqlar şagirdlərin əldə etdikləri biliklərin yoxlanması funksiyasını daşıyır.

Siz dərsin ikinci saatında şagirdlərin dövlət orqanları haqqında biliklərini bir qədər də dərinləşdirən fəaliyyət reallaşdıra bilərsiniz. Bunun üçün müxtəlif dövlət orqanlarının loqolarını şagirdlərə təqdim etməlisiniz. Lakin əvvəlki dərsdə artıq şagirdlərə bununla bağlı araşdırma aparmalarını tapşırmaq mütləqdir.

**Fəaliyyətin icrası.** Şagirdlərdən əvvəlcədən adları qeyd edilmiş dövlət orqanları ilə bağlı müəyyən araşdırma aparılmasını istəyin. Onların loqolarına baxmalarını və yadda saxlamalarını tapşırın. Fəaliyyət qrup şəklində yerinə yetirilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Azərbaycan Respublikasının Nazirlər Kabineti

Sizə dövlət orqanlarının simvolları lazım olacaq.

Fəaliyyətin **1-ci addımında** şagirdlərin verilən simvolları iş dəftərlərinə yapışdırmalarını istəyin. **2-ci addımda** bu simvolların hansı dövlət orqanlarına aid olduğu müəyyən edilməlidir. **3-cü addımda** həmin dövlət orqanlarının yerinə yetirdiyi funksiyalar qeyd olunmalıdır. **4-cü addımda** şagirdlər qanunları verən dövlət orqanını müəyyənləşdirməli, **5-ci addımda** qanunların yerinə yetirilməsinə nəzarət edən orqanı müəyyən etməli, **6-cı addımda** isə qanunların pozulması hallarına nəzarət edən orqanı müəyyən etməlidirlər.

Şagirdlərin qiymətləndirilməsi meyar əsasında həyata keçirilir.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Dövlət orqanlarının funksiyalarını izah etməkdə çətinlik çəkir. | Dövlət orqanlarından bəzilərinin funksiyalarını izah edir. | Dövlət orqanlarının funksiyalarını izah edərkən səhvlərə yol verir. | Dövlət orqanlarının funksiyalarını sərbəst şəkildə izah edir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvləri iştirak etdi. | | |
| Təqdimatı təqdim edən fikirlərini aydın ifadə etdi. | | |
| Fəaliyyətin icrasında dəqiqlik var idi. | | |

# 17 Hüquqlarımız

**Standart:** 2.4.1. Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir.
2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.

**Məqsəd:** Uşaq hüquqları haqqında müvafiq sənədlərə əsasən öz hüquqlarını şərh edir.
Müxtəlif situasiyalar zamanı qanun və qaydalara əməl edir.

Motivasiyanı qurmaq üçün dərsliyin 77-ci bəndindəki son tapşırıqdan istifadə edə bilərsiniz. Energetik içkilərin uşaqlara satılmasının qanunla qadağan edildiyini bildirərək bu maddənin oxunmasını təmin edə bilərsiniz. Daha sonra dövlətin yalnız bu məsələ ilə bağlı deyil, bir çox məsələlərdə uşaqların hüququnu qoruduğu qənaətinə gəlməlisiniz.

Tədqiqat "Uşaqların başqa hansı hüquqları vardır? Bu hüquqlar hansı sənədlərlə tənzimlənir?" sualı əsasında aparılır.

Tədqiqatın aparılması mərhələsində fasiləli oxu üsulundan yararlanmağınız mümkündür. Bu zaman şagirdlər dərsliyin 75-ci səhifəsində olan mətni fasilələrlə oxuya bilərlər. İNSERT üsulundan da istifadə edə bilərsiniz. Bu zaman şagirdlər mətni fərdi və yaxud da cütlər şəklində oxuyub müvafiq qeydlər aparmalıdırlar. Bu zaman verilən məlumatın onlara tanış olub-olmadığını, əvvəllər bildiyini inkar edib-etmədiyini, məlumatların nə dərəcədə yeni olub-olmadığını, bu mövzuda əlavə məlumat almaq istəyib-istəmədiyini qeyd edir.

İstər fasiləli oxu, istərsə də İNSERT üsulundan istifadədən sonra məlumatın müzakirəsinə yer verməlisiniz. Şagirdlər dilindən, dinindən, cinsindən asılı olmayaraq, insan hüquqlarının hamıya şamil edildiyini, uşaqların öz hüquqları olduğunu və Azərbaycanda uşaq hüquqlarının qorunması ilə bağlı "Uşaq hüquqları haqqında" Qanunun mövcudluğunu bilməlidirlər. Qanun uşaqlara valideynlərlə birlikdə və onların qayğısı altında, normal şəraitdə yaşamaq hüququ verdiyi, uşaqların təhsil almaq, sağlam böyümək, istirahət etmək və s.

hüquqları olduğu, dövlətin bu şəraiti təmin etməyi, bunun üçün tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürdüyü qeyd edilməlidir.

Qanun, hüquq və vəzifə anlayışları arasında əlaqə sxemi qurmaqla, şaxələndirmə üsulundan istifadə etməklə də motivasiya yarada bilərsiniz. Bu anlayışlar şagirdlərə ötən illərdən də tanışdır. Onlar arasında əlaqəni göstərmək üçün bu sxemdən yararlanmaq olar.




Qanunların dövlət tərəfindən yaradıldığı, hüquqların dövlət tərəfindən qorunduğu və vəzifələrin də dövlətin verdiyi qanunlarda müəyyən edildiyi şagirdlərə bu sxem nəticəsində asanlıqla izah edilə bilər. Məsələn, "Uşaq hüquqları haqqında" Qanunda hüquqlardan başqa, vəzifələrin də müəyyən edildiyini, uşaqların əsas vəzifələrinin cəmiyyətdə davranış qaydalarına əməl etmək, dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, öz xalqının və başqa xalqların ənənələrinə, mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq olduğunu sxemi davam etdirərək qruplaşdırmaq da olar.

Dövlətimizə bütün dünya uşaqlarının hüquqlarının qorunmasından bəhs edən Uşaq hüquqları haqqında Konvensiyaya imza atdığı qeyd edilməli, bu sənədin bəzi dünya ölkələrində kiçik yaşlarından işləməyə məcbur olan, təhsildən kənarda qalan, hətta aclıq çəkən uşaqların hüquqlarını qorumaq məqsədilə qəbul edildiyi xüsusi olaraq vurğulanmalıdır. Mətn əsasında lövhədə Venn diaqramı da qurula bilər.

2.4.1. məzmun standartının tələbinə uyğun olaraq müxtəlif situasiyalarla bağlı səhnələşdirmə və yaxud rollu oyun üsullarından istifadə etmək məqsədəuyğundur. Elə bir situasiya yaradın ki, şagird bu zaman hansısa qaydalara əməl etmiş olsun.

Növbəti dərs saatında şagirdlər dərsliyin 75-ci səhifəsində təqdim edilən fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Şagirdlər mətnlə tanış olduqdan sonra onlara dərslikdə verilmiş şəkilləri təqdim edin. Şəkillərdə nələrin təsvir edildiyini birlikdə müəyyənləşdirin. Daha sonra şagirdlərdən təsvir edilənlərin hansında uşaq hüquqlarının və hansı hüquqların qoruduğunu, hansında isə pozulduğunu müəyyən etmələrini istəyin.

Fəaliyyət qruplarla icra edilə bilər. Fəaliyyətin gedişatı dərslikdə addımlarla təqdim edilib. Bunu izləməklə reallaşdırılması daha asan olacaq. Şagirdlərin təsvir edilən hüquqlarla bağlı hansı qanunda müddəalar olduğunu yaza bilməsi üçün onların xüsusi araşdırma aparmalarını istəyə bilərsiniz. Lakin dərslikdəki mətnlə tanışlıq belə bunun üçün yetərli olacaqdır.

**Qiymətləndirmə meyarı**: şərhetmə, tətbiqetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Uşaq hüquqları haqqında müvafiq sənədlərə əsasən öz hüquqlarını şərh etməkdə çətinlik çəkir. | Uşaq hüquqları haqqında müvafiq sənədlərə əsasən öz hüquqlarını şərh edərkən səhvlərə yol verir. | Uşaq hüquqları haqqında müvafiq sənədlərə əsasən öz hüquqlarını şərh edərkən fikrini əsaslandırmır. | Uşaq hüquqları haqqında müvafiq sənədlərə əsasən öz hüquqlarını nümunələrlə şərh edir. |
| Müvafiq situasiyalarda əməl olunmalı qayda və qanunları tam bilmir. | Uşaq hüquqları haqqında qanunun olduğunu bilir, situasiyaya uyğun qərar verə bilmir. | Müvafiq situasiyalarda müəllimin istiqamətinə əsaslanmaqla qayda və qanunlara əməl edir. | Müvafiq situasiyalara uyğun qayda və qanuna əməl edir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Fəaliyyətin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Fəaliyyət əsasında düzgün nəticənin əldə olunması | | |

# 18 Dövlət büdcəsi

**Standart:** 2.2.2. “Vergi”, “Dövlət büdcəsi” və “sığorta” anlayışlarını sadə şəkildə izah edir.

2.2.1. “Qənaət” və “israf” anlayışlarını müqayisə edir.

**Məqsəd:** “Vergi”, “Dövlət büdcəsi” və “sığorta” anlayışlarını izah edir. “Qənaət” və “israf” anlayışlarını müqayisə edir.

Şagirdlər ailə büdcəsi haqqında müəyyən məlumatlara malik olduğundan siz motivasiyanı ailə büdcəsi və dövlət büdcəsi anlayışları ilə bağlı sxem qurmaqla başlaya bilərsiniz. Bu məqsədlə lövhədə ailə büdcəsi yazaraq şagirdlərlə birlikdə bu cədvəli tamamlayın.




Şagirdləri tədqiqata cəlb etmək üçün “Dövlət büdcəsi nədir? Necə formalaşır? Nəyə sərf olunur?” tədqiqat sualı ətrafında araşdırma aparılır: Və cədvəlin ikinci sütunu təxminən aşağıdakı kimi (şagirdlərə yönəldici suallar verməklə) formalaşdırılır.

Sxem üzrə bir qədər də şaxələndirmə apara, dövlət gəlirlərinin və xərclərinin siyahısını artıra bilərsiniz. Əsas odur ki, şagirdlər ailə büdcəsinin ailə üzvlərinin gəlirlərindən və xərc-

lərindən ibarət olduğunu bildiyi kimi, dövlət büdcəsinin də hər il müəyyən gəliri və xərcləri olduğunu bilsinlər. Şagirdlərə suallar verməklə, cavablar almaqla dövlətin xərclərinin böyük qisminin təhsil, səhiyyə, mədəniyyət və təhlükəsizliyə sərf edildiyini bildirin. Ölkəmizdə hər il bir çox təhsil və səhiyyə müəssisələrinin tikilməsinə, binaların təmir edilməsinə, yeni avadanlıqların alınmasına, hər il məktəblərdə şagirdlərə pulsuz dərsliklər paylanmasına, dövlət hesabına müxtəlif mədəni tədbirlər, bayramlar, yubileylər keçirilməsinə, son illərdə azad edilən torpaqlarımızda dağıntıların aradan qaldırılması üçün çoxlu işlər görülməsinə dövlət büdcəsindən pul ayrılması faktına şagirdlərin diqqətini çəkmək asan olacaq. Çünki bu proseslərin əksəriyyəti onların gözləri önündə baş verir. Bunun üçün siz son zaman ictimaiyyətin diqqətini çəkən bir sıra quruculuq işlərindən də yararlana bilərsiniz. Məsələn, Qarabağın müxtəlif bölgələrində yeni binaların, məktəblərin, kitabxanaların tikilməsi, yollar çəkilməsi, şəhər və qəsəbələrin yenidən qurulması və s. Daha sonra dövlət büdcəsində də xərclər gəlirdən çox olduqda borc yarana bilər, borc yaranmaması üçün *büdcəyə qənaət etmək, israfa yol verməmək lazımdır* fikrini ifadə edərək şagirləri “Qənaət və israf nədir?” sualı ətrafında müzakirəyə sövq edin.

Müzakirənin sonunda ümumiləşdirmə aparın. Şagirdlərin əldə etdikləri bilikləri tətbiq edə bilmələri üçün 80 və 81-ci səhifələrdə olan suallardan və tapşırıqlardan istifadə edə bilərsiniz.

Ev tapşırığı kimi 81-ci səhifədəki tapşırığı verməyiniz məqsədəuyğundur.

T Dövlət büdcəsindən təhsil sahəsinin inkişafına sərf edilən xərclər haqqında araşdırma aparın. Təhsillə bağlı nələrə dövlət büdcəsindən pul xərcləndiyini qeyd edin.

Siz şagirdlərin təxəyyülünün və yaradıcı təfəkkürünün inkişaf etdirilməsi üçün onlara 80-ci səhifədəki birinci sual əsasında təqdimat hazırlamağı da tapşıra bilərsiniz.

T Ailədə xərcləri azaltmaq üçün hansı təklifləri vermək olar?

Dərsin ikinci saatı fəaliyyətin reallaşdırılmasına sərf edilir.

**Fəaliyyətin icrası**

Şagirdlər ailə və büdcə xərcləri və gəlirləri arasında müqayisəli cədvəl qura bilərlər. Fəaliyyətin bir neçə qrupla reallaşdırılması mümkündür. Hər qrup öz müqayisə cədvəlini quracaq. Bunu şəkillərlə etmək daha maraqlı olar. Fəaliyyət üçün sizə üzərində “atanın maaşı”, “ananın maaşı”, “nənənin təqaüdü”, “babanın təqaüdü”, “bacının təqaüdü”, “təbii ehtiyatların satışı”, “istehsal edilən məhsulların satışı”, “təhsil xərcləri”, “səhiyyə xərcləri”, “mədəniyyət xərcləri”, “su pulu”, “qaz pulu”, “ərzaq pulu”, “işıq pulu”, “geyim pulu” və s. yazılmış kartlar və ya şəkillər paylama materialı kimi verilə bilər. Yaxud siz bu anlayışları lövhədə də qeyd etdirə bilərsiniz.

Fəaliyyətin gedişi addımlarla dərsliyin 79-cu səhifəsində təqdim edilib.

atanın maaşı

nənənin pensiyası

təhsil xərcləri

işıqpulu

qazpulu

səhiyyə xərcləri

təbii ehtiyatların satışı

**Qiymətləndirmə meyarı:** izahetmə, müqayisəetmə

| I | II | III | IV |
|---|---|---|---|
| "Vergi", "dövlət büdcəsi" və "sığorta" anlayışlarını izah etməkdə çətinlik çəkir. | "Vergi", "dövlət büdcəsi" və "sığorta" anlayışlarını izah edərkən səhvlərə yol verir. | "Vergi", "dövlət büdcəsi" və "sığorta" anlayışlarını izah edərkən fikrini əsaslandıra bilmir. | "Vergi", "dövlət büdcəsi" və "sığorta" anlayışlarını nümunələr göstərərək nümunə əsasında izah edir. |
| "Qənaət" və "israf" anlayışlarını müqayisə etməkdə çətinlik çəkir. | "Qənaət" və "israf" anlayışlarını müqayisə edərkən səhvlərə yol verir. | "Qənaət" və "israf" anlayışlarını müqayisə edərkən fikrini əsaslandıra bilmir. | "Qənaət" və "israf" anlayışlarını müqayisə edir. |

Qrupun fəaliyyətini aşağıdakı şəkildə qiymətləndirə bilərsiniz:

| Qrup | Tədqiqatı düzgün apardı | Materialı doğru mənimsəyib | Qrup qarşılıqlı əməkdaşlıq səviyyəsində çalışdı |
|---|---|---|---|
| 1 | + | + | + |
| 2 | | | |
| 3 | | | |
| 4 | | | |
| 5 | | | |

# 19 Pullar

**Standart:** 2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.

**Məqsəd:** Milli pul nişanlarını tanıyır və digər dövlətlərin pul nişanlarını fərqləndirir.

Şagirdlər milli pul nişanlarını ötən illərdən tanıyırlar və haqqında bir sıra biliklərə malikdirlər. Ona görə də motivasiyanı 84-cü səhifədə verilmiş tapşırıq üzərində qura bilərsiniz. Dövlətin əsas əlamətlərindən biri olan pulların hansı dövlətlərə aid olduğunu müəyyənləşdirmələrini istəyin. Bunu elektron lövhədə də nümayiş etdirmək mümkündür.

1



2



Amerika

Avropa

Türkiyə

Azərbaycan

3



4


Siz motivasiyanı “Müasir Azərbaycan manatının tarixi Azərbaycan Demokratik Respublikasının 1919-cu ildə çap etdirdiyi pullarla başlayıb. Müasir Azərbaycan dövlətinin ilk manatı isə 1992-ci ildə dövriyyəyə buraxılıb” məlumatı və o pulun şəkli ilə də qura bilərsiniz. Bu tarixi fakt uşaqlarda marağa səbəb ola bilər. Lakin şagirdlər tədqiqata düzgün yönləndirilməlidir. Tədqiqat “Milli pul nişanları digər dövlətlərin pul nişanlarından necə fərqlənir?” sualı əsasında aparılır.

Tədqiaqatı fasiləli oxu üsulu üzərində qura bilərsiniz. Bunun üçün şagirdlər dərsliyin 82-ci səhifəsində olan mətni fasilə ilə oxumalıdırlar. Şagirdlər pulların xüsusi kağızdan və metaldan hazırlandığını, kağız pula **əsginas**, metal pula **sikkə** deyildiyini, pulun üzərində aid olduğu ölkə ilə bağlı müxtəlif əlamətlər və simvollar təsvir edildiyini bilməlidirlər. Bundan başqa, hər bir dövlətin öz pul vahidi olduğu xüsusi vurğulanmalı, şagirdlərin hansı pulları tanıdıqları soruşulmalıdır. Mütləq “lirə”, “dollar”, “rubl” anlayışlarını alacaqsınız.

Müzakirəni “Sizcə, pulları necə fərqləndirmək olar?” sualı ətrafında davam etdirə bilərsiniz. Bunun üçün şagirdlərin Azərbaycan manatlarını mövzu üzrə qruplaşdırmasını da istəyə bilərsiniz. Məsələn, dərsliyin 84-cü səhifəsində verilən mətni oxuduqdan sonra onlar mövzu əsasında qruplaşdırmanı apara bilərlər. Yaxud bunu dərsliyin 85-ci səhifəsində verilən tapşırıqlar əsasında da edə bilərsiniz. Şagirdlər müxtəlif mövzulara həsr edilən əsginasları uyğunlaşdırmalıdırlar.

T Uyğunluğu müəyyən edin.

| Mövzular | Manat |
|---|---|
| 1. mədəniyyət | 10 |
| 2. yazı və ədəbiyyat | 1 |
| 3. tarix | 5 |
| 4. Qarabağ | 20 |
| 5. təhsil və gələcək | 50 |
| 6. iqtisadiyyat və inkişaf | 100 |

Dərsliyin 84 və 85-ci səhifələrində verilən sual və tapşırıqlar şagirdlərin biliklərinin yoxlanması üçün nəzərdə tutulub. Dərsliyin 85-ci səhifəsində verilən bu tapşırığı ev tapşırığı kimi verə, təqdimat hazırlamalarını istəyə bilərsiniz.

T Azərbaycan qəpiklərinin üzərində verilən simvollar haqqında məlumat toplayın və təqdimat hazırlayın.

Dərsliyin 83-cü səhifəsində verilən fəaliyyət ikinci dərs saatını da nəzərdə tutur.

**Fəaliyyətin gedişi**

Şagirdlərdən əvvəlcədən müxtəlif ölkələrin pullarının simvolları və Azərbaycan manatına məzənnəsi haqqında məlumat toplamalarını istəyin. Əvvəlki dərs – büdcə dərsi keçilən zaman bu tapşırığı artıq verə bilərsiniz. Layihə zamanı şagirdər qrup halında işləyə bilərlər. Hər qrupa bir ölkənin pul simvolunu da tapşırmaq olar.

Fəaliyyətin gedişi addım-addım dərsliyin 83-cü səhifəsində təqdim edilmişdir.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I | II | III | IV |
|---|---|---|---|
| Milli pul nişanlarını digər dövlətlərin pul nişanlarından fərqləndirməkdə çətinlik çəkir. | Milli pul nişanlarını digər dövlətlərin pul nişanlarından fərqləndirərkən səhvlərə yol verir. | Milli pul nişanlarını digər dövlətlərin pul nişanlarından fərqləndirərkən fikrini izah edə bilmir. | Milli pul nişanlarını tanıyır və digər dövlətlərin pul nişanlarından sərbəst fərqləndirir. |

Layihəni aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Layihənin icrasında ardıcıllıq və sistemliliyin gözlənilməsi | | |
| Layihə əsasında düzgün nəticənin alınması | | |

# 20 Fövqəladə hallar və nişanlar

**Standart:** 4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyatı üçün təhlükə mənbələrini fərqləndirir.

4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

**Məqsəd:** Müvafiq nişanlara görə təhlükə mənbələrini fərqləndirir.

Fövqəladə halların nəticələrinə dair təqdimat edir.

Motivasiyanı müxtəlif yollarla yaratmaq mümkündür.

1. Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

— Fövqəladə hallara nələr aiddir?
— Onları necə qruplaşdırmaq olar?
— Bu hallar nə ilə nəticələnir?

2. Şaxələndirmə üsulundan istifadə etməklə:




3. Şagirdlərə aşağıdakı mətn oxunulmaqla suallarla müraciət edə bilərsiniz:

*2023-cü ildə yay aylarında Azərbaycan ərzisində hava şəraiti sabit olmayıb. Şimşək çaxıb, leysan xarakterli yağışlar yağıb, bəzi yerlərdə dolu düşüb. Yağan*

*leysan yağışları nəticəsində bir sıra rayonlarımızın, kəndlərimizin ərazisindən axan çaylardan sel keçib.*

– Dinlədiyiniz mətndə hansı fövqəladə haldan bəhs edilir? Bu hadisəyə səbəb nədir? Başqa hansı hallar fövqəladə hadisə hesab edilir?

Motivasiyanın yaradılma formasından asılı olmayaraq, tədqiqat "Həyat üçün təhlükə mənbələrini hansı nişanlara görə müəyyən etmək olar?", "Fövqəladə hadisələr nələrə səbəb olur?" sualları ətrafında aparılır. Bu mərhələdə şagirdlər müəyyən fərziyyələr irəli sürəcəklər. Bu fərziyyələrə dərsin sonunda qayıdılmalıdır.

Tədqiqata başlamazdan öncə şagirdlərə elektron təqdimat nümayiş etdirmək olar. Bu tədqimatda dünyada, eləcə də ölkə ərazisində ən çox baş verən fövqəladə hadisələr (sel, daşqın, zəlzələ, meşə yanğınları, torpaq sürüşməsi və s.) haqqında videoçarx nümayiş etdirilsə, bu, şagirdlər tərəfindən maraqla qarşılanar. Eyni zamanda şagirdlərə bu dərs saatında yüksək gərginlik, minalanmış sahə, radiasiya təhlükəsi, yanğın təhlükəsi və s. nişanları tanıtmaq və bu nişanların tələbinə əməl etməyin həyat üçün nə qədər vacib olduğunu aşılamaq lazımdır. Sonda şagirdlər bu nişanlara görə həyat üçün təhlükə mənbələrini fərqləndirməyi bacarmalı, fövqəladə halların nəticələrinin insan üçün ürəkaçan olmadığını bilməli və bunları özündə əks etdirən təqdimat hazırlamalıdır.

Mətnlə tanışlıq üçün şagirdlər mətn üzərində iş aparmalıdırlar. Bu oxu strategiyalı oxu olmalıdır. Bu zaman İNSERT, fasiləli oxu üsulundan istifadə etməklə şagirdlərin şüurlu oxusunu təşkil etmək olar. Və yaxud şagirdlərə elə bir tapşırıq verilməlidir ki, onlar dərslikdə verilən mətndən istifadə etməklə onu yerinə yetirsinlər. Məsələn: Şagirdlər dərslikdəki mətndən və paylama materialından (təhlükəsizlik nişanlarının şəkilləri) istifadə edərək ölkə ərazisində baş verən bir fövqəladə hadisənin nəticəsinə dair cədvəli tamamlaya bilərlər.

**Tapşırıq 1.**

Verilən nişanlar içərisindən "torpaq sürüşməsini" əks etdirən nişanı seçin. Aşağıdakı cədvəli tamamlayın.

| Torpaq sürüşməsi (nişanı) | Səbəbi | Nəticə |
|---|---|---|
| yapışdır | | |

**Tapşırıq 2.**

Verilən nişanlar içərisindən radiasiya ilə bağlı olan nişanı seçin. Aşağıdakı cədvəli tamamlayın.

| Nişan | Səbəb | Nəticə |
|---|---|---|
| yapışdır | | |

**Tapşırıq 3.**

Verilən mətndən səhv fikirləri seçin, düzü ilə əvəz edin.

- Otaqda yanan maddələrin olmasını  xəbər verən lövhələr düzbucaqlı şəklindədir.
- Zəlzələ, sel, daşqın texnogen qəzalara aiddir.
- Üzərində kəllə və kəsişən sümük işarəsi olan nişan partlayış təhlükəsindən xəbər verir.
- Mərkəzində yanan ocaq şəkli olan nişanlar zəhərli maddələrin olduğunu göstərir.
- Müasir dövrdə ən təhlükəli qəza zəlzələdir.

**Tapşırıq 4.**

Mətni araşdırmaqla verilən nişanın nəyi əks etdirdiyini müəyyən edin. Bu fövqəladə hadisənin baş verəcəyi halda nəticələri haqqında yazın.



Tapşırıqlar yekunlaşdıqdan sonra məlumatın mübadiləsi, müzakirəsi təşkil edilməli, şagirdlərə müzakirə sualları verilməlidir. Tapşırıqları şagirdlərə təqdim edərkən onları resurslarla təmin etmək mütləqdir (yapışqan, nişanların şəkilləri, paylama materialı).

Ümumiləşdirmə və nəticə mərhələsində tədqiqat sualına qayıtmalı və işlərin nəticələri ümumiləşdirilməlidir. Bu mərhələdə lövhədə klaster qurmaq məqsədəuyğundur. Şagirdlərin toxunmadığı və yaxud geniş işıqlandırmadıqları məqamlar üzərində dayanmaq, videoçarx, şəkil nümayiş etdirmək zəruridir.

Yaradıcı tətbiqetmə mərhələsində dərsliyin 88-ci səhifəsində 4, 5, 6-cı tapşırıqlar yerinə yetirilməli, 1, 2, 3-cü tapşırıqlar kollektivdə müzakirə olunmalıdır. Səhifə 89, tapşırıq 1 ev tapşırığı verilə bilər.

2-ci dərs saatında fəaliyyət həyata keçirilir.

**Fəaliyyətin icrası**

Fəaliyyət qrup halında həyata keçirilir. Fəaliyyət zamanı qadağan nişanları ilə təhlükəsizlik nişanlarını bir-birindən fəqləndirmək və mənalarını oxumaq vərdişləri aşılanır. Şagirdlərdən əvvəlcə 3-cü sinif Həyat bilgisi dərsliyindəki “Nişanlar” dərsindən əldə edikləri bilikləri xatırlamalarını istəyin. Onlar artıq qadağan nişanlarının qırmızı rəngdə olduğunu bilirlər. Təhlükəsizlik nişanlarının sarı rəngdə olması ilə bağlı isə mətndə məlumat verilib.

Bu məlumata əsaslanaraq qruplar nişanları seçir, bəzi nişanların mənaları haqqında dərslikdə verilən yazılı mətn əsasında, bəziləri haqqında keçən ilki biliklər əsasında, bəziləri haqqında isə məntiqlərini və təxəyyüllərini hərəkətə keçirərək nəticə çıxarmaqla yazacaqlar.




Əgər fəaliyyəti qrup halında reallaşdıracaqsınızsa, **1-ci addımda** təhlükəsizlik nişanlarını seçməli və iş vərəqinə yapışdırmalı, **2-ci addım**da təhlükəsizlik nişanlarını digər nişanlardan fərqləndirən əsas xüsusiyyəti qeyd etməlidirlər. **3-cü addımda** hər birinin mənasını nişanların yanında yazmalıdırlar. **4-cü addımda** qadağan nişanlarını seçməli və iş vərəqinə yapışdırmalı, **5-ci addım**da qadağan nişanlarını digər nişanlardan fərqləndirən əsas xüsusiyyətini qeyd etməli, **6-cı addımda** isə bu nişanların hər birinin mənasını nişanların yanında yazmalıdırlar.

Siz bu fəaliyyətin iki qrup şəklində də reallaşdırılmasına nail ola bilərsiniz. Belə ki bu zaman qruplardan biri təhlükəsizlik nişanlarını, digəri isə qadağan nişanları seçməli və mənalarını yazmalıdırlar.

Dərslikdə səhifə 89-da 2 və 3-cü tapşırıq bu dərs müddətində yerinə yetirilir.

**Qiymətləndirmə meyarı:**
- fərqləndirmə
- təqdimetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Müvafiq nişanlara görə təhlükə mənbələrini fərqləndirməkdə çətinlik çəkir. | Müvafiq nişanlara görə təhlükə mənbələrini fərqləndirərkən səhvlərə yol verir. | Müvafiq nişanlara görə təhlükə mənbələrini fərqləndirərkən müəllimin dəstəyindən istifadə edir. | Müvafiq nişanlara görə təhlükə mənbələrini sərbəst şəkildə fərqləndirir. |
| Təqdimetmədə bütün məlumatlar öz əksini tapmır. | Təqdimetmədə nəzəri cəhətdən səhvlər vardır. | Təqdimetməsi sistemsizdir. | Nümunələr əsasında ardıcıl və sistemli təqdimat edir. |

# 21 Fövqəladə hallarda davranış qaydaları

**Standart:** 4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

**Məqsəd:** Fövqəladə hallarda davranış qaydalarına dair kiçik təqdimatlar edir.

Şagirdlərdə mövzu ilə bağlı idraki fəallığın yaradılması müxtəlif cür aparıla bilər:

1. Fikirləri tamamlayın: (*Şagirdlər 3-cü sinif Həyat bilgisi fənnindən əldə etdikləri biliklər əsasında fikirləri tamamlamalıdırlar.*)

- torpaq sürüşməsinin qarşısını almaq üçün________________________
- daşqınları yönləndirmək üçün ________________________

Şagirdlər fikirləri tamamladıqdan sonra qeyd olunur ki, həm təbii fəlakətlər, həm də texnogen qəzalar zamanı ən vacib olan hərəkət qaydalarına uyğun davranmaqdır.

2. Şagirdlərə aşağıdakı sualla müraciət edə bilərsiniz:

– Azərbaycan ərazisində, əsasən, hansı təbii fəlakətlərin baş verdiyini bilirsiniz?

Şagirdlərin sadaladıqları hadisələrin adları lövhəyə yazılır və növbəti sual verilir.

– Bu hadisələr nə ilə nəticələnir?

Qeyd olunan fikirlər də müvafiq hadisənin qarşısında yazılır və tədqiqat sualı formalaşdırılır.

2. Şagirdlərə aşağıdakı sualla müraciət edə bilərsiniz:

– Təbii fəlakətlər insanlara necə ziyan vura bilər?

Şagirdlərin sadaladıqları fikirlər lövhəyə yazılır və tədqiqat sualı formalaşdırılır.

3. Lövhədə üzərində “zəlzələ”, “yanğın”, “sel” yazılmış flipçartlar asılır. Şagirdlərə rəngli stikerlər paylanılır və onlara tapşırılır ki, bu hadisələrin nəticələri ilə bağlı öz fikirlərini yazıb müvafiq flipçarta yapışdırsınlar.

Tədqiqat “Fövqəladə hallar zamanı hansı davranış qaydalarına əməl olunmalıdır?” sualı ətrafında aparılır.

Tədqiqat, ilk növbədə, dərslikdəki mətn üzərində işin aparılmasıdır. Bunun üçün strategiyalı oxunun müxtəlif üsullarından istifadə oluna bilər. Bu zaman şagirdlər oxuduqları materiallar üzərində düşünür, məqsədə çatıb-çatmadıqları haqqında qərarlar qəbul edir, tapşırığı yerinə yetirir, əldə edilmiş yeni bilikləri mövcud biliklərlə əlaqələndirirlər. Məsələn: *Müqayisə/Qarşılaşdırma* üsulu. Bu strategiyanı mövzunun içindəki məlumatları müqayisə və qarşılaşdırma məqsədilə istifadə etmək olar.

Müqayisə olunacaq hadisələr: *zəlzələ, nüvə partlayışı, yanğın*

Müqayisə olunacaq cəhətlər: *fərqli və oxşar cəhətlər qeyd olunmaqla*

Mətnin araşdırılmasından sonra müzakirə təşkil olunaraq şagirdlərə əlavə paylama materialı və eyni zamanda da şəkillər verilir. Şagirdlər səhifə 93-dəki sonuncu 2 tapşırığa əsasən (başqa mövzular da verilə bilər) qruplarda təqdimat hazırlayırlar. Qrupların sayı çox olmamalıdır ki, təqdimata uzun zaman sərf olunmasın. Şagirdlərin Azərbaycanın təbiəti üçün aktual olan təbii fəlakətlər haqqında təqdimatlar hazırlamaları məqsədilə onlara istiqamət verə bilərsiniz. Onlar torpaq sürüşməsi, sel, daşqın barədə təqdimat hazırlaya bilərlər. Təqdimatda dərslikdəki məlumatlara da istinad olunmalıdır.

Ev tapşırığı kimi səh. 92-dəki “Nə üçün hər bir ailənin fövqəladə hallara hazırlıq planı olmalıdır? Sizin ailənizdə belə bir plan varmı? Bu planda nələr nəzərdə tutulur? Ailə üzvlərinizlə bu barədə söhbət edin və plan hazırlayın” tapşırığını verib növbəti dərs saatında müzakirəsini təşkil etmək mütləqdir.

Təqdimatı aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

2-ci dərs saatında layihənin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Fəaliyyətin icrası qrupla həyata keçirilməlidir. Fəaliyyətin icra edilməsi üçün dərslikdə fövqəladə hallar zamanı davranışları əks etdirən müxtəlif şəkillər təqdim edilibdir. 1-ci addımda şagirdlərdən yanğın zamanı davranış qaydasına aid olan şəkillərin seçilməsini istəyin. 2-ci addımda bu davranışın səbəbini yazmalarını tapşırın. 3-cü addımda şagirdlər zəlzələ zamanı davranış qaydalarını əks etdirən şəkilləri seçməlidirlər. 4-cü addımda bu davranışın səbəbləri yazılmalıdır. 5-ci addımda kimyəvi zəhərlənmə zamanı davranış qaydasını əks etdirən şəkilləri seçən şagirdlər 6-cı addımda bu davranışın səbəblərini qeyd etməlidirlər. Onu da qeyd edək ki, fəaliyyətin addımları o, bir qrupla həyata keçirildiyi zaman üçün nəzərdə tutulub.

Siz fəaliyyəti 3 qrupla reallaşdıra bilərsiniz. Bu zaman şagirdlərin bir qrupu yanğın, ikincisi zəlzələ, üçüncüsü isə kimyəvi zəhərlənmə ilə bağlı davranış qaydalarını təsvir edən şəkilləri seçərək onların səbəblərini izah etməli olacaqlar.

Fəaliyyəti aşağıdakı meyarla dəyərləndirə bilərsiniz:

| Meyarlar | Hə | YOX |
|---|---|---|
| Təqdimatda mövzunun tam əhatə olunması | | |
| Təqdimatın düzgünlüyü | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |
| Təqdimatçının verilmiş zaman çərçivəsində təqdimatını tamamlaması | | |

# 22 Planın çəkilməsi

**Standart:** 1.2.3. Yaşadığı ərazinin, məhəllənin planını çəkir.

**Məqsəd:** Yaşadığı ərazinin, məhəllənin planını çəkir.

Məzmun standartı şagirdlərdən tam olaraq praktik bacarıq nümayiş etdirməyi tələb edir. Bu səbəbdən də mövzunun tədrisi elə təşkil olunmalıdır ki, şagirdlər standartın tələbini yerinə yetirə bilsinlər, yəni sonda yaşadıqları ərazinin, məktəbin planını tərtib etsinlər.

Şagirdlərdə mövzu ilə bağlı idraki fəallığın yaradılması müxtəlif cür aparıla bilər:

1. Aşağı sinifdən şagirdlər planın çəkilməsi, insanların getdikləri, axtardıqları yeri daha asan tapmaları üçün plandan istifadə olunduğunu bilirlər. Bunu şagirdlərə xatırlatmaqla şagirdlərdə idraki fəallıq yaratmaq olar. Bu məqsədlə aşağıdakı sualla şagirdlərə müraciət edilir:

– Gedəcəyiniz yeri daha asan tapmaq üçün nədən istifadə olunur?
– Plan bizə nə haqda məlumat verir?
– Planın oxuna bilməsi üçün əşyaları necə qeyd etdiniz?
– Ölçü götürərkən əşyaların ölçüsü necə müəyyənləşdirilir?

2. Elektron lövhədə bir şəkil və bir plan nümayiş etdirilərək sinfə aşağıdakı sualla müraciət olunur:

– Verilənlər arasındakı oxşar və fərqli cəhət nədən ibarətdir?

3. Şagirdlər aşağı sinifdən planın oxunmasını, şərti işarələri bildikləri üçün elektron lövhədə mənzilin planı nümayiş etdirilərək bu planı oxumaq tapşırılır (bu məqsədlə mövzunun sonundakı tapşırıqda verilən plandan da istifadə etmək mümkündür). Motivasiya kollektivlə həyata keçirilir. Məqsəd ondan ibarətdir ki, şagirdlər planı oxuyursa, deməli, çəkilmə qaydalarını bilir. Və buna əsasən yaşadığı ərazinin, məhəllənin planını çəkə biləcək.



325 sq ft

Mətnin oxunması İNSERT üsulu ilə təşkil oluna bilər. Bu zaman şagirdlər mövzunu sərbəst oxumaqla təhlil edəcək. Sualları yaranarsa, onlar əsasında kiçik müzakirə təşkil olunacaq. Şagirdlər bilməlidirlər ki, planda evin, şəhərin, məhəllənin yuxarıdan görünüşü verilir. Binanın planında mənzillər, onların yerləşməsi, çıxış yerləri, məhəllə planında isə evlər, küçələr və obyektlərin yeri gostərilir.

Sonrakı mərhələdə şagirdlərə qrup tapşırığı verilir. Qrup tapşırığı bir məhəllənin planının tərtib olunmasıdır. Bunun üçün şagirdləri 4-5 qrupa ayırıb hər qrupa ərazidəki bir obyektin planını tərtib etmək tapşırılır. Elektron lövhədə ərazinin tam şəkli verilir. Şagirdlər bütün dərs boyunca bu şəklə baxmaq imkanına malik olmalıdırlar. Əməkdaşlıq üçün zəruri olan qrupların işinin bir-birindən asılı olmasıdır. Sonda ayrı-ayrı qrupların hazırladığı işlər bir yerə toplanır və bir ərazinin planı hazırlanmış olur.

Dərsin sonunda, ümumiləşdirmə nəticə mərhələsində səh 96-da olan 1–5-ci tapşırıqlar kollektivlə yerinə yetirilir.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Fəaliyyətin icrası üçün şagirdlər qruplara ayrılır. Onlara kitabda verilən şəkillər təqdim edilir və bu şəkillər əsasında məhəllənin və binanın planının çəkilməsi tapşırılır.

**Qiymətləndirmə meyarı:** tətbiqetmə

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Yaşadığı ərazinin, məhəllənin planını çəkməkdə çətinlik çəkir. | Yaşadığı ərazinin, məhəllənin planını çəkərkən ölçüləri düzgün müəyyənləşdirə bilmir. | Yaşadığı ərazinin, məhəllənin planını qaydalara uyğun sərbəst çəkir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Layihənin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Layihə əsasında düzgün nəticənin əldə olunması | | |

# 23 İlk tibbi yardım

**Standart:** 4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.

**Məqsəd:** Müxtəlif qəzalar zamanı göstərilən ilkin yardım barədə fikirlərini şərh edir.

Süni yaradılmış ekstremal vəziyyətlərdə tibbi yardım bacarıqları nümayiş etdirir.

Mövzu üzrə reallaşdırılan 4.3.2. və 4.3.3. məzmun standartları şagirdlərdə həm nəzəri, həm də praktik bacarıqların formalaşmasını tələb edir. Bu dərs saatında çalışılmalıdır ki, şagird qəza zamanı hansı ilkin yardımın edilməli olduğunu şərh etməklə yanaşı, hansısa süni yaradılmış bir situasiyada bu bacarıqları nümayiş etdirmiş olsun. Bu məzmunda dərslərin qurulması zamanı məktəbin həkiminin, çağırışaqədər hazırlıq fənn müəllimlərinin dərsə dəvət olunması təlim nəticəsinə nail olunmasına, dərsin inteqrativliyinə, şagirdlər üçün maraqlı alınmasına imkan verməklə yanaşı, onlarda həyati bacarıqların formalaşdırılmasına imkan verəcəkdir. Standartda süni yaradılmış ekstremal vəziyyətlərdə tibbi yardımın göstərilməsi nəzərdə tutulduğu üçün rollu oyun, səhnələşdirmə təlim üsullarından istifadə edə bilərsiniz.

**QEYD:** dərsin sonunda sinif üçün ilk tibbi yardım çantasının hazırlanması zamanı lazımı avadanlıqlar təmin olunmalıdır.

Şagirdlərdə mövzu ilə bağlı idraki fəallığın yaradılması müxtəlif cür aparıla bilər:

1. Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə aşağıdakı sualla müraciət olunur:

– Təbii fəlakətlər insanlara necə ziyan vura bilər?

Şagirdlər aşağı sinifdən öyrəndikləri, həyatdakı müşahidələri əsasında sualı cavablandırmalıdırlar. Şagirdlərin cavablarını lövhədə qeyd edərək sağlamlığa ziyanı üzərində dayanmalı və tədqiqat sualı ətrafında araşdırmaya davam edilməlidir.

2. Elektron lövhədə aşağıdakı şəkilləri nümayiş etdirməklə şagirdlərə sualla müraciət olunur: Gördüyünüz hallar zamanı insan sağlamlığı üçün hansı təhlükələr yarana bilər?















3. BİBÖ üsulundan da istifadə etmək mümkündür. Bu zaman lövhədə BİBÖ cədvəli qurulur və cədvəl aşağıdakı kimi tamamlanır:

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| – avtobusdan istifadə zamanı ayaq üstə durarkən tutacaqlardan tutmalı.<br>– əli, başı hərəkət edən avtobusun pəncərəsindən çıxarmamalı və s. | | |

Tədqiqat “Müxtəlif qəzalar zamanı insanlara necə ilkin yardım göstərilməlidir?” sualı ətrafında aparılmalıdır.

Tədqiqata başlamazdan öncə müəllimin kiçik dialoji mühazirəsi olmalıdır. Bu zaman elektron təqdimatdan, videoçarxdan istifadə edilməsi zəruridir. Dərslikdəki mətnlə tanışlığı elektron təqdimat üzərində qurmaq olar. Bu zaman verilən hər yeni informasiya ilə bağlı dərslikdəki tapşırıq nümunələrinə istinad etmək zəruridir. Məsələn, mətndə yanıqlarla bağlı hissənin müzakirəsi zamanı dərslikdə səh. 101-də 3-cü tapşırıq (yanıq yarası suyun altına tutulmalıdır, sizcə, bu nə üçündür?).

Şagirdlərin maarifləndirilməsi və məzmun standartının tələbinin tam reallaşdırılması məqsədilə onlara müxtəlif situasiyalar yazılmış iş vərəqi paylamaq mümkündür. Şagirdlər bunun üçün qruplara bölünməli və səhnələşdirmə üsulu ilə verilən situasiyanı səhnələşdirməlidirlər. Bu situasiyalarda məişətdə baş verən qəzalar və yaxud da təbii qəzaların olması

qədər müxtəlif ilkin yardım bacarıqlarının olmasına diqqət edilməlidir (qanaxma, yanıqlar, sınıq, əzik və s.). Dərsdə məktəbin həkiminin və çağırışaqədər hazırlıq müəlliminin də dəvət olunaraq bu qaydalara nə dərəcədə əməl olunduğuna nəzarət etməsi məqsədəuyğundur.

Ev tapşırığı olaraq səhifə 101-də 2 və 4-cü tapşırıqlar verilməlidir. Bu tapşırıqlar araşdırma tələb edir. Bu tapşırığın nəticələrindən şagirdlər növbəti dərs saatında layihənin işlənməsi zamanı yararlanacaqlar.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Fəaliyyətin icrası 99-cu səhifədə addım-addım təqdim edilibdir. Bunun üçün siz şagirdləri qruplara bölməlisiniz. Qruplardan biri yanıq, ikincisi sınıq, üçüncüsü isə kəsiklər zamanı ilk tibbi yardım göstərmək üçün lazım olan vasitələri müəyyənləşdirəcəkdir. Daha sonra sınıq (yanıq, kəsik) baş veribmiş kimi hər hansı bir qrup üzvünün üzərində ilk tibbi yardımın göstərilməsi təmin olunmalıdır. Şagirdlərin dərsliyin 98-ci səhifəsində verilən mətndən və informasiyalardan yararlanmasını da təmin etmək lazımdır.

**Qiymətləndirmə meyarı:** izahetmə, tətbiqetmə

| I | II | III | IV |
|---|---|---|---|
| İlkin tibbi yardım barədə biliklərini şərh etməkdə çətinlik çəkir. | İlkin tibbi yardım barədə biliklərini şərh edərkən səhvlərə yol verir. | İlkin tibbi yardım barədə biliklərini şərh edərkən fikrini əsaslandırmır. | İlkin tibbi yardım barədə biliklərini müxtəlif situasiyalara uyğun şərh edir. |
| İlkin tibbi yardım qaydalarını sadalayır, bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Situasiyaya uyğun ilkin yardım göstərməkdə çətinlik çəkir. | Müxtəlif qəzalar zamanı ilkin yardım göstərir, lakin bəzən səhvlərə yol verir. | Situasiyaya uyğun ilkin yardım göstərir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Fəaliyyətin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Fəaliyyət əsasında düzgün nəticənin əldə olunması | | |

# 24 Yol hərəkəti qaydaları

**Standart:** 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.

4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir.

**Məqsəd:** Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrindən istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.

Müxtəlif nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edir.

Mövzu üzrə reallaşdırılmalı olan məzmun standartları təqdimatın hazırlanmasını, eyni zamanda praktik bacarıqların reallaşdırılmasını tələb edir. 4.2.4. məzmun standartının tələbini nəzərə almaq üçün səhnələşdirmə və rollu oyun üsullarından istifadə etmək və yaxud “Nəqliyyatda hansı qaydalara əməl edirəm?” mövzusunda esse yazdırmaq məqsədəuyğundur.

Şagirdlərdə mövzu üzrə rəmzi, sual verməyə həvəsləndirmə, problemin müxtəlif yollarla həlli üsullarının hər hansı birindən istifadə etməklə uğurlu motivasiya yaratmaq olar.

1. Elektron lövhədə aşağıdakı şəkillər nümayiş etdirilərək beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə aşağıdakı sualla müraciət olunur:

– Şəkillərdən hansında yol hərəkəti qaydaları pozulub?



2. Aşağıdakı qaydaları qruplaşdırın (*piyadalar üçün, sürücülər üçün*):

– Ətrafda olanları nəqliyyat siqnalları ilə narahat etməmək üçün istifadə olunur________

– Yaxınlıqda istifadə üçün xəstəxana olduğunu bildirir____________________

– Yolun üzərində nəqliyyat sürətlə hərəkət etdiyi üçün yeraltı keçiddən istifadənin vacibliyini bildirir______________________

– Məktəblər və buna bənzər təşkilatların yanında uşaqların yola çıxma ehtimalı olan yollarda istifadə olunur______________________

Şagirdləri tədqiqata yönəltmək üçün piyadalar üzərində dayanılaraq *"Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrində hansı qaydalara əməl olunmalıdır? Müxtəlif nəqliyyat vasitələrindən istifadə zamanı hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?"* sualları ətrafında aparılmalıdır.

Mətnlə tanışlıq fasiləli oxu və yaxud İNSERT üsulu iləbilər. İNSERT üsulundan istifadə olunarsa şagirdlər bu mətni fərdi və yaxud da cütlər şəklində oxuyub müvafiq qeydlər aparmalıdırlar. Bu zaman onlar verilən məlumatın onlara tanış olub olmadığını, əvvəllər bildiyini inkar etdiyini, məlumatın yeniliyini, bu mövzuda əlavə məlumat almaq istədiyini qeyd edir.

İstər fasiləli oxu, istərsə də İNSERT üsulundan istifadədən sonra məlumatın müzakirəsinə yer verilməlidir.

Şagirdlərin qrup işlərinə cəlb olunması üçün onları püşk atma, saymaq üsulları ilə qruplara bölmək olar. Şagirdlərdən dərsin sonunda bu mövzuda təqdimatın hazırlanması tələb olunduğundan şagirdlərə əlavə materiallar verməklə onlara avtobusda, təyyarədə, metroda, gəmidə hansı qaydalara əməl olunması barədə təqdimatın hazırlanması tapşırılır.

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlər səhifə 104 və 105-də sonuncu tapşırığı yerinə yetirirlər.

2-ci dərs saatında fəaliyyətin icrası nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Şagirdlərə yol nişanları paylanır. Layihə qruplarla işlənə bilər. Və ya qrup halında işlənməsi mümkündür. Şagirdlər nişanlar arasında əvvəlcə məlumatverici nişanları seçəcəklər.

Nişanların verdiyi məlumatların hansı qaydaları tənzimlədiyini qeyd edəcəklər. Qadağan nişanları seçib onların hansı qaydaları tənzimlədiyini yazacaqlar.

Daha sonra məlumatverici nişanları seçib onların mənasını və hansı qaydaları tənzimlədiyini yazacaqlar. Siz şagirdləri "Sizcə, yol nişanlarını bilmədən yol hərəkəti qaydalarını bilmək olarmı?", "Yol nişanlarında hansı ümumi xüsusiyyətlər müəyyən etdiniz?" sualları ilə istiqamətləndirə bilərsiniz.

**Qiymətləndirmə meyarı: təqdimat etmə, tətbiqetmə**

| I | II | III | IV |
|---|---|---|---|
| Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrindən istifadə qaydaları ilə bağlı təqdimat etməkdə çətinlik çəkir. | Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrindən istifadə qaydaları ilə bağlı təqdimat edərkən səhvlərə yol verir. | Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrindən istifadə qaydaları ilə bağlı təqdimat edərkən fikrini tam əsaslandırmır. | Yol hərəkəti və müxtəlif nəqliyyat vasitələrindən istifadə qaydaları ilə bağlı təqdimat edir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Fəaliyyətin icrasında ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| Fəaliyyət əsasında düzgün nəticənin əldə olunması | | |

# 25 Coğrafi obyektlər xəritədə

**Standart:** 1.2.1. Coğrafi obyektləri xəritədə göstərir.

**Məqsəd:** Azərbaycanın coğrafi xəritəsində coğrafi obyektləri göstərir.

Motivasiyanı dərsliyin 100-cu səhifəsində “Maraqlı” rubrikasında təqdim olunan məlumatı verməklə yarada bilərsiniz: “İbtidai insanlar öz ərazilərində olan obyektləri qayalar və ağac qabıqları üzərində təsvir ediblər. E.ə. 4000-ci ildə Babilistan şəhərinin mərmər üzərində işlənmiş xəritəsi aşkar edilib”. Siz şagirdlərdən, “sizcə, insanlar buna nə üçün ehtiyac hiss ediblər?”soruşa bilərsiniz. Çalışın onlardan “coğrafi obyektlər” anlayışını alasınız. Bu anlayış haqqında ötən illərdən qismən məlumata malikdirlər. Tədqiqat “Coğrafi obyektlərin yeri xəritədə necə müəyyən olunur?” sualı ətrafında aparılır. Yönəldici suallar vasitəsilə şagirdləri yönləndirərək coğrafi obyektlərin yerinin xəritələrə əsasən təyin edildiyi, onlar vasitəsilə müxtəlif coğrafi obyektlərin – dağ, dərə, çay, dəniz, okean, materik və adalar, ölkələr və şəhərlərin yeri haqqında məlumat aldığımız fikrini də almaq mümkündür. Coğrafi obyektlərin kiçildilərək verildiyi, buna görə də bütün obyektləri xəritələrdə göstərmək mümkün olmadığı, xəritələrin müxtəlif məzmunda ola bildiyi haqqında onlara məlumat verdikdən sonra bu xəritələrə aid nümunələr nümayiş etdirsəniz, daha yaxşı olar.

Siz motivasiyanı bu xəritələrin nümayişi ilə də başlaya bilərsiniz: bütün dünyanın xəritəsi, materiklərin və okeanların xəritəsi, ölkələrin və onların hansısa bir hissəsinin xəritəsi, təbii zonaların təsvir edildiyi xüsusi xəritələr nümayiş etdirərək şagirdlərə onların bir-biri ilə fərqini soruşa bilərsiniz. Sadəcə, xəritələri seçərkən daha sadələri üzərində qərar tutmağa çalışın. Məsələn, heyvanların yayılmasını göstərən xəritə (zoocoğrafi xəritə) ilə Azərbaycanda əhali sayını göstərən xəritə üzərində dayanmaq olar.

Daha sonra müzakirəni "Xəritə əsasında başqa hansı məlimatlar ala bilərik?" sualı ətrafında aparmaq mümkündür.

Dərsliyin 108, 109 və 110-cu səhifələrində şagirdlərin əldə etdikləri biliklərin yoxlanması üçün sual və tapşırıqlar verilmişdir. Ev taşırığı olaraq şagirdlərə verə bilərsiniz:

Xəritəyə əsasən Qarabağ ərazisindəki çayları müəyyən edin. Adlarını yazın.

Xəritəyə əsasən Azərbaycanda olan zirvələrin adlarını müəyyən edib yazın.

Dərsin növbəti saatını fəaliyyətə həsr edə bilərsiniz.

**Fəaliyyətin gedişi**

Bu praktik fəaliyyətdir. Şagirdlər xəritə üzərində tələb edilənləri göstərirlər. Bunun üçün sizə Azərbaycanın siyasi xəritəsi və fiziki xəritəsi lazım gələcək. 1-ci addımda verilmiş xəritələrə nəzər salıb Azərbaycanın hansı olkələrlə həmsərhəd olduğunu müəyyən etməlidirlər. 2-ci addımda Azərbaycanda hansı adaların olduğunu müəyyən edib adlarını yazmalıdırlar. 3-cü addımda Azərbaycanda hansı dağların olduğunu müəyyən edib adlarını yazmalıdırlar. 4-cü addımda Azərbaycanda hansı düzənliklərin olduğu müəyyən olunmalıdır. 5-ci addımda Azərbaycanda hansı çayların olduğu, 6-cı addımda isə Azərbaycanda hansı şəhərlərin olduğu müəyyən edilib yazılmalıdır. Məqsəd şagirdlərin xəritə ilə işləmək bacarıqlarının formalaşdırılması və coğrafi obyektləri nəyə əsasən tapa biləcəklərini mənimsəmələridir.

**Qiymətləndirmə meyarı: tətbiqetmə**

| I | II | III | IV |
|---|---|---|---|
| Azərbaycanın coğrafi xəritəsində coğrafi obyektləri göstərməkdə çətinlik çəkir. | Azərbaycanın coğrafi xəritəsində coğrafi obyektləri göstərərkən səhvlərə yol verir. | Azərbaycanın coğrafi xəritəsində coğrafi obyektləri müəllimin köməyilə göstərir. | Azərbaycanın coğrafi xəritəsində coğrafi obyektləri sərbəst şəkildə göstərir. |

# 26 Təbii zonalar

**Standart:** 1.1.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.

**Məqsəd:** Meşə, çöl və səhra zonalarını sadə şəkildə izah edir.



Dərsin motivasiyasını dərsliyin 115-ci səhifəsində “Fakt” rubrikasında verilən məlumatla qura bilərsiniz: *“Tayqadakı canlıların əksəriyyəti qış yuxusuna gedir. Çünki burada qışda temperatur -50 dərəcəyə qədər düşə bilər. Bu heyvanların arasında ayılar, gəmiricilər, sürünənlər var”.* Şagirdlərə “Bu heyvanlara hər yerdə rast gəlmək olarmı? Məsələn: ağ ayı, meymun, zürafə, koala bizim təbiətdə yayılıbmı? Nə üçün?” sualları ilə müraciət olunaraq müzakirə təşkil olunur. Daha sonra şagirdlərin fikri canlıların mühit şərtlərindən asılı olaraq müxtəlif zonalarda yayılmasına yönləndirilir.

Şagirdlər Yer kürəsinin müxtəlif hissələrində istilik və rütubətin qeyri-bərabər şəkildə paylandığı haqqında məlumata malikdirlər. Tədqiqat “Təbii zonalar nədir? Onları fərqlən-

dirən cəhətlər nədən ibarətdir?" sualı ətrafında aparılır. Onlara təbii zonaların torpaq və bitki örtüyünün, heyvanlar aləminin bir-birindən kəskin şəkildə fərqləndiyini, bitki və heyvanların qidalanmasının, həyat tərzinin də zonadakı iqlim şəraitindən asılı olduğunu qeyd edin. Yaxud lövhədə xüsusi bir sxem işləməklə zonaların adlarını qeyd edə və təbiətinin xarakterik xüsusiyyətini yaza və o zonalarda yaşayan canlılara nümunələr göstərə bilərsiniz.

Bu zaman dərs kollektivlə həyata keçiriləcək və dioloji təlimə əsaslanacaq. Cədvəli şagirdlərlə birlikdə xəritə əsasında işləmək əyaniliyin təmin olunması baxımından vacib şərtdir.

| Zonalar | Temperatur | İqlim | Bitki örtüyü | Heyvanlar |
|---|---|---|---|---|
| **Arktika** | Temperatur çox aşağı olur. | Güclü külək və şaxta | Bitki örtüyü azdır, mamır, yayda şibyə və yosunlar yaranır | Ağ ayı, suiti |
| **Antarktida** | Temperatur çox aşağı olur. | Güclü külək və şaxta | Bitki örtüyü azdır, mamır, yayda şibyə və yosunlar yaranır | Ağ ayı, suiti |
| **Tundra** | Yay çox qısa və soyuq olur. | Qar yayda ərisə də, torpağın donu açılmır | Bitkilər zəif inkişaf edir | Tundra tülküsü, qütb bayquşu, ağ kəklik, şimal maralı, canavar |
| **Savanna** | Temperatur yüksək olur. | Quraqlıqdır | Otlar çox hündür olur, ən geniş yayılmış ağac baobabdır | Begemot, zürafə, leopard, dəvəquşu, aslan |
| **Səhra** | Temperatur yüksəkdir. | Rütubət çatışmır | Tikanlı kollar, kaktus kimi bitkilər bitir | Dəvə, ilan, kərtənkələ, əqrəb |

Cədvəl tamamlandıqdan sonra lövhəni silməyin, dərsin sonuna qədər şagirdlərə bu cədvələ istinad etməklə tapşırıqları yerinə yetirmələrinə imkan yaradın.

Şagirdlərin əldə etdikləri bilikləri yoxlamaq üçün onlara 113 və 114 və 115-ci səhifədəki sual və tapşırıqları verə bilərsiniz. 114-cü səhifədə verilən tapşırığı ev tapşırığı kimi verə və şagirdlərdən onun əsasında təqdimat hazırlamalarını istəyə bilərsiniz.

T Antarktidada yaşayan canlılar haqqında araşdırma aparın və təqdimat hazırlayın.

Bunun üçün 115-ci səhifədə verilən tapşırıqdan da istifadə etmək olar.

“Savanna” cizgi filminə baxın və öyrəndiklərinizi müzakirə edin. Savannada ən çox yayılmış canlının rəsmini çəkin.



Dərsin ikinci saatı fəaliyyətin icrası üçün nəzərdə tutulur. Fəaliyyət üçün sizə müxtəlif zonalarda yaşayan heyvanların şəkilləri, A4 kağızı, yapışqan, qələm lazım olacaq. Şəkilləri QR kodla təqdim olunan layihə videosunun aşağısında verilən linkdə də əldə edə bilərsiniz.

**Fəaliyyətin icrası**

Şagirdlər müxtəlif xüsusiyyətlər və verilən heyvan şəkilləri əsasında təbii zonaları müəyyənləşdirəcəklər. Bunu əsasən mətndən və əvvəlki siniflərdən öyrəndikləri əsasında edəcəklər. Bu layihə ilə şagirdlər həm ayrı-ayrı təbii zonaların xarakterik xüsusiyyətlərini ümumiləşdirəcək, həm də o zonalarda yaşayan heyvanlar haqqında bildikləri məlumatları ümumiləşdirəcəklər. Layihənin ayrı-ayrı qruplar şəklində reallaşdırılması daha yaxşı olar. Bu zaman hər qrup bir zonanı işləsə, daha yaxşı nəticələr əldə edilə bilər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Meşə, çöl və səhra zonalarını sadə şəkildə izah etməkdə çətinlik çəkir. | Meşə, çöl və səhra zonalarını sadə şəkildə izah edərkən səhvlərə yol verir. | Meşə, çöl və səhra zonalarını sadə şəkildə izah edərkən fikrini tam əsaslandırmır. | Meşə, çöl və səhra zonalarını sadə şəkildə izah edir. |

Fəaliyyəti aşağıdakı meyarlarla qiymətləndirə bilərsiniz:

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| İcra zamanı ardıcıllığın və sistemliliyin gözlənilməsi | | |
| İcra zamanı düzgün nəticənin əldə olunması | | |

# 27 Təbii ehtiyatlar

**Standart:** 1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən ("işıq", "səs" və "enerji") istifadədə elmin rolunu izah edir.
1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar hazırlayır.

**Məqsəd:** Bərpa olunan enerji mənbələrindən istifadənin əhəmiyyətini izah edir. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında təqdimat hazırlayır.



Siz motivasiyanı dərsliyin 120-ci səhifəsində "Maraqlı" və "Fakt" rubrikasında verilən informasiyalar üzərində qura bilərsiniz. "Qədim dövrlərdə insanlar yel dəyirmanından yalnız dən üyütmək üçün istifadə edirdilər. Enerji əldə etmək üçünsə ilk dəfə yel dəyirmanı Danimarkada tikilib". "Dekorativ Günəş enerji panelləri adi evlərin dam ortuklərinə quraşdırılır. Bu panellər həm ev üçün elektrik enerjisi istehsal edir, həm də evin damını qoruyur".

Suallar verməklə şagirdlərdən Günəş enerjisi və küləklə bağlı təbii ehiyat anlayışını almağa çalışın. Onlarla suallar əsasında müzakirə təşkil edərək təbii ehtiyatların tükənən və tükənməyən olduğu, su, neft, təbii qaz, mis, qızıl və s. tükənən təbii ehtiyatlar, Günəş enerjisi, külək isə tükənməyən təbii ehtiyatlar olduğu fikrinə gəlin. Siz bunu sxem şəklində lövhədə də işləyə bilərsiniz.

**Təbii ehtiyatlar**

| Tükənən təbii ehtiyatlar | Tükənməyən təbii ehtiyatlar |
| --- | --- |
| su | külək |
| neft | Günəş |
| təbii qaz | |

Siz müzakirəni "İnsanlar nə üçün alternativ enerji mənbələri axtarırlar?" sualı ətrafında davam etdirə bilərsiniz. Bu zaman mütləq təbiətin çirklənməməsi, havanın, suyun qorunması, torpağın zərərli maddələrlə zibillənməməsi və s. cavablarını almağa çalışın.

Dərsliyin 118 və 119-cu səhifələrində verilən suallar şagirdlərin əldə etdikləri bilikləri yoxlamaq məqsədi daşıyır. Aşağıda verilən sual ətrafında maraqlı bir müzakirə apara bilərsiniz.

Elmin inkişafı ilə təbii ehtiyatlardan istifadə arasındakı əlaqə haqqında nə bilirsiniz?

Ev tapşırığı olaraq

Azərbaycanda külək enerjisinin daha çox əldə edilə biləcəyi ərazilər haqqında araşdırma aparın.

Və ya

Alternativ enerji ehtiyatlarından olan dağ çayları haqqında araşdırma aparın və təqdimat hazırlayın.

verə bilərsiniz.

Dərsin növbəti saatı fəaliyyətin icrası üçün nəzərdə tutulur.

**Fəaliyyətin icrası**

Şagirdlər qruplara ayrılır. Onlara mətnlə tanış olduqdan və özlərinin də araşdırma aparmasından sonra enerji mənbələri ilə bağlı layihə işlənməsi tapşırılır. 4 qrup hər biri ayrı-ayrılıqda bu layihəni reallaşdıra bilərlər.

Fəaliyyət üçün A4 kağız, su elektrik stansiyası, istilik elektrik stansiyası, külək və günəş elektrik stansiyalarının şəkilləri, yapışqan, qələm lazım olacaq. 1-ci addımda şagirdlər şəkillərə nəzər yetirir və nə təsvir edildiyini yazırlar. 2-ci addımda elektrik əldə edilən stansiyalardan birinin şəklini seçir və iş vərəqinə yapışdırır, 3-cü addımda bu stansiyanın elektriki necə əldə etdiyi haqqında bildiklərini yazırlar. 4-cü addımda Azərbaycanda bu cür elektrik əldə edilən hansı stansiyalar olduğunu qeyd edirlər. 5-ci addımda bu enerji mənbəyinin hansı təbii ehtiyatla əlaqəli olduğunu qeyd edirlər.

6-cı addımda bu təbii ehtiyat vasitəsilə elektrik əldə edilmənin mənfi və müsbət tərəflərini qeyd edirlər.

**Qiymətləndirmə meyarı: izahetmə**

| I | II | III | IV |
|---|---|---|---|
| Bərpa olunan enerji mənbələrindən istifadənin əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Bərpa olunan enerji mənbələrindən istifadənin əhəmiyyətini izah edərkən səhvlərə yol verir. | Bərpa olunan enerji mənbələrindən istifadənin əhəmiyyətini izah edərkən fikrini tam əsaslandıra bilmir. | Bərpa olunan enerji mənbələrindən istifadənin əhəmiyyətini nümunələr göstərməklə izah edir. |

# QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Verilən mətnə əsasən hansı bitkilər haqqında danışıldığını müəyyən edin:**
*nar, günəbaxan, kalla, diffenbaxiya, heyva, aloe, nanə,qızılgül, zəfəran, pambıq, kartof, tut*

Hələ qədim zamanlardan Azərbaycanda bəzi bitkilərin meyvə, yarpaq və köklərindən təbii boyaq maddəsi hazırlanıb. Bu boyalardan geyimlərin, bəzək əşyalarının solmayan rənglərlə boyanmasında istifadə olunub. Təbii boyalarla boyanmış saplardan toxunan Azərbaycan xalçaları bütün dünyada şöhrət qazanıb.

**Cavab:** ______________________________________________

**2. Səhv fikri seçin və qarşısına düz variantı yazın.**

1. Nəfəsvermə zamanı ağ ciyərlərə hava daxil olur.
2. Qida mədədə qarışır.
3. İnsan ətrafdan informasiyanın çoxunu dəri vasitəsilə qəbul edir.
4. Bütün orqanlar eyni işi yerinə yetirir.

**3. Verilənlərin içərisindən mikroorqanizmlərin fəaliyyəti nəticəsində baş verənləri seçin.**

1. Süddən qatıq alınması
2. Çürümüş heyvan cəsədi
3. Kifli çörək
4. İnsan bağırsağında qurd
5. Ağac üzərində qov göbələyi

**Cavab:** ______________________________________________

**4. Aşağıdakı fikirlərdən hansılar heyvanların insan həyatındakı rolunu əks etdirir?**

1. Soxulcanlar torpaqda yollar açır.
2. Müxtəlif xəstəliklərin müalicəsində baldan istifadə olunur.
3. Arılar nektar toplamaq üçün çiçəkdən-çiçəyə qonur.
4. Yeni Qvineyada balıqçılar meşədə ağacdan çərçivə hazırlayıb asırlar. Hörümçəklər bu çərçivənin içərisində tor qururlar və alınan tordan balıq tutmaq üçün istifadə olunur.
5. Milçək və ağcaqanadlar qurd xəstəliklərinin yayılmasına səbəb olur.
6. Qarışqalar özlərindən ağır olan qidaları yuvalarına daşıyır.

**5. Verilən funksiyaların hansı orqanlara aid olduğunu müəyyən edin.**

- Bu orqanın əzələləri yığılıb-boşalır və qida qarışır.______________
- Qanın tərkibindəki zəhərli maddələr zərərsizləşdirilir.________________
- Bədənin üzərini örtür və onu zədələnmədən qoruyur.______________________
- Qanı damarlara qovur.________________________

**6. Əsəb gərginliyinə səbəb olan fikirləri müəyyən edin:**

1. Telefonda oyun oynamağın gərginliyə səbəb olması
2. Məktəbdə yüksək nəticənin əldə olunması
3. Xarici görünüşündən narazı olmaq
4. Təbiət qoynunda istirahət etmək

**7. Sağlamlığa mənfi təsir edir:**

1. Təmiz havada gəzmək, gün rejiminə əməl etmək
2. Kompyüter oynanılan otağın havasını dəyişməmək
3. Gigiyena qaydalarına əməl etmək
4. Gec yatıb tez durmaq

Cavab: ______________________________________________________________

**8. Mətndə sağlamlığa mənfi təsir edən hansı amil haqqında danışılır (altından xətt çəkin):**

*zərərli vərdişlər, oturaq həyat tərzi, gigiyena qaydalarına əməl etməmək, düzgün qidalanmamaq*

Sağlamlığa bir çox amillər mənfi təsir göstərir. Bunlardan biri də ___________. Bu zaman iş rejimi ilə əlaqədar beyinə oksigen az daxil olur. Bu beyinin işinə mənfi təsir göstərir, beyin qan dövranı pozulur.

**9. Verilən xüsusiyyətlərin hansı amillərin təsirindən yarandığını qeyd edin.**

| Mühit amilləri / Xüsusiyyətlər | Temperatur | Rütubət | İşıq |
|---|---|---|---|
| Bəzi səhra bitkilərinin uzun və güclü köklərinin olması | | | |
| Yay aylarında bəzi bitkilərin yarpaqlarının tökülməsi | | | |
| Yarasaların gecə aktiv olması | | | |

**10.** Şəkilləri qruplaşdırın:

- Böyüklərin qayğısına qalma ____________
- Əməksevərlik __________________________
- Məsuliyyətlilik _________________________














11. Mətnə əsasən ünsiyyət mədəniyyəti nümayiş etdirən uşaqları müəyyən edin:

Gülnar, Gülay və Arif bir sinifdə oxuyurlar. Onlar sinif əlaçılarıdırlar. Tez-tez məktəbin tədbirlərində iştirak edirlər. Gülnar sinif yoldaşları ilə mehribandır, qardaşının qayğısına qalır. Arif sinif yoldaşları ilə, dostları ilə oyun oynayarkən fikirləri üst-üstə düşmədikdə onların sözünü kəsir. Gülay müəllimləri, valideynləri və bütün ünsiyyətdə olduğu insanlarla xoş rəftar edir. Onlarla danışarkən üzündə təbəssüm hiss olunur.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. “Ayna” Uşaq Ensiklopediyası. Bakı, Ayna Mətbu Evi, 2002
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018
3. Bunları bilmək istəyirəm. İllüstrasiyalı intellektual ensiklopediya. Bakı, Turan evi, 2013
4. Əkbərov N. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. Bakı, “Bərəkət” nəşriyyatı, 2010.
5. Əkbərov N. Məktəbdə əxlaq və davranış qaydaları. Bakı, “Bərəkət” nəşriyyatı, 2010
6. Əliyeva R., Mustafayev Q., Hacıyeva S. Ümumi ekologiya. Bakı, 2004
7. Əliyev S.C., Hacıyeva H.M., Mikayılzadə N.C. Tibbi biliklərin əsasları. Bakı, 2004
8. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004
9. Əmirov M. İnsan və cəmiyyət. Bakı, 2010
10. İbtidai siniflər üçün yeni fənn kurikulumlarına dair gündəlik planlaşdırma nümunələri. Bakı, “Kövsər”, 2010, 196 səh.
11. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün proqram. Bakı, 2003
12. Fovqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001
13. Gərayev Ə., Haqverdiyeva K., Həyat bilgisi fənni təbiət fənlərinin tədrisinə aparan yoldur. “Kurikulum” jurnalı, N°4, 2006
14. Haqverdiyeva K. Həyat bilgisi fənnində interaktivlik. “Kurikulum” jurnalı, N°2, 2008
15. Həsənov M., Cəfərova N., Bəhmənova S. İbtidai sinif muəllimləri ucun kurikulumun məzmunu və həyata kecirilməsi yolları (metodik vəsait). Bakı, 2014
16. Həyat bilgisi dərslikləri. Bakı, 2008–2010
17. Qasımov M. Sağlam həyat tərzi uğrunda. Bakı, 2005
18. Qəndilov R., Tağıyeva S., Qocayeva Ş. və b. Həyati bacarıqlara əsaslanan təhsil
19. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu. Bakı, 1999
20. “Qurani-Kərim” (Tərcüməçilər: Akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev.)
21. Məcidov Ə. Yol hərəkəti qaydaları. Umumtəhsil məktəbləri muəllimləri ucun metodik vəsait. Bakı, 2001
22. Mərdanov M. “Azərbaycan təhsili dünən, bu gün, sabah” Bakı, “Təhsil”, 2006
23. “Özünə və başqalarına kömək etməyi bacar” (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi), Bakı, 2004
24. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009
25. Topciyeva Ş.Ə., Qəndilov R.T., Tağıyeva S.Ş., Qocayev Ş.Ə., Hacıyeva G.N., Məmmədova N.Ə., Hacıyeva A.T. və b. Həyati bacarıqlara əsaslanan təhsil. Çaşıoğlu, 2007
26. “Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları” kitabı. Bakı, 2008. İnteqrativ Kurikulum. Münhen, Niderland, Cito, Yanvar, 2006
27. Veysova Z. Fəal təlim metodları. Bakı, 2007

**Türk dilində**

28. AKSEKİ, Ahmet Hamdi. “Ahlak Dersleri”, İstanbul, 1968

29. Sosial bilgilər 5-ci sinif. İstanbul, 1991

Rus dilində

Rus dilində

30. Коробкин В.И., Передельский Л.В. Экология. Ростов н/Д, Феникс, 2000

31. Мария Эмилия Бредероде-Сантос, Джо Клейес, Ранья Фазах, Аннет Шнайдер, Жужанна Селени. Компасито – пособие по обучению детей правам человека. Совет Европы, 2008

32. Новиков Ю.В. Природа и человек. М., Просвещение, 1991

33. Плешаков А.А. Окружающий мир. Учебник. 4 класс. В 3-х частях.

34. Рахматова А. Роль учителя и его качества. Центр развития учителей при европейско-азербайджанском сообществе.

35. Рольф Голлоб и Петер Крапф. Изучаем права детей. Совет Европы, 2007, 2010

36. Рустамова Л.В. Сущность и значение интеграции предмета познание мира на уроках изобразительного искусства и музыки в начальных классах//Наука и Школа, No5. 2015, с. 195–198

37. Соколова Е.В., Нянковская Н.Н. Этикет для малышей. Ярославль, Академия развития, 2009

**İngilis dilində**

38. International Primary. Science 4. Student’s book. Vector/Maths& Science.

39. Oxford International Primary Science 4. Cambridge International Examinations.

## Buraxılış məlumatı

**HƏYAT BİLGİSİ 4**

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2023-024)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Cabbarlı**
**Könül Mahmudova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Yeganə Rüstəmova**
Üz qabığının dizayneri **Ayaz Abdulzadə**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



© **“Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 11,6. Fiziki çap vərəqi 14. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 112.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2023

Çap məhsulunu hazırlayan:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Pulsuz